11 may 2018-ci il
№17 (8783)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

**Bu sayımızda**

Tələbələrimiz üçün yeni imkan ⇨səh.6

Müasir məktəb mühitində lider obrazı ⇨səh.7

İngilis dili dərslərində fənlərarası inteqrasiya ⇨səh.8

12056 şəhidimizin adı bir bayraqda ⇨səh.11

# Müdriklik yolu

## Ənənəyə çevrilən "Ən yaxşı təqdimat" müsabiqəsi



Heydər Əliyev Mərkəzində o gün də böyük qələbəlik vardı. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə təşkil olunan və artıq ənənəyə çevrilən tədbirlərdən biri gerçəkləşirdi. "Ən yaxşı təqdimat" müsabiqəsi qalibləri mükafatlandırılacaqdı. Mərasimə ev sahibliyini bu dəfə Heydər Əliyev Mərkəzi öz üzərinə götürüb. Xatırladaq ki, indiyədək bu tədbir "Gülüstan" sarayında keçirilirdi.

### Ən yaxşı təqdimat belə olmalıdır

Artıq 3-cü ildir ki, IX-XI sinif şagirdləri ulu öndərlə bağlı düşüncələrini, arzularını məhz bu müsabiqədə ifadə edirlər. Düz 3 ildir ki, iqtisadi cəhətdən inkişaf etmiş mərkəzi şəhərlərdə yerləşən ən nüfuzlu məktəblərdən tutmuş ucqar kəndlərdəki kiçik məktəblərə qədər hər yerdən məktəblilər dahi şəxsiyyətlə bağlı ürək sözlərini ədəbi-bədii dillə ifadə, hər biri öz tərzində təqdim edirlər. Onlar üçün qəlblərində bəslədikləri sevgidən danışmaq heç də çətin deyil. Ancaq üzərində düşünməli olduqları bir məqam var: hər kəsin sevdiyi lider barədə nə desinlər ki, fərqlənsinlər. Necə desinlər ki, daxillərində bəslədiyi böyük hissi düzgün ifadə edə bilsinlər?

⇨Ardı səh.4

# Daha tez və rahatlıqla sosiallaşma

## Məktəbəhazırlığı məktəbdə keçən uşaqlar

Bu mövzuda yazı hazırlayarkən nədənsə son 3 ilə qədərki dövr gözümüz önündə canlandı. Övladını məktəb həyatına hazırlamaq, ona müəyyən biliklər vermək istəyən valideynlər o zamanlar problemlə üz-üzə olurdular. Hamını bir məsələ düşündürürdü: "Övladımızın məktəbə getməsinə bir il qalıb. Görəsən, onu hara yazdıraq ki, məktəbə gedəndə müəyyən biliklərə malik olsun, uşaqlarla və müəllimlərlə ünsiyyət qurmaqda çətinlik çəkməsin". Düzdür, bağçalarda məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Lakin uşaqların sayı çox olduğundan tələbat ödənilmir. Yəni uşaq sayı çox, bağçalar az. Onda valideynlər üz tuturdu müxtəlif məktəbəhazırlıq kurslarına. Və bu zaman da oradakı təhsilhaqqı əksər valideynlərin cibinə uyğun olmadığından, müəyyən bir təbəqə həmin xidmətlərdən istifadə edə bilirdi. Nəticədə uşaqların bir qismi təhsilə atılan ilk addım kimi vacib amil olan məktəbəhazırlıqdan məhrum olurdu. Bundan da uşaqlarla yanaşı, valideynlər də əziyyət çəkir, bir növ övladı qarşısında özlərini günahkar sayırdılar.

Mövcud problemi aradan qaldırmaq üçün Təhsil Nazirliyi təhsil siyasətinin strateji istiqamətlərindən biri olan məktəbəqədər təhsil sisteminin inkişafı yönündə əsaslı dönüş yaratmağa müvəffəq olub, ölkə üzrə azyaşlı uşaqların məktəbəqədər təhsilə cəlbolunma səviyyəsini artırmaq məqsədilə mühüm addımlar atıb. Belə ki, 2015-ci ildə 5 yaşlı uşaqlar üçün məktəbəhazırlıq proqramı təşkil edilib.

Onu da qeyd edək ki, Təhsil Nazirliyinin təklifləri əsasında Nazirlər Kabinetinin məktəbəhazırlığın təşkili məsələləri ilə bağlı 271 və 404 saylı qərarları olub ki, həmin qərarların tələblərinə əsasən, respublikanın bütün bölgələrində dövlət ümumtəhsil müəssisələrində dövlət büdcəsi vəsaiti hesabına məktəbəhazırlıq qrupları yaradılıb. Belə ki, 2016-2017-ci tədris ilində respublikanın 2.795 ümumtəhsil məktəbində 4.410 qrupda 86.970 uşaq məktəbəhazırlıq təhsilinə cəlb edilib. 2017-2018-ci tədris ilində isə 2.874 ümumtəhsil müəssisəsindəki 4.708 qrupda 93 mindən çox uşaq məktəbəhazırlığa cəlb olunub.

2017-ci ildə Bakı şəhərində məktəbəhazırlıq qruplarına uşaqların qəbulu elektron sistem vasitəsilə ərizələrin onlayn qeydiyyatı aparılmaqla həyata keçirilib. 2018-ci ildən isə bu qayda paytaxtla yanaşı, bir sıra bölgələrdə də tətbiq olunmağa başlayıb.

Yeri gəlmişkən, 2020-ci ilədək uşaqların məktəbəhazırlıqla təmin olunma səviyyəsinin mərhələlərlə 90 faizə çatdırılması əsas hədəflərdən biridir.

### Dövlət hesabına təlim və metodiki vəsaitlərlə təminat

Həftədə 4 gün fəaliyyət göstərən və valideyn tərəfindən heç bir ödəniş olunmayan məktəbəhazırlıq qruplarında "Ətraf aləmlə tanışlıq", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Bədii təfəkkürün inkişafı", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Musiqi" və "Fiziki mədəniyyət" məşğələləri keçirilir.

⇨Ardı səh.11

# "Təhsildə gender bərabərliyinin gücləndirilməsi"

Mayın 7-də Bakıda Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin "Təhsildə gender bərabərliyinin gücləndirilməsi" mövzusunda plenar iclası keçirilib.

Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə təşkil olunan iclasda İrlandiya, Rumıniya, Polşa, Bosniya və Herseqovina, Monteneqro, Böyük Britaniya, Tacikistan, Gürcüstan, Qırğızıstan, Kipr, Belarus, Ukrayna, Qazaxıstan, Albaniya və Bolqarıstandan təhsil sahəsi üzrə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatlarından 40-a yaxın nümayəndə iştirak edib.

Təhsil naziri Ceyhun Bayramov çıxışında bildirib ki, gender bərabərliyinin mühüm istiqamətlərindən biri məhz təhsillə bağlıdır. Eyni zamanda, qadın və kişilərin bərabər təhsil almaları ölkədə hüquq bərabərliyinin fundamental əsaslarından biridir.

Nazir qeyd edib ki, XIX əsrin ikinci yarısında Azərbaycanda Avropa standartlarına uyğun qadınlara məxsus təhsil müəssisələri fəaliyyətə başlayıb. 1901-ci ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin şəxsi vəsaiti hesabına Qızlar Gimnaziyası açılıb. Sonralar qadınların dünyəvi təhsil imkanları genişlənib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də qadınların təhsil almalarına geniş imkanlar yaradılıb. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra bu ənənə uğurla davam etdirilib. "Təhsil haqqında" Qanunda bərabərlik təhsilin əsas prinsiplərindən biri kimi müəyyənləşdirilib. Dövlət cinsindən, irqindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradıb.

Diqqətə çatdırılıb ki, bu gün müəllimlərin 80 faizə qədərini, təhsilalanların isə 46 faizini qadınlar və qızlar təşkil edir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ayrılmış 3558 təqaüd yerinin 30 faizini qızlar təşkil edir. Magistratura səviyyəsində təhsil alanların 54, fəlsəfə doktorlarının 51, elmlər doktorlarının isə 46 faizi qadınlar və qızlardır. Ali məktəb rəhbərləri arasında da qadınların sayı artmaqdadır. Hazırda 6 rektor, 37 prorektor, 15 kollec direktoru, 36 direktor müavini, 11 ilk peşə-ixtisas təhsili mərkəzinin direktoru, 40 direktor müavini, 1244 ümumtəhsil məktəbinin direktoru, 3569 direktor müavini qadındır.

⇨Ardı səh.3



# "Yırtıcı" jurnallarla mübarizə apara bilmirik"

*Aliya Ospanova:* "Biz istəyirik ki, alimlər elmi işlərini çapa təqdim edərkən aldadılmasınlar"

Səh.9

# Müddətsiz əmək müqaviləsi ilə işə qəbul üçün keçirilmiş müsahibələrin nəticələri açıqlanıb

Respublikanın ümumi təhsil müəssisələrində müddətli əmək müqaviləsi əsasında işləyən müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması məqsədilə keçirilmiş müsahibələrin nəticələri məlum olub. Müsahibələrin nəticələrinə əsasən, həvəsləndirmə tədbirləri tətbiq edilməyən ümumtəhsil məktəblərinə müddətsiz əmək müqaviləsi ilə işə qəbul edilmək istəyən 121 nəfər və həvəsləndirmə tədbirləri tətbiq edilən ümumtəhsil məktəblərində işləyən 356 nəfər olmaqla ümumilikdə 477 nəfərlə növbəti tədris ilindən etibarən müddətsiz əmək müqaviləsi bağlanılacaq.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda keçirilmiş müsahibələrdə hər bir namizəd müsahibə proqramına uyğun olaraq qiymətləndirilib. Müsahibədə iştirak etmək üçün *http://www.miq.edu.az/muqavile/* saytında elektron qeydiyyatdan keçmiş ümumilikdə 2882 nəfər müəllimdən 692 nəfəri müsahibələrdə iştirak edib.

Qeyd edək ki, mövcud qaydalara əsasən işə qəbul müsabiqəsi nəticəsində namizədin topladığı bal 2 təqvim ili müddətində qüvvədədir. Belə ki, sözügedən müsahibələrdə uğur qazana bilməyən, 2017-2018-ci tədris ili üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək, zəruri keçid balını toplamış namizədlər növbəti tədris ili üçün keçirilən müsabiqə zamanı birbaşa vakansiya seçimi mərhələsində iştirak edə bilər.

Müsahibələrin nəticələri barədə ətraflı məlumat almaq istəyən namizədlərə şəxsi səhifələrinə baxmaları tövsiyə olunur.

# Təhsil Nazirliyi qanvermə aksiyası keçirib

8 may - Beynəlxalq Talassemiya Günü ilə əlaqədar Təhsil Nazirliyində qanvermə aksiyası keçirilib. Aksiyada Təhsil Nazirliyinin rəhbərliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, nazirliyin tabeliyindəki qurumların əməkdaşları fəal iştirak edib.

Qanvermə aksiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramının icrası çərçivəsində həyata keçirilən tədbirlərə dəstək vermək məqsədi ilə təşkil olunub.

Aksiyada Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının səyyar tibb briqadasının həkim-hemotoloqları donorların sağlamlıq vəziyyətini yoxlayıb və bundan sonra müvafiq qaydada qan götürüblər. Qan nümunələri xüsusi laboratoriyada yoxlamadan keçiriləcək və irsi qan xəstələrinin müalicəsində istifadə edilməsi üçün Mərkəzi Qan Bankında toplanacaqdır.

## RƏSMİ XRONİKA



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev Mərkəzində keçirilən ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak ediblər. Dövlət başçısı mərasimdə nitq söyləyib.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.

■ Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Prezident İlham Əliyev mayın 10-da Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edib.

■ Mayın 9-da ölkə başçısı İlham Əliyev “DP World” şirkətinin prezidenti Sultan Əhməd bin Sulaimi qəbul edib.

■ Dövlət başçısı İlham Əliyev mayın 9-da Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsia Milanı qəbul edib.

■ Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak ediblər.

■ Mayın 7-də ölkə başçısı İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

■ Azərbaycan Prezidenti İlham Əliyev mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak edib.

■ Ölkə başçısı İlham Əliyev mayın 7-də Kamran Sultan oğlu İmanovun Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, Səbuhi Zəhmət oğlu Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilmələri, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi Samir İlham oğlu Mayılovun isə iş yerinin dəyişdirilməsi haqqında sərəncamlar imzalayıb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz və Xızı rayonlarında səfərdə olub. Ölkə başçısı səfəri çərçivəsində hər iki rayonda bir sıra sosial-iqtisadi yönümlü obyektlərin açılışlarında iştirak edib. Dövlət başçısı İlham Əliyev ictimaiyyət nümayəndələri ilə görüşüb və onların qarşısında çıxış edib.

# Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın artan beynəlxalq nüfuzu və idmana dövlət qayğısı sayəsində hər il ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilir. Belə yarışlar sırasında futbol xüsusi yer tutur. 17 yaşınadək qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə və 17 yaşınadək kişilər arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir. Eyni zamanda, ölkəmiz 2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununa (üç qrup və bir 1/4 oyunu) evsahibliyi edəcək.

2017-ci il sentyabrın 20-də Avropa Futbol Assosiasiyaları Birliyi (UEFA) İcraiyyə Komitəsi tərəfindən 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Nüfuzlu turnirin final oyununun Bakı şəhərinə həvalə edilməsi ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman və bədən tərbiyəsi sahəsində əldə edilən nailiyyətlərə beynəlxalq və Avropa futbol qurumları tərəfindən verilən yüksək qiymətin göstəricisidir.

Bu oyunların Bakıda təşkili futbolun daha da inkişafına, ölkəmizdə idman sahəsində həyata keçirilən dövlət siyasətinin gücləndirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, dünya idman aləmində önəmli yer tutmasına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ilin may ayında Bakı şəhərində keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

| | |
|---|---|
| Yaqub Eyyubov | - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini |

**Təşkilat Komitəsinin sədr müavini**

| | |
|---|---|
| Rövnəq Abdullayev | - Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Prezidenti, UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində keçirilməsi ilə bağlı əməliyyat işlərinin rəhbəri |

**Təşkilat Komitəsinin üzvləri**

| | |
|---|---|
| Yusuf Məmmədəliyev | - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri |
| Azad Rəhimov | - Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti |
| Elmar Məmmədyarov | - Azərbaycan Respublikasının xarici işlər naziri |
| Ramil Usubov | - Azərbaycan Respublikasının daxili işlər naziri |
| Kəmaləddin Heydərov | - Azərbaycan Respublikasının fövqəladə hallar naziri |
| Şahin Mustafayev | - Azərbaycan Respublikasının iqtisadiyyat naziri |
| Samir Şərifov | - Azərbaycan Respublikasının maliyyə naziri |
| Mikayıl Cabbarov | - Azərbaycan Respublikasının vergilər naziri |
| Oqtay Şirəliyev | - Azərbaycan Respublikasının səhiyyə naziri |
| Əbülfəs Qarayev | - Azərbaycan Respublikasının mədəniyyət naziri |
| Ramin Quluzadə | - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri |
| Ceyhun Bayramov | - Azərbaycan Respublikası təhsil naziri |
| Səfər Mehdiyev | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri |
| Mədət Quliyev | - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi |
| Elçin Quliyev | - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi |
| Vüsal Hüseynov | - Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi |
| Cahangir Əsgərov | - “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti |
| Etibar Pirverdiyev | - “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti |
| Balababa Rzayev | - “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri |
| Çingiz Hüseynzadə | - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti |
| Anar Ələkbərov | - Heydər Əliyev Mərkəzinin direktoru |
| Vüsal Kərimli | - Bakı Nəqliyyat Agentliyinin direktoru |
| Elxan Məmmədov | - Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Baş katibi, UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində keçirilməsi üzrə əlaqələndirici |

**2.** Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı bütün təşkilati işlərin icra olunması, UEFA ilə əlaqələndirmə işlərinin aparılması Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına həvalə olunsun.

**3.** Azərbaycan Futbol Federasiyaları Assosiasiyası futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı xüsusi tədbirlər planı hazırlayıb Təşkilat Komitəsinə təqdim etsin.

**4.** Azərbaycan Futbol Federasiyaları Assosiasiyası futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 may 2018-ci il*



# İnformatika üzrə XII Ümumrespublika olimpiadasının final mərhələsi keçirilib

## 14 ali təhsil müəssisəsinin komandası qələbə uğrunda mübarizə aparıb

**Yusif ƏLİYEV**

Mayın 5-də AMEA İnformasiya Texnologiyaları İnstitutunda ali məktəb tələbələri arasında informatika üzrə XII Ümumrespublika olimpiadasının final mərhələsi keçirilib. 2007-ci ildən müntəzəm keçirilən tədbirin təşkilatçıları Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutudur.

İnstitutdan verilən məlumata görə, 17 may - Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş olimpiadanın əsas məqsədi ali məktəb tələbələrinin informatika, proqramlaşdırma sahəsindəki biliklərinin və bu sahəyə olan marağının artırılması, habelə sahə üzrə seçilən tələbələrin beynəlxalq yarışlara cəlb edilməsidir.

Tədbiri AMEA-nın akademik-katibi, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev açaraq olimpiada iştirakçılarını salamlayıb, artıq 12-ci ildir ki, keçirilən yarışın cari ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə təsadüf etdiyini bildirib.

Elm və təhsilin inkişafına ölkə rəhbərliyi tərəfindən daim diqqət göstərildiyini söyləyən alim İKT-nin bu sahələrdə tətbiqinin geniş imkanlar təqdim etdiyini vurğulayıb. Akademik müasir dövrdə dünyada informatika və proqramlaşdırmanın inkişaf etdirilməsinə böyük önəm verildiyini deyərək bu sahə üzrə yüksəkixtisaslı, böyük elmi-praktiki təcrübəyə malik, innovativ təfəkkürlü kadrların hazırlanmasına tələbatın olduğunu vurğulayıb.

R.Əliquliyev, həmçinin Azərbaycanın elm və təhsil ictimaiyyətinin müraciəti əsasında ölkə rəhbərliyi tərəfindən beynəlxalq olimpiadalarda qalib olmuş gənclərə ölkəmizin ali məktəblərinə növbədənkənar qəbul imkanlarının yaradıldığını diqqətə çatdırıb, bunu təqdirəlayiq addım kimi qiymətləndirib.

Bu kimi müsabiqələrin təşkilinin elm və təhsilin inteqrasiyası istiqamətində həyata keçirilən mühüm tədbirlərdən olduğunu deyən R.Əliquliyev bildirib ki, bu il respublika üzrə 25 ali təhsil müəssisəsindən 62 komanda yarışda iştirak hüququ qazanıb. Paytaxt və regionlarda fəaliyyət göstərən 14 ali təhsil müəssisəsinin (BMU, “ADA” Universiteti, BANM, BDU, AzTU, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan-Fransız Universiteti, Milli Aviasiya Akademiyası, ADAU, SDU, ADNSU, Azərbaycan Universiteti, NDU) ən yaxşı nəticə göstərən 14 komandası isə olimpiadanın ikinci (final) mərhələsinə vəsiqə qazanıb.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə qeyd edib ki, İKT-nin dinamik inkişafı və vüsət alması ilə formalaşan informasiya cəmiyyətinin qurulmasında Azərbaycanın gələcəyi olan gənclər də yaxından iştirak etməli və ən müasir texnologiyalara yiyələnməlidirlər.

Tədbir iştirakçılarını Təhsil Nazirliyinin rəhbərliyi adından salamlayan nazirliyin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin bu gün uğurla davam etdirildiyini söyləyib. O, bugünədək xarici ölkələrdə təhsil almış tələbələrin 10 faizini İT ixtisaslarına yiyələnən gənclərin təşkil etdiyini qeyd edərək ölkə rəhbərliyi tərəfindən bu ixtisas üzrə təhsilin inkişafına xüsusi önəm verildiyini, cari ildən başlayaraq İT ixtisasları üzrə bakalavr pilləsinə qəbulun 1,5 dəfə artırıldığını diqqətə çatdırıb. Y.Piriyev informasiya təhlükəsizliyi sahəsinin önəmini nəzərə alaraq ölkəmizdə bu istiqamətdə qəbulun 20 yerdən 140 yerə qaldırılmasını da təqdirəlayiq hal kimi qiymətləndirib. Şöbə müdiri, həmçinin, orta məktəb şagirdləri arasında növbəti Beynəlxalq İnformatika Olimpiadasının (International Olympiad in Informatics - IOI) 2019-cu ildə Azərbaycanda keçiriləcəyini deyib, yüksək biliyə malik şagirdlərin bu yarışda ölkəmizi təmsil edəcəyinə əminliyini vurğulayıb.

Heydər Əliyev Fondunun nümayəndəsi, hüquq üzrə fəlsəfə doktoru Zafiq Xəlilov Fondun elm və təhsil, o cümlədən müasir dövrün çağırışlarına cavab verən informasiya texnologiyaları sahəsində həyata keçirilən layihələrə daim dəstək verdiyini diqqətə çatdırıb, bu kimi olimpiadaların keçirilməsinin gənclərin özünü təkmilləşdirməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyib.

Olimpiadanın Münsiflər Heyətinin sədri, Bakı Dövlət Universitetinin dosenti Ramin Mahmudzadə çıxış edərək informatika və proqramlaşdırma sahəsində istedadlı tələbələrin aşkara çıxarılması və onlara dəstək verilməsi, ölkəmizin intellektual yarışlarda yüksək səviyyədə təmsil olunmasına şərait yaradılması baxımından olimpiadanın böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Sonra olimpiadanın təşkilatçılarından olan Bakı Mühəndislik Universitetinin müəllimi Etibar Seyidzadə texniki məsələlər və prosedurlar haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, müsabiqə zamanı hər komandaya 5 saat ərzində 12 alqoritmik məsələni həll etmək tapşırığı verilir. Finalda ən yaxşı nəticə göstərən 4 komanda qalib elan edilir.

Daha sonra Təşkilat Komitəsinin üzvləri müsabiqənin keçirildiyi auditoriyalarda final mərhələsində iştirak edən komandalarla tanış olublar.

Qeyd edək ki, şəffaflığın təmin olunması üçün müsabiqənin gedişinə institutda quraşdırılmış video-müşahidə sistemi vasitəsilə müəllimlər tərəfindən nəzarət edilib.

Sonda final mərhələsinin nəticələri açıqlanıb. Final mərhələsinin nəticələrinə əsasən, 1-ci yerə Bakı Mühəndislik Universitetinin “BEU Programmers”, 2-ci yerə “ADA” Universitetinin “ADA U1”, 3-cü yerə Bakı Dövlət Universitetinin “BSU1”, 4-cü yerə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Sharper” komandaları layiq görülüblər.

Qaliblər 17 may - Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş tədbirdə “Nar” operatoru və “BestComp Group” şirkətinin təqdim etdiyi qiymətli hədiyyələr, habelə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Fəxri fərman və diplomlarla mükafatlandırılacaq.

# "Təhsildə gender bərabərliyinin gücləndirilməsi"

## Bakıda Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin plenar iclası keçirilib



⇦ Əvvəli səh.1

Aparılan araşdırma zamanı məlum olub ki, anaları ali təhsilli olan şagirdlər arasında ali məktəblərə qəbulolma faizi daha artıqdır.

Ceyhun Bayramov vurğulayıb ki, ölkəmizdə gender bərabərliyinin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti danılmazdır. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, mədəniyyətimizin və folklorumuzun beynəlxalq miqyasda təbliğində Mehriban Əliyevanın gördüyü işlər hər zaman rəğbətlə qarşılanır. Sağlamlıq imkanları məhdud olan uşaqların təhsil almalarında Heydər Əliyev Fondu müstəsna işlər görüb. Fond, eyni zamanda, Pakistan, Uqanda və Keniya kimi ölkələrdə qızların təhsil almaları üçün dəstək göstərib. Nazir vurğulayıb ki, ölkə Prezidenti tərəfindən inklüziv təhsilin inkişafı üçün 2018-2024-cü illəri əhatə edən Dövlət Proqramı təsdiq edilib və hazırda həyata keçirilməkdədir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxışında qeyd edib ki, Azərbaycan qadını sivilizasiyalar arasında mədəni dialoqun qurulmasında, ayrı-ayrı xalqların ortaq mədəni dəyərlərinin aşkara çıxarılmasında, ölkələr arasında elmi-humanitar və mədəni əməkdaşlığın dərinləşməsində, xalqımızın haqq səsinin beynəlxalq tribunalardan səsləndirilməsində böyük işlər görüb. Azərbaycan qadınının qazana bildiyi nailiyyətlər təbii ki, ölkədə bərabərliyin təmin olunması ilə əlaqədar görülən işlərlə bilavasitə bağlıdır. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı", 2006-cı ilin dekabrında isə Azərbaycan Respublikasının Milli Məclisi "Gender bərabərliyinin təminatları" haqqında Qanun qəbul edib. Bununla da ölkədə gender sahəsində geniş işlər aparmaq üçün zəruri normativ hüquqi baza yaradılıb. Bu gün Azərbaycan qadınlarının statistik vəziyyətinə nəzər yetirdikdə onların fəaliyyəti haqqında real mənzərə dərhal göz önündə canlanır. Ölkə əhalisinin ümumi sayının 50,1 faizini qadınlar təşkil edir. Sosial-iqtisadi həyatda fəal iştirak edən Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2 faizdir. Eyni zamanda, dövlət qulluğunda çalışanların 28,5, sahibkarların isə 21,5 faizini qadınlar təşkil edir. Diqqətçəkən daha bir məqam da odur ki, son illər idmanla məşğul olan azərbaycanlı qadınların, çempionların sayı sürətlə artır. Hazırda bədən tərbiyəsi və idmanla məşğul olanların 41,7 faizini qadınlar təşkil edir. Qadınların həyatın müxtəlif sahələrində fəal iştirak etmələri, ilk növbədə, onların bilik səviyyəsinin yüksəldilməsi, ümumiyyətlə, bu sektorda qadın iştirakçıların ildən-ilə artması ilə əlaqədardır. Bu gün ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlərin 79,8, orta ixtisas təhsil müəssisələrində çalışanların 77,9, ali təhsil müəssisələrində çalışanların isə 51,9 faizi qadınlardır.

AHİK sədrinin sözlərinə görə, ümumi təhsil müəssisələrində şagirdlərin 46 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 65,3 faizi, ali təhsil müəssisələri tələbələrinin isə 48,2 faizi qızlardır, həmçinin səhiyyə işçilərinin 65,7 faizini, elmi işçilərin 56 faizini qadınlar təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 8-i, müxbir üzvlərindən isə 12-si qadındır. Müasir Azərbaycan dövlətində qadınların fəaliyyətinə geniş yer verilməsi, gender bərabərliyinin qorunması, eyni zamanda, qadınların sosial-iqtisadi, siyasi və mədəni sahələrin inkişafında iştirakçılıqdan birbaşa aparıcı mövqeyə keçməsi həm də lider qadınların yetişdirilməsi üçün əsaslı zəmin yaradılıb. Bunu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın timsalında tam aydın görmək mümkündür. Bu gün Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə ən yüksək vəzifələrdə uğurla təmsil olunurlar. Ölkənin ali qanunvericilik orqanı olan Milli Məclisin üzvlərinin 20 nəfəri xanım deputatdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanın torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün həyatı yaşayır. İşğal nəticəsində 242 məktəbəqədər tərbiyə müəssisəsi, 616 ümumtəhsil məktəbi və 4 kollec dağıdılaraq məhv edilib, Azərbaycanın təhsil sisteminə 1,5 milyard dollardan çox ziyan dəyib. Qaçqın və məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalan bu insanların 20 min nəfərdən çoxunu müəllimlər, onların da əksəriyyətini qadınlar, 100 min nəfərdən çoxunu isə şagirdlər təşkil edir. Dünya birliyi bu ədalətsizliyə hələ də dözür. Problemin həll olunmamasının başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və vasitəçilərin bu məsələyə biganə münasibətidir. Bu bizi narahat edən əsas problemdir.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edib. O bildirib ki, Azərbaycanda qadınların inkişafı gender bərabərliyi çərçivəsində sistemli şəkildə həyata keçirilib. Ölkəmizdə dövlət quruculuğu sahəsində qadınlar daim kişilərlə birlikdə siyasi qərarlar veriblər. Bu il xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin və qadınlara seçib-seçilmək hüququnun verilməsinin 100 illiyini qeyd edir. Azərbaycan müsəlman Şərqində bu sahədə ilk islahatlar həyata keçirən dövlətdir.

Komitə sədri deyib ki, Azərbaycanda qadınların dövlət siyasətində fəal iştirakı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam və inkişaf etdirilir. İnkişaf tədbirləri bir çox sahələrdə olduğu kimi, ölkə təhsilində daha çox müşahidə olunur. İctimai, sosial həyatda gənclərin daha fəal olmaları üçün təhsildənkənar xüsusi layihələr həyata keçirilir. Bununla yanaşı, dövlət erkən nikahların və qızların təhsildən uzaqlaşmasının qarşısını almaq üçün xüsusi proqramlar reallaşdırır.

Daha sonra Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin prezidenti Kristine Blover və Komitənin direktoru Susan Floken çıxış ediblər.

Tədbir işini panel iclaslarla davam etdirib.

**AZƏRTAC**

# Təhsil Nazirliyinin əməkdaşları arasında "Nə? Harada? Nə zaman?" oyunu keçirilib

Təhsil Nazirliyinin əməkdaşları arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə çempionat keçirilib. Çempionat nazirliyin əməkdaşları arasında komanda ruhunu gücləndirmək və onların asudə vaxtını birlikdə səmərəli təşkil etmək məqsədi daşıyır.

19 komandanın iştirak etdiyi yarış hər birində 10 sual olmaqla 3 turdan ibarət olub. Maraqlı və gərgin mübarizə şəraitində keçən yarışda birinci yeri Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin "VET" komandası, ikinci yeri Beynəlxalq əməkdaşlıq şöbəsinin "Böyük Altılıq" komandası, üçüncü yeri isə Təhsilin inkişafı proqramları şöbəsinin "Qartal" komandası qazanıb.

Qalibləri təbrik edən təhsil naziri Ceyhun Bayramov kollektiv arasında belə intellektual yarışların təşkil olunmasının əhəmiyyətini qeyd edib, sağlam mübarizə ruhunda keçirilən çempionatın davamlı olmasını diqqətə çatdırıb.

Qalib komandalar diplom və kubokla təltif edilib.

# Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi Təhsil Nazirliyində qeyd edilib

Mayın 10-da Təhsil Nazirliyində Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatı və nazirliyin Həmkarlar İttifaqı Komitəsi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə tədbir keçirilib.



Tədbir Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan sənədli filmin nümayiş etdirilməsi ilə başlayıb.

Ulu öndərin xatirəsinin hər il böyük ehtiramla anıldığını diqqətə çatdıran təhsil nazirinin müavini Firudin Qurbanov ümummilli lider Heydər Əliyevin Azərbaycanda dövlət quruculuğu, müstəqilliyimizin bərpası və ölkəmizin dünya miqyasında tanınması baxımından misilsiz xidmətlərindən danışıb. Firudin Qurbanov ulu öndərin müəyyən etdiyi inkişaf strategiyasının, təhsil sahəsinə göstərdiyi yüksək diqqətin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Tədbirdə daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatının sədri Rauf Orucov, nazirliyin Həmkarlar İttifaqı Komitəsinin sədri Əsgər Quliyev ümummilli liderin Azərbaycan xalqı qarşısındakı xidmətlərindən, təhsil sahəsində islahatların həyata keçirilməsi ilə bağlı imzaladığı mühüm fərman və sərəncamlardan, habelə müəllimlərə və gənclərin təhsilinə hər zaman diqqətlə yanaşdığından söz açıblar.

Sonra Təhsil Nazirliyinin YAP-a yeni üzv qəbul edilmiş əməkdaşlarına partiya biletləri təqdim olunub, partiya sıralarına üzv qəbul olunmaq istəyən digər əməkdaşların müraciəti isə müsbət cavablandırılıb.

# Koreya İnsan Resursları İnkişafı Xidmətinin nümayəndələri tərəfindən hazırlanmış kurikulumların təqdimatına dair görüş

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyində Təhsil İnstitutunun və Koreya İnsan Resursları İnkişafı Xidmətinin nümayəndələri ilə növbəti görüş keçirilib.

Görüşün əsas məqsədi Azərbaycan və Koreya hökumətləri arasındakı razılaşmaya uyğun olaraq, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında Koreya təhsil standartları əsasında yaradılacaq Peşə Təhsil Mərkəzi layihəsi çərçivəsində tədris olunması nəzərdə tutulan 8 ixtisas (elektronika, elektrik, avtomatlaşdırma, avtomobil, tikinti, sənaye və quraşdırma, İKT, mexanika) üzrə hazırlanmış təhsil proqramlarının (kurikulumların) və tədris vəsaitlərinin təqdimatı və müzakirələrin aparılması olub.

Koreyalı ekspertlər təhsil proqramları (kurikulumlar) və tədris vəsaitləri barədə geniş məlumat verərək, səriştə əsaslı kurikulumların 80 faiz təcrübəyə əsaslanmaqla tərtib edildiyini bildiriblər.

Görüşdə, həmçinin layihə çərçivəsində təhsil proqramlarından istifadə edəcək ixtisaslı kadrların cəlb edilməsi, təlimləndirilməsi və hazırlığı məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Təqdim olunan kurikulumlar və tədris modulları Peşə Təhsili Dövlət Agentliyinin nümayəndələri tərəfindən müsbət dəyərləndirilib, onların tətbiqinin peşə təhsilinin, eləcə də təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində xüsusi önəm kəsb edəcəyi vurğulanıb.

# ADPU-da ümummilli lider Heydər Əliyevə həsr edilmiş konsert proqramı



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rəhbərliyi, professor-müəllim heyəti və tələbə kollektivi Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək əziz xatirəsini ehtiramla anıblar. Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsi ehtiramla yad edilib, məzarı önünə gül dəstələri düzülüb. Sonra isə universitetdə musiqi, təsviri incəsənət, fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı fakültəsinin müəllim və tələbələrinin iştirakı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş konsert proqramı keçirilib. Tədbir iştirakçıları öncə fakültənin müəllim və tələbələrinin rəsm əsərləri ilə tanış olublar.

Konsertdə "Xalqa bağışlanan ömür" filmi nümayiş olunub, fakültənin birləşmiş xoru "Gözəl Vətən" musiqili kompozisiyasını təqdim edib. Konsertdə həmçinin Məxfirət Hüseynova, Məhərrəm Alişanov Əməkdar incəsənət xadimi Nailə Mirməmmədlinin iştirakı ilə musiqisi Sevil Əliyevanın, sözləri Baba Vəziroğlunun olan "Ana", Ənvər Məmmədhəsənov musiqisi Kamala, sözləri Baba Vəziroğluna məxsus "Sən elə bir zirvəsən" və Rauf Məmmədov Müslüm Maqomayevin "Azərbaycan" mahnılarını, fakültənin birləşmiş xoru "Bu dünya" musiqili kompozisiyasını ifa ediblər.

Sonra ulu öndər Heydər Əliyevin ADPU-nun 60 illik yubileyində iştirakını əks etdirən film nümayiş olunub.

Sonda musiqisi Nailə Mirməmmədlinin, sözləri "Musiqi və onun tədrisi metodikası" kafedrasının baş müəllimi Nərmin Kamilovanın olan "Ulu öndər" mahnısı ifa edilib.

Konsert proqramı iştirakçılarda xoş təəssürat yaradıb.

# ADNSU beynəlxalq konfransa ev sahibliyi edəcək

Mayın 8-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) sentyabrın 11-i və 12-də Bakıda baş tutacaq "Gələcəyin energetikası: problemlər və perspektivlər" adlı beynəlxalq konfransın təşkilat komitəsinin ikinci iclası keçirilib.

İclası giriş sözü ilə açan ADNSU-nun rektoru, professor Mustafa Babanlı iştirakçılara konfransın qarşısında duran məqsədlərdən danışıb, həmçinin müzakirə olunacaq mövzuların əhəmiyyəti, dəvət olunacaq qonaqlar, çıxışlar və digər görüləcək işlər haqqında məlumat verib. Daha sonra konfransın gündəliyində duran məsələlər müzakirə olunub. Konfransın yekun nəticəsindən asılı olaraq onun davamlı olaraq keçirilməsinin nəzərdə tutulduğu vurğulanıb.

Konfransda müzakirə olunacaq mövzuların əhəmiyyətindən danışan millət vəkili Məlahət İbrahimqızı konfransın beynəlxalq miqyasda tanıdılmasının önəmini vurğulayıb və tədbirə xarici ölkələrdən nüfuzlu mütəxəssislərin cəlb olunmasının energetikanın qlobal problemlərinə öz töhvəsini verəcəyinə inandığını bildirib.

İclasın gedişində elmi, təşkilati, maliyyə və digər məsələlər ətrafında müzakirələr aparılıb. Konfransın proqram layihəsi ilə əlaqədar fikirlər dinlənilib.

# “Ən yaxşı təqdimat” müsabiqəsi qaliblərinin təltif edilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə 2017-2018-ci dərs ilində ümumtəhsil məktəb şagirdləri arasında keçirilmiş “Ən yaxşı təqdimat” müsabiqəsi qaliblərinin təltif olunması ilə əlaqədar “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları göstərilən şagirdlər I, II, III dərəcəli diplomlar və tərifnamə ilə təltif edilsinlər:

**I dərəcəli diplomla**

1. Əli Nərgiz İlqar qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa Liseyinin XI sinif şagirdi
2. Göyüşlü Aydan Zakir qızı — Bakı şəhəri 18 nömrəli tam orta məktəbin XI sinif şagirdi
3. Rzayeva Təhminə Anar qızı — Gəncə şəhəri 25 nömrəli tam orta məktəbin X sinif şagirdi
4. Əlipaşayeva Ləman Mənsur qızı — Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın X sinif şagirdi
5. Əsədova Səbinə Abbasəli qızı — Hacıqabul rayonu Udulu kənd tam orta məktəbinin IX sinif şagirdi
6. Şərifzadə Murad Habil oğlu — Qax şəhəri 2 nömrəli məktəb-liseyin X sinif şagirdi
7. Mərdəliyeva Təranə Bəşir qızı — Saatlı rayonu Varxankənd kənd tam orta məktəbinin XI sinif şagirdi
8. Baloğlanlı Şəhanə Adil qızı — Yardımlı rayonu Vərgədüz kənd tam orta məktəbinin XI sinif şagirdi

**II dərəcəli diplomla**

1. Əliyeva Nuranə Zaur qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəbin XI sinif şagirdi
2. Səfərov Məhəmməd Yusif oğlu — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 132-134 nömrəli təhsil kompleksinin X sinif şagirdi
3. Nəsibli Səbinə Neman qızı — Bakı şəhəri 314 nömrəli tam orta məktəbin X sinif şagirdi
4. Hüseynova Azadə Rövşən qızı — Gəncə şəhəri 19 nömrəli tam orta məktəbin IX sinif şagirdi
5. Fətəliyeva Nigar Namiq qızı — Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəbin XI sinif şagirdi
6. Vəliyeva Səadət Anar qızı — Abşeron rayonu Məmmədli kənd tam orta məktəbinin IX sinif şagirdi
7. Əliyeva Zülfiyyə Eltun qızı — Abşeron rayonu Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
8. Orlova Anna Viktorovna — İsmayıllı rayonu İvanovka kənd tam orta məktəbinin XI sinif şagirdi
9. Babayeva Səkinə Rauf qızı — Goranboy rayonu Quşçular kənd tam orta məktəbinin IX sinif şagirdi
10. Sadıqov Rza Aqil oğlu — Göygöl rayonu Xəqani kənd tam orta məktəbinin X sinif şagirdi
11. İmanov Ayxan Rafiq oğlu — Kəlbəcər rayonu 108 nömrəli tam orta məktəbin XI sinif şagirdi
12. Ağayeva Fidan Elçin qızı — Qubadlı rayonu Qaralar kənd tam orta məktəbinin IX sinif şagirdi
13. Feyzullayev İqrar Anar oğlu — Masallı rayonu Böyük Xocavar kənd tam orta məktəbinin IX sinif şagirdi
14. Sərkərova Əsmər Mahir qızı — Oğuz şəhəri 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi

**III dərəcəli diplomla**

1. Mustafayeva Ümbülbanu Vüqar qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Əfəndiyev adına Elitar Gimnaziyanın IX sinif şagirdi
2. Eyvazov Şəmsi Şükür oğlu — Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin IX sinif şagirdi
3. Şadlinskaya Fidan Elşən qızı — Bakı Slavyan Universitetinin nəzdindəki Məktəb-lisey kompleksinin XI sinif şagirdi
4. Qaracayev Elnur Elman oğlu — Bakı şəhəri 20 nömrəli məktəb-liseyin IX sinif şagirdi
5. İmanova Leyla Vaqif qızı — Bakı şəhəri 26 nömrəli tam orta məktəbin X sinif şagirdi
6. Mikayılova Fidan Saleh qızı — Bakı şəhəri 82 nömrəli tam orta məktəbin IX sinif şagirdi
7. İsmayılova Sevinc Anar qızı — Bakı şəhəri 143 nömrəli tam orta məktəbin X sinif şagirdi
8. Əliyeva Zərrin Tahir qızı — Bakı şəhəri 279 nömrəli tam orta məktəbin X sinif şagirdi
9. Kərimli Aytac Elnur qızı — Mingəçevir şəhəri 13 nömrəli tam orta məktəbin IX sinif şagirdi
10. Əlizadə Aytac Elnur qızı — Mingəçevir şəhəri 20 nömrəli tam orta məktəbin IX sinif şagirdi
11. Fətəlizadə Nazənin Natiq qızı — Astara rayonu Siyaku kənd tam orta məktəbinin XI sinif şagirdi
12. Alqayeva Aytəkin İbrahim qızı — Balakən şəhəri 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi
13. Mehdiyeva İlahə Rövşən qızı — Bərdə rayonu Nazırlı kənd 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi
14. Murad İlknur Çingiz qızı — İsmayıllı şəhəri 3 nömrəli məktəb-liseyin X sinif şagirdi
15. Nəsirli Aytac Müşfiq qızı — Gədəbəy şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
16. Quluzadə Qarakişi İlqar oğlu — Göyçay şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
17. Seyfullazadə Kənan Kamran oğlu — Lerik şəhəri 3 nömrəli tam orta məktəbin X sinif şagirdi
18. Rəcəbli Ramin Yaşar oğlu — Zaqatala rayonu Aşağı Tala kənd 1 nömrəli tam orta məktəbin X sinif şagirdi

**Tərifnamə ilə**

1. Cəfərova Nuriyyə Arif qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi
2. Zeynalova Nərgiz Seyhun qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin X sinif şagirdi
3. Məlikzadə Jalə Xanlar qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki S.Bəhlulzadə adına xarici dillər təmayüllü gimnaziyanın X sinif şagirdi
4. Xanverdiyeva Nübar Qədir qızı — Təhsil Nazirliyinin birbaşa tabeliyindəki A.S.Makarenko adına humanitar fənlər təmayüllü gimnaziyanın IX sinif şagirdi
5. Əhmədova Ləman Anar qızı — Bakı Dövlət Universitetinin nəzdindəki “Gənc istedadlar” liseyinin IX sinif şagirdi
6. Haşımzadə Habil Ceyhun oğlu — Bakı şəhəri 125 nömrəli tam orta məktəbin XI sinif şagirdi
7. Ağayeva Həyat Qurban qızı — Bakı şəhəri 183 nömrəli tam orta məktəbin IX sinif şagirdi
8. Əhmədova Nərmin Mətləb qızı — Bakı şəhəri 278 nömrəli tam orta məktəbin X sinif şagirdi
9. Xudiyeva Aytac Sənan qızı — Bakı şəhəri 281 nömrəli tam orta məktəbin XI sinif şagirdi
10. Hüseynzadə Səbinə Rasim qızı — Naftalan şəhəri 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi
11. Əhmədov Sənan Orxan oğlu — Ağdam rayonu 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi
12. Həsənli Özləm Həsən qızı — Cəbrayıl rayonu Sirik kənd tam orta məktəbinin IX sinif şagirdi
13. Hümbətli Məryəm Nazim qızı — İmişli şəhəri 1 nömrəli humanitar fənlər təmayüllü məktəb-liseyin X sinif şagirdi
14. Həsənova Zərnişan Oktay qızı — Xocavənd rayonu 4 nömrəli tam orta məktəbin X sinif şagirdi
15. Quluyeva Nərmin Ədalət qızı — Kürdəmir şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
16. Qasımlı Elmin Adil oğlu — Qobustan rayonu Çuxanlı kənd tam orta məktəbinin X sinif şagirdi
17. Mirzəyeva Svetlana Sadıq qızı — Qusar rayonu Aşağı Ləyər kənd tam orta məktəbinin X sinif şagirdi
18. Əsgərova Şənay Zaur qızı — Lənkəran şəhəri 3 nömrəli tam orta məktəbin IX sinif şagirdi
19. Quliyeva Günay Vüqar qızı — Samux şəhəri 2 nömrəli tam orta məktəbin IX sinif şagirdi
20. Sultanova Zərnigar Mahmud qızı — Şabran rayonu Şahnəzərli kənd tam orta məktəbinin X sinif şagirdi
21. Ağayev Seyidəli Natiq oğlu — Şamaxı şəhəri 1 nömrəli tam orta məktəbin X sinif şagirdi
22. Hüseynli Aytac Elçin qızı — Şəki şəhəri 5 nömrəli tam orta məktəbin X sinif şagirdi
23. Məmmədova Aynur Zaur qızı — Şəmkir rayonu Çaparlı kənd tam orta məktəbinin XI sinif şagirdi
24. Xankişiyeva Zeynəb Vaqif qızı — Şuşa şəhəri 3 nömrəli tam orta məktəbin IX sinif şagirdi
25. Həmidli Bahar Şövqi qızı — Zərdab şəhəri 1 nömrəli məktəb-liseyin X sinif şagirdi

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*24 aprel 2018-ci il*

# Müdriklik yolu

## Ənənəyə çevrilən “Ən yaxşı təqdimat” müsabiqəsi



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**




Bunun üçün müsabiqənin şərtləri onlara əlavə imkanlar verib. Həmin şərtlərə görə, şagird 10 dəqiqə vaxt ərzində Heydər Əliyevin zəngin fəaliyyəti haqqında dolğun və əhatəli informasiyaya malik olduğunu göstərməlidir. Özü də bunu maraqlı formada etməlidir. Təbii ki, təqdimatçının sərbəstliyi, nitqinin səlistliyi, ardıcıllığı, ifadəliliyi, lüğət ehtiyatının zənginliyi çox önəmlidir. İrəli sürdüyü fikirləri faktlarla əsaslandırmalı, söylədiklərinin təsir gücünü artırmaq üçün ədəbi-bədii nümunələrdən də istifadə etməli, ümummilli liderin fikirlərinə istinad etməli, ondan sitatlar gətirməlidir. Bunu bacarsa, həmin məktəbli ən yaxşı təqdimatın müəllifinə çevrilir. Öncə seçilir, sonra Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən mükafatlandırılır. Sözsüz ki, bu dəfə də belə olacaq.

### Heydər Əliyevin zəngin irsini öyrədən ən yaxşı yol

Tədbir Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyasının xor kollektivinin Dövlət himninin ifası ilə başladı.

Təhsil naziri Ceyhun Bayramov ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin hərtərəfli inkişafında və dünya miqyasında tanınmasında əvəzsiz xidmətlərindən danışdı.Təhsil sahəsində səmərəli proqram və layihələrin ulu öndərdən sonrakı mərhələdə də həyata keçirildiyini vurğuladı. C.Bayramov Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq reallaşdırılan tədbirləri xüsusi qeyd etdi. Nazir çıxışında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilə xüsusi diqqət və qayğısına toxundu. Təhsil sahəsində həyata keçirilən layihələr sayəsində tədris ocaqlarının maddi-texniki bazalarının daha da möhkəmləndirildiyini xatırlatdı.

Nazir ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən “Ən yaxşı təqdimat” müsabiqəsinin dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin irsinin, genişmiqyaslı fəaliyyətinin və dövlətçilik fəlsəfəsinin gənc nəsil tərəfindən öyrənilməsi baxımından böyük əhəmiyyətini vurğulayaraq, müsabiqə qaliblərini qazandıqları uğur münasibəti ilə təbrik etdi.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov çıxış edərək artıq ənənə halını almış müsabiqənin gənclərin siyasi təfəkkürünün formalaşmasında, onların vətənpərvər ruhda böyümələrində müstəsna rol oynadığını bildirdi. Ə.Əhmədov son illərdə Azərbaycanda təhsil sahəsində çox böyük irəliləyişlər əldə edildiyini diqqətə çatdıraraq, aparılan islahatların gələcəkdə ölkəmizin inkişafı üçün daha etibarlı əsasların qurulması baxımından geniş meydan açacağına əminliyini ifadə etdi.

Daha sonra çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov müsabiqənin əhəmiyyətini vurğuladı. Təşkilatçılardan olan Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən danışan A.Ələkbərov bildirdi ki, Fond ölkəmizin tərəqqisi və xalqımızın rifahına xidmət edən genişmiqyaslı layihələr həyata keçirərək ümummilli lider Heydər Əliyevin ideyalarını davam etdirir. Bugünkü müsabiqə Azərbaycan gəncliyinin ümummilli lider Heydər Əliyevin xalqımızın qarşısındakı misilsiz xidmətlərini, onun müəllifi olduğu dövlət quruculuğu konsepsiyasını dərindən öyrənməyə böyük maraq göstərdiyinin bariz nümunəsidir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ulu öndərin ölkəmizə rəhbərlik etdiyi vaxtda Azərbaycanın inkişafı və dünyada tanıdılması istiqamətində mühüm addımlar atıldığını vurğuladı. Azərbaycan təhsilinin Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu bildirən nazir ölkəmizdə innovasiya sahələrinin inkişafı üçün bir çox startap layihəsinə qrantlar ayrıldığını, onların da xeyli hissəsini gənclərin təşəbbüslərinin təşkil etdiyini dedi.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Səttar Möhbalıyev ölkəmizdə gənclərin inkişafı, intellektual səviyyələri, kadrların yetişdirilməsi, istedadlı uşaq və gənclərin aşkarlanması, onların potensialının inkişaf etdirilməsinin hər zaman diqqət mərkəzində olduğunu bildirdi. Eyni zamanda ölkəmizin təhsil sisteminin qabaqcıl ölkələrin təhsil mühitinə inteqrasiya olunması üçün geniş imkanlar açıldığını, istedadlı gənclərə diqqət və qayğının artırıldığını qeyd etdi.

### Seçilib mükafatlandırılanlar

Hər təqdimat Heydər Əliyevlə bağlı kiçik ürəklərdə bəslənən böyük sevgidən xəbər verir. Odur ki, onların hər biri qiymətlidir. Ancaq ölkə üzrə cəmi 65 müəllifin təqdimatı mükafata layiq görüldü. “Ən yaxşı təqdimat” müsabiqəsinin nəticələrinə əsasən, 8 nəfər I, 14 nəfər II, 18 nəfər III dərəcəli diplomla, 25 nəfər isə tərifnamə ilə təltif olundu. Müsabiqə qaliblərinə qiymətli hədiyyələr təqdim edildi.

Hədiyyələr sadəcə dövlət qurumları və ictimai-siyasi təşkilatlardan deyildi. Tədbirdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin və Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyası şagirdləri də öz ifaları ilə qalibləri və onların sevincinə şərik olan qonaqlarını sevindirdilər.

### Bir müsabiqə də arxada qaldı

Beləliklə, Heydər Əliyev Mərkəzində baş tutan sayca üçüncü “Ən yaxşı təqdimat” müsabiqəsinin də qalibləri bəlli oldu. Ulu öndərə olan sevgisi qəlbindən süzülüb dilinə gələn 65 məktəbli unudulmaz bir gün yaşadı. Təkcə birinci yerə layiq görülən 8 nəfərdən 5-nin kənd məktəblərindən, hətta rayon mərkəzindən 30 kilometrədək uzaqlıqda yerləşən təhsil müəssisələrindən seçildiyini nəzərə alsaq, müsabiqənin miqyasını və əhəmiyyətini, şəffaflığını və ədalətliliyini təsəvvür etmək daha asan olar.

# Şagird və tələbələr arasında keçirilmiş bədii yaradıcılıq festivalına yekun vurulub

## Bu il ilk dəfə olaraq müsabiqədə bütün ali təhsil müəssisələri iştirak edib

Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə ali, orta və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird və tələbələri arasında keçirilmiş bədii yaradıcılıq festivalının yekun konserti olub.

Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi tələbələri milli vətənpərvərlik, milli adət-ənənələrə hörmət ruhunda tərbiyə etmək, eləcə də istedadlı gəncləri üzə çıxarmaq, onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək göstərmək və bədii-estetik səviyyəsini yüksəltməkdir.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, ali təhsil müəssisələrinin rektorları, Təhsil üzrə Avropa Həmkarlar İttifaqı Komitəsinin və 20-dək ölkənin Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının rəhbərləri iştirak ediblər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıb.

Səttar Möhbalıyev bədii yaradıcılıq festivalının şagird və tələbələrin asudə vaxtının səmərəli təşkil olunması, istedadlı gənclərin aşkarlanması baxımından rolunu qeyd edib. Bildirib ki, Tələbə Həmkarlar Təşkilatı vasitəsi ilə universitetlərdə idman yarışları, intellektual oyunlar və olimpiadalar keçirilir.

Sonra çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bütün sahələrin, xüsusilə, təhsil sahəsinin sürətlə inkişaf etdiyini vurğulayıb, bu uğurlu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyib.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş festivalın ənənəvi olaraq hər il təşkil edildiyini qeyd edən nazir müavini bildirib ki, bu il ilk dəfə olaraq müsabiqədə respublikada fəaliyyət göstərən bütün ali təhsil müəssisələri iştirak edib. Festivalın I mərhələsində müvəffəqiyyətlə iştirak etmiş kollektiv və solo ifaçılar növbəti respublika mərhələsində öz bacarıqlarını nümayiş etdiriblər. Seçimlər Bakı, Lənkəran, Gəncə şəhərləri və Quba rayonunda aparılıb.

Firudin Qurbanov festivalın keçirilməsində əməyi olan hər kəsə, xüsusilə münsiflər heyətinə təşəkkür edib və tələbələrə uğurlar arzulayıb.

Qeyd edək ki, festivalın yekun konsertində 19 ali, 12 orta ixtisas və 11 peşə təhsili müəssisəsinin tələbələri iştirak edib.

# Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş konsert

Mayın 3-də Azərbaycan Dövlət Filarmoniyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibəti ilə ümumtəhsil və orta ixtisas təhsili müəssisələrinin şagird və tələbələri arasında gənc ifaçıların III respublika müsabiqəsinin yekun konserti keçirilib.



Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək müstəqil Azərbaycanda dövlət gənclər siyasətinin banisi olan ulu öndər Heydər Əliyevin daim gənclərə və uşaqlara böyük diqqətlə yanaşdığını, mədəniyyət və incəsənət xadimlərinə xüsusi qayğı göstərdiyini vurğulayıb. Nazir müavini ümummilli liderin əsasını qoyduğu təhsil siyasətinin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Çıxışının sonunda Firudin Qurbanov qalibləri təbrik edib, onlara uğurlar arzulayıb və ölkəmizi dünyada layiqincə təmsil etməyi tövsiyə edib.

Tədbir konsert proqramı ilə davam edib, Qara Qarayev adına Dövlət Kamera Orkestri və müsabiqənin laureatları çıxış ediblər.

Müsabiqənin keçirilməsində məqsəd şagird və tələbələr arasında ümummilli lider Heydər Əliyev irsini təbliğ etmək, istedadlı, yaradıcı gəncləri üzə çıxarmaqdır.

Müxtəlif nominasiyalar (fortepiano, tar, kamança, xanəndə, qanun, balaban, vokal, simli və nəfəs alətləri) və yaş kateqoriyaları üzrə iki mərhələdə keçirilən müsabiqəyə respublika üzrə 572 nəfər iştirakçı sənəd təqdim edib ki, onlardan 215 iştirakçı I, 119 iştirakçı isə II mərhələyə seçilib. 124 nəfər ifaçı laureat və diplomant adına layiq görülüb.

Qeyd edək ki, müsabiqə çərçivəsində Musiqi Mədəniyyəti Muzeyində şagird və ifaçıların Heydər Əliyevin 95 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti” adlı ilk elmi-praktik konfransı da keçirilib.

# Respublika şahmat festivalının açılış mərasimi keçirilib

“Şahmat” fənni tədris olunan ümumtəhsil müəssisələrinin şagirdləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş respublika şahmat festivalının final mərhələsinə start verilib.



Bakı şəhəri 12 nömrəli tam orta məktəbdə keçirilən final yarışının açılış mərasimində çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə şahmat idman növünün inkişafına göstərilən dövlət qayğısından, Azərbaycan şahmatçılarının nailiyyətlərindən, bu idman növünün uşaqlar üçün əhəmiyyətindən danışıb, gənc şahmatçılara uğurlar arzulayıb.

Açılış mərasimindən sonra yarışlara start verilib.

Qeyd edək ki, şəxsi xarakter daşıyan yarış İsveçrə sistemi üzrə keçirilir, komandaların tərkibi 7-10 yaşlı 3 oğlan və 3 qız olmaqla 6 nəfərdən ibarətdir.

Festivalın I mərhələsi “Şahmat” fənni tədris olunan pilot ümumi təhsil məktəbləri arasında keçirilib, rayon (şəhər) üzrə qalib şagirdlər finalda iştirak etmək hüququ qazanıb. Bu mərhələdə respublika üzrə “Şahmat” fənni tədris olunan 500-ə yaxın pilot məktəbdən 3 min nəfərdən çox şagird iştirak edib.

Final yarışlarına mayın 9-da yekun vurulub və 400-ə yaxın şagird qatılıb. 2, 3 və 4-cü siniflər üzrə şəxsi yarışlarda müvafiq yerləri tutan məktəblilər diplom, medal və qiymətli hədiyyələrlə təltif olunub.

# “Azərbaycan: müasirlik və gələcəyin qovuşuğunda”

**Oruc MUSTAFAYEV**

## Bilik Fondunun təşkilatçılığı ilə III Beynəlxalq şagird konfransı keçirilib

Mayın 4-də Bakıda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan “Azərbaycan: müasirlik və gələcəyin qovuşuğunda” mövzusunda III Beynəlxalq şagird konfransı keçirilib. Konfransa ölkəmizin 26 bölgəsindən 80, Türkiyə, Rusiya, Gürcüstan, Misir və İsraildən 21 məktəbli olmaqla ümumilikdə 101 şagird qatılıb.



Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov konfransın plenar iclasında çıxış edərək mötəbər tədbirdə iştirak etdiklərinə görə məktəblilərə minnətdarlığını bildirib. İcraçı direktor şagirdlərin növbəti konfransının əlamətdar hadisələrə təsadüf etdiyini qeyd edib. O, Prezident İlham Əliyevin “Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” imzaladığı sərəncamla bu il ölkəmizdə Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə yanaşı, həm də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünün qeyd olunduğunu diqqətə çatdırıb. Növbəti əlamətdar günlərdən biri isə Bilik Fondunun mayın 20-də 4 yaşının tamam olmasıdır. Çıxışında ümummilli lider Heydər Əliyevin ölkəmizdə gənc nəslin inkişafındakı xidmətlərindən danışan O.Səmədov ulu öndərin məktəblilərə qayğısından və sevgisindən söhbət açıb. III Beynəlxalq şagird konfransının təşkili də ölkəmizdə dövlət tərəfindən elmə və təhsilə göstərilən diqqət və qayğının nəticəsidir. Bilik Fondunun təşkil etdiyi şagird konfranslarının da məqsədi vətənə sadiq, yüksək biliyə malik vətənpərvər gənclər yetişdirməkdir. Konfransın bir məqsədi də ölkəmizin ayrı-ayrı regionlarından və dünyanın müxtəlif ölkələrindən olan gəncləri bir araya gətirmək, onları dost etmək, xarici ölkə vətəndaşlarına ölkəmizi tanıtmaq, Azərbaycanı təbliğ, sülhə və əmin-amanlığa xidmət etməkdir. Bilik Fondu tərəfindən son dörd ildə üç beynəlxalq şagird konfransının keçirildiyini deyən icraçı direktor qeyd edib ki, konfransın materiallarından ibarət toplu dərc olunur. Hər bir iştirakçıya elektron formada təqdim edilən topluda məktəblilərin Azərbaycan dilində 70, rus dilində 17, ingilis dilində 6 və türk dilində 6 məqaləsi əksini tapıb.

Bilik Fondunun ölkəmizdə təhsil sahəsində həyata keçirdiyi layihələr barədə geniş məlumat verən Oktay Səmədov konfransa qatılan xarici ölkələrin məktəblilərinə Bakını daha yaxından tanımağa, azərbaycanlı yaşıdları ilə dostluq münasibətləri qurmağa şərait yaradılacağını vurğulayaraq onlara elm yolunda mətin addımlarla irəliləməyi arzulayıb.

Plenar iclasda Azərbaycan Milli Elmlər Akademiyası İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, Təhsil Nazirliyinin aparıcı məsləhətçisi Afət Süleymanova, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin aparıcı məsləhətçisi Namiq Ağayev, Misirin Azərbaycandakı səfirliyinin mədəniyyət attaşesi Əhməd Sami Elaydi çıxış edərək III Beynəlxalq şagird konfransının işinə uğurlar arzulayıblar.

Sonra Türkiyə, Gürcüstan və Rusiyadan olan məktəblilər çıxış edərək bu cür tədbirə qatılmaqdan sevinc hissi keçirdiklərini deyərək təşkilatçılara minnətdarlıqlarını bildiriblər. Cəbrayıl rayonu Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin şagirdi Samirə Orucova növbəti beynəlxalq konfransın Qarabağda keçirilməsini arzuladığını deyib və xarici yaşıdlarını işğaldan azad olunan Cocuq Mərcanlı kəndinə dəvət edib.

Çıxışlardan sonra Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin, Türkiyənin Bandırma Yavuz Sultan Səlim Anadolu liseyinin və Rusiyanın Mıtışı şəhər 31 nömrəli orta ümumtəhsil məktəbinin şagirdləri arasında “Qardaşlama sazişi” imzalanıb.

Daha sonra konfrans öz işini “Heydər Əliyev və azərbaycançılıq”, “Azərbaycan dili və ədəbiyyat”, “Azərbaycan mədəniyyəti və incəsənəti”, “Azərbaycan tarixi və coğrafiyası”, “Azərbaycanı tanıyaq” mövzularında bölmələr üzrə davam etdirib. Bölmə iclaslarında şagirdlərin Azərbaycan, türk, rus və ingilis dillərində məruzələri dinlənilib.

Məruzələr ətrafında aparılan müzakirələrdən sonra məktəblilərə iştirakçı sertifikatları və Bilik Fondunun hədiyyələri təqdim edilib.

# Akkreditasiya prosesinə dair təlimlər davam edir

Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin Akkreditasiya şöbəsinin əməkdaşları tərəfindən cari tədris ilindən başlayaraq akkreditasiya prosesinə dair keçirilən təlimlər davam edir.

Növbəti tədris ilində akkreditasiyası nəzərdə tutulan Dövlət Gömrük Komitəsinin Akademiyasında, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Daxili Qoşunların Ali Hərbi Məktəbində keçirilən təlimlərin məqsədi ali təhsil müəssisəsinə akkreditasiya prosesinə hazırlıq üçün dəstək göstərmək, müəssisə tərəfindən təqdim olunan özünütəhlil hesabatını təkmilləşdirmək və hesabatın tələb edilən qaydada tərtib olunmasına metodiki yardım etməkdir.

Təlimlərdə ali təhsil müəssisələrinin rəhbər, inzibati, eləcə də professor-müəllim heyətləri iştirak edib. Təlim zamanı məktəbin özünütəhlil prosesinin effektiv təşkili, hesabatlarda qiymətləndirmə meyarlarının tam şəkildə əksi, habelə müəssisənin fəaliyyətində son beş ilin dinamik inkişafının əks olunması, müvafiq ardıcıllıqla onların hesabatda göstərilməsi qaydaları müzakirə olunub, akkreditasiya üçün qiymətləndirmə istiqamətləri ətraflı şəkildə izah edilib. Həmçinin ali təhsil müəssisəsində keyfiyyət təminatı sisteminin qurulması, müəllimlərin elmi-tədqiqat fəaliyyətinə cəlb olunması, təlimdə yeni metodların tətbiqi kimi məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Təlim iştirakçıları ali təhsil müəssisələrinin inkişafının dəstəklənməsi üçün bu təlimlərin faydalı olduğunu qeyd edib, keyfiyyətin təminatı sisteminin təkmilləşdirilməsi üçün onların davam etdirilməsinin vacibliyini vurğulayıblar.

# Müəllim və tələbələr Cocuq Mərcanlıda

UNEC-in Zaqatala filialının müəllim-tələbə heyəti Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib.

Nümayəndə heyəti öncə Horadiz şəhərində “Aprel şəhidlərinə xatirə” abidəsini ziyarət edərək, şəhidlərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Filial kollektivi şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbində müəllim və şagirdlərlə görüşüb. Filialın iqtisadiyyat fakültəsinin dekanı, dosent Həqiqət Qədimova məktəblilərə təhsil müəssisəsi barədə ətraflı məlumat verərək, onlara “UNEC-də 1 gün” layihəsindən söz açıb. Bildirib ki, layihə çərçivəsində şagirdlər bir günlük UNEC tələbəsi olmaq hüququ qazanır və bu, onlara universitet ilə daha yaxından tanış olmaq imkanı yaradır.

Layihəni maraqla qarşılayan Cocuq Mərcanlı kənd məktəbinin şagirdləri “UNEC-də 1 gün” layihəsində iştirak etmək istədiklərini bildirib.

Məktəblilərə dərslərində uğurlar arzulayan filial kollektivi onlara kitablar hədiyyə edib.

Sonra müəllim və tələbələr Lələtəpə yüksəkliyinə qalxaraq, “N” saylı hərbi hissənin əsgər və zabitləri ilə görüşüblər. Səfər çərçivəsində Şuşa məscidinin bənzəri də ziyarət olunub.

# Qarşılıqlı faydalı münasibətlər naminə

**Ruhiyyə DAŞSALAHLI**

## İnşaat Kolleci ilə Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyi arasında qardaşlaşma yeni mərhələdə



Mayın 7-dən Azərbaycan Memarlıq və İnşaat Universitetinin binasının ikinci mərtəbəsində həmin universitetin nəzdində fəaliyyət göstərən İnşaat Kollecinin tələbələrinin əl işləri sərgilənir. "Dizayn yarat" adlı bu sərgidə dizayn ixtisası üzrə təhsil alan 60-a yaxın tələbənin qabilen, farfor, "Street Art", "Bulleen Art" üslubunda, yağlı və sulu boya ilə rəsm əsərləri, toxunmalardan ibarət 100-dən çox sənət nümunələri nümayiş olunur.

Hər il mayın 10-dək açılışı reallaşdırılan sərgilər tələbələrin əməyinin stimullaşdırılmasına hesablanıb. Kollecin direktoru N.Ağamalıyev bildirib ki, hər il tələbələrin əl işlərindən ibarət sərginin təşkil olunması onlara öz üzərində daha çox işləmələri üçün stimul verir: "Başqa bir tərəfdən də bu, müsabiqədir. Müsabiqə isə yarış deməkdir. Tələbələrimiz arasında rəqabət mühiti formalaşdırırıq. Qalibləri diplomlarla, fəxri fərmanlarla təltif edərək onları daha da həvəsləndirməyə çalışırıq".

### Türkiyəli qonaqlar sərgidə

Tələbələrini həvəsləndirmək üçün bu il Kollec sərginin açılışına Türkiyədən qonaq da dəvət edib. Beləliklə, tədbir tədbirə, sevinc sevincə qarışıb.

Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində İnşaat Kollecinin türkiyəli qonaqları İzmir Aliağa şəhər Milli Təhsil İdarəsinin müdiri Ogün Derse, Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyinin müdiri Mehmet Sıtqı Arı, liseyin müəllim və tələbələrindən ibarət 20 nəfərlik heyətdir. Qonaqlar 9 günlük səfər çərçivəsində Bakıdadırlar. Gəliş səbəbinə gəlincə, bu, sadəcə sərgidə iştirak deyil. İnşaat Kolleci ilə Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyi artıq iki ildir ki, qardaşlaşıb. 2016-cı ildən əsası qoyulan münasibətlər İnşaat Kollecindən olan nümayəndələrin İzmirə səfəri ilə başlayıb. Bu barədə İnşaat Kollecinin direktoru Namiq Ağamalıyev "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib: "Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibovanın təşəbbüsü ilə İzmir şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyi ilə AzMİU nəzdində İnşaat Kolleci 2016-cı ildə birgə layihə hazırlayıb. "Tək millət, iki dövlət" adlanan layihə çərçivəsində İzmirdən ulu öndər Heydər Əliyevin 95 illik yubiley tədbirlərində iştirak etmək üçün həmin liseyin tələbə və müəllimlərindən ibarət böyük bir nümayəndə heyəti Bakıya gəlib".

N.Ağamalıyev layihənin məqsədlərindən də danışıb: "Bu layihədə əsas məqsədimiz hər iki ölkəni tələbələrimizə tanıtdırıb sevdirməkdir. İndiyədək tanışlıq məqsədilə qarşılıqlı səfərlər olub. Bundan sonrakı mərhələdə müxtəlif proqramlar, o cümlədən Mövlanə proqramı çərçivəsində tələbə mübadiləsi də nəzərdə tutulur".

Maraqlıdır, mübadilə nə vaxtdan başlayır? N.Ağamalıyevin sözlərinə görə, bəzi oxşar ixtisaslar olsa da, İzmirdəki Liseylə Kollecin təhsil səviyyəsi eyni deyil: "Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyi ümumi təhsillə yanaşı, həm də peşə təhsili verir. Müəssisənin çox yüksək səviyyəli böyük emalatxanaları var. İnşaat Kollecinin tələbələri Anadolu Peşə və Texniki Liseyinin emalatxanalarında, laboratoriyalarda keçirilən praktik dərslərdə iştirak edəcəklər. Liseyin texniki-peşə təhsili alan tələbələri isə İnşaat Kollecində dərslərdə iştirak edə bilərlər. Məqsədimiz qarşılıqlı faydalılıq əsasında münasibətlər qurmaqdır. Biz onların böyük emalatxanalarından, onlar isə bizim müəllim potensialımızdan yararlana bilər. Biologiya müəllimi Ülkər xanımın Anadolu Peşə və Texniki Liseyində "açıq dərs"indən, sözün əsl mənasında, heyran qaldılar. Həmin dərsdən sonra lisey bizim müəllim potensialımızdan yararlanmaq istəyini bildirdi".

**Türkiyədə Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyinin müdiri Mehmet Sıtqı Arı 2 il əvvəl başlayan qardaşlıq münasibətindən çox razıdır. Bakı səfəri isə onları lap utandırıb: "Burada elə qarşılandıq ki, öz qarşılamağımızdan utandıq. Hər günümüz o birindən maraqlı keçdi. Bu qardaşlaşmadan çox razıyıq. "Bir millət, iki dövlət" deyirik. Bu, sözdə qalmadı, reallaşdırdıq. Bundan sonra aramızdakı səmimiyyət artacaq, qarşılıqlı münasibətlər daha da genişlənəcək".**

N.Ağamalıyev onu da qeyd edib ki, layihə çərçivəsində İzmirdən Bakıya, Bakıdan İzmirə göndərilən tələbələrin ailələrdə yaşaması nəzərdə tutulub: "Belə bir fikir də var ki, orada təcrübə keçən tələbələr müəllimlərin və ya tələbələrin ailələri ilə yaşasınlar. Bu, bir-birimizin adət-ənənələrini, mətbəximizi daha yaxından öyrənməyə imkan verər".

İnşaat Kolleci İzmirə bu dəfə tələbələrini göndərəcək: "Hesab edirik ki, tələbə tanımalıdır. Ona görə də növbəti səfərlərdə tələbələrin iştirakına üstünlük verməyi planlaşdırırıq".

### "Bir millət, iki dövlət" kəlamı sözdə qalmadı

Türkiyədə Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyinin müdiri Mehmet Sıtqı Arı 2 il əvvəl başlayan qardaşlıq münasibətindən çox razıdır. Bakı səfəri isə onları lap utandırıb: "Burada elə qarşılandıq ki, öz qarşılamağımızdan utandıq. Hər günümüz o birindən maraqlı keçdi. Bu qardaşlaşmadan çox razıyıq. "Bir millət, iki dövlət" deyirik. Bu, sözdə qalmadı, reallaşdırdıq. Bundan sonra aramızdakı səmimiyyət artacaq, qarşılıqlı münasibətlər daha da genişlənəcək".

Mehmet Sıtqı Arı qarşılıqlı münasibətlərə dair gözləntilərindən də danışıb: "Bilik mübadiləsi aparacaq, bir-birimizin təcrübəmizdən faydalanacağıq. Ortaq nöqtələrimizi və fərqlərimizi araşdıracağıq. Fərqlərin nədən qaynaqlandığını müəyyənləşdirib hər iki təhsil müəssisəsində ən yaxşı təcrübəni tətbiq edəcəyik. Biz istər ölkə olaraq, istər təhsil müəssisələri olaraq, birlikdə daha güclüyük. Odur ki, bu əməkdaşlıqdan çox razıyıq və böyük ümidlərimiz var".

### "Sənət əsərlərinin ön planda olmasından çox xoşum gəlir"

Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyinin tələbəsi Aslı Sezgin iki xalq arasında ortaq bir çox xüsusiyyət olmasına baxmayaraq, azərbaycanlıları fərqləndirən keyfiyyətləri qeyd edib: "Hava limanında qarşılanmağımızdan başlayaraq, Bakı məni heyran qoydu. Qonaqpərvərliyi, gülərüzlülüyü düşündüyümüzdən çoxdur. Şəhidlər Xiyabanını, tarixi yerləri ziyarət etdik. Şəhərin görməli yerlərində olduq. O qədər çox yerdə olduq ki, təəssüratlarımız biri-birinə qarışdı".

Liseyin digər tələbəsi Ahmet Hakan Yılmaz həm səfərdən, həm sərgidən təsirlənib: "Azərbaycana gələndən heç bir narahatlığımız olmadı. Hər gün görməli yerlərdə olduq. Sənət sərgisini gəzdik. Tələbələrin əl işi çox xoşuma gəldi. Çox peşəkarlıqla işləniblər. Müasir dövrdə, yəni hər şeyin robotlaşdırıldığı bir zamanda belə nümunələr insanın zövqünü oxşayır. Bakıdakı təhsil müəssisələrində sənət əsərlərinin ön planda olmasından çox xoşum gəldi. Yağlı boya ilə çəkilən rəsmləri, qara qələmlə işi bəyəndim. Metal işləməsi də çox gözəldir".

### "İstənilən məsələdə bir-birimizə güvənə bilərik"

Aliağa şəhər təhsil idarəsinin müdiri Ogün Derse Bakıya ilk dəfə gəlsə də, özünü burada doğulubmuş kimi hiss edir: "Sadəcə layihə ilə bağlı deyil, istənilən məsələdə bir-birimizə güvənə bilərik. Biz burada da dedik, dostlarımız hər məsələdə qapımızı döyə, istənilən problemin həllində dəstəyimizə bel bağlaya bilərlər".

Ogün Derse Heydər Əliyev adına Anadolu Peşə və Texniki Liseyində Azərbaycandan gənclərin heç bir problemsiz təhsil ala biləcəyini də vurğulayıb.

### Texniki-peşə ixtisasları üzrə təhsil alsalar da, tarixlə daha çox maraqlanıblar

Türkiyəli qonaqları Bakıda müşayiət edən İnşaat Kolleci Tələbə Həmkarlar Komitəsinin sədri Səbuhi Zərbəliyev bildirib ki, qonaqlar Azərbaycan tarixinə çox böyük maraq göstəriblər. Dahi şəxsiyyətlərlə bağlı çoxsaylı suallar veriblər: "Türkiyədən gələn nümayəndə heyəti Şəhidlər Xiyabanını, Türk şəhidlərinin məzarını ziyarət etdi. Şamaxı Astrofizika rəsədxanasında, Dəmirçi kəndində, qoruqlarımızda oldular. Onları Şirvanşahlar Sarayına, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğuna, Atəşgaha apardıq. Burada olduqları müddətdə Quba məzarlığı və Qobustan qayaüstü abidələrinə ekskursiya etdilər. Bakı gecələrini seyrə çıxdılar, şəhərin işıqlandırma sistemi ilə maraqlandılar. Hiss olunurdu ki, tarixi yerləri görmək onları xüsusilə maraqlandırır".

İnşaat Kollecinin qonaqları səfərinə görüşlə başlayıb, görüşlə yekun vurub. Belə ki, İnşaat və Memarlıq Universitetinin rektoru Gülçöhrə Məmmədova ilə görüşlə başlayan səfər İnşaat Kollecinin tələbə və müəllimləri ilə səmimi ortamda reallaşan yaddaqalan söhbətlə başa çatıb.

# Tələbələrimiz üçün yeni imkan

## Massaçusets Texnologiya İnstitutu "ADA"da yeni proqrama başlayır

**Oruc MUSTAFAYEV**

Dünyanın ən nüfuzlu universitetlərindən olan Massaçusets Texnologiya İnstitutu (Massachusetts Institute of Technology - MIT) özünün ən yenilikçi proqramı ilə Azərbaycana gəlir. 2018-ci ilin dünya reytinqinə başçılıq edən MIT Azərbaycanda iyunun 27-dən avqustun 10-na kimi Cənubi Qafqazda ilk dəfə olaraq azərbaycanlı tələbələr üçün Qlobal Startap Laboratoriyası (Global Startup Labs) proqramının tətbiqinə başlayacaq. MIT Global Startup Labs bütün dünyada sahibkarlıq fəaliyyətinə başlayan gənclərə biznesin idarə edilməsi təcrübəsini öyrədir. Bu proqram mobil texnologiyalar sahibkarlığı və proqram təminatı işləmələri ilə maraqlanan tələbələrimiz üçün unikal fürsət hesab olunur.

Layihənin əsas məqsədi mobil/veb tətbiqinə əsaslanan startap (yeni texnologiya və innovativ ideyalara əsaslanan yeni şirkətlərin təsis olunması) və özəl sahibkarlığın inkişafına töhfə vermək, tələbələr üçün sahibkarlıq və kompüter proqramlaşdırma sahələri üzrə intensiv kurslar təşkil etməkdir. Gənc ideya müəllifləri investorlar, Startap və İnkişaf Mərkəzlərinin nümayəndələri və ölkəmizin startap ekosisteminin aparıcı qurumları ilə görüşəcək. Məzunlar MIT-ın qlobal startap və ideya müsabiqələrində iştirak edə biləcəklər. Bununla da Qlobal Startap Laboratoriyası gənc sahibkarların qlobal maliyyə, innovasiya və startap ekosistemlərinə çıxış imkanlarını genişləndirəcək. 6 həftəlik intensiv təlim ölkəmizdə innovasiyalar və startap layihələrinin ən böyük dəstəkçilərindən olan "ADA" Universitetinin kampusunda reallaşacaq. Müasir dünyada gənclər üçün ən vacib keyfiyyətlərdən hesab olunan texniki və sahibkarlıq vərdişlərini təkmilləşdirmək üçün tələbələrimiz mayın 29-na kimi Massaçusets Texnologiya İnstitutunun xüsusi *http://gsl.mit.edu/program/azerbaijan-summer-2018/* səhifəsində qeydiyyatdan keçməlidirlər. Tələbələr onlar üçün yaradılmış intensiv tədris düşərgəsində komanda halında işləyəcək və sonda mobil əlavələrini, startaplarını istifadəyə buraxa biləcəklər. Tələbələrimiz MIT-ın təlimatçılarının rəhbərliyi ilə mobil və internet texnologiyalar sahəsində yeni layihələr işləyib hazırlayacaqlar. Qlobal proqramda real sahibkarlıq təcrübələrini təqdim etmək üçün Azərbaycanın bir sıra universitetlərindən istedadlı tələbələr iştirak edə bilər.

Qeyd edək ki, proqramın Massaçusets Texnologiya İnstitutunda istifadəyə verildiyi son 17 il ərzində onun köməyi ilə 20 ölkədə gənc texnologiya sahibkarlarının inkişaf etdirilməsinə nail olunub. Proqramın Azərbaycanda reallaşması SOCAR AQS şirkətinin və "ADA" Universitetinin tərəfdaşlığı ilə mümkün olmuşdur.

Onu da diqqətə çatdıraq ki, Global Startup Labs təlim metodologiyasının əsası MIT-ın Menecment Məktəbinin (MIT Sloan School of Management) professoru Bill Aulet tərəfindən qoyulmuş prinsiplərə əsaslanır. O, şəxsi biznesin qurulması üzrə praktik dərslik hazırlayıb.

# "Vətənim Azərbaycan"



**Şakir CƏFƏROV**

Bakıdakı Humanitar fənlər təmayüllü məktəb-liseydə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Xətai Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəb direktorları, müəllimlər iştirak ediblər. Tədbirə başlamazdan əvvəl qonaqlar şagirdlərin əl işlərindən hazırlanmış sərgi ilə tanış olublar.

Öncə Dövlət himni səsləndirilib.

Liseyin direktoru Nəzakət Əsgərova müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin xalqımızın həyatında tarixi xidmətlərindən danışıb. Bildirib ki, Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrlərdə daimi tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, Azərbaycan xalqının ümummilli lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Təsadüfi deyildir ki, Heydər Əliyevin siyasi fəaliyyəti istər ölkə, istərsə də dünyada bu gün də yüksək qiymətləndirilir.

Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Jalə Abdiyeva qeyd edib ki, Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığı ən ağır zamanda - 1993-cü ilin iyununda taleyini özünün xilaskar oğluna - yenə də Heydər Əliyevə etibar etdi.

Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşıladı, həmin günü "Milli Qurtuluş Günü" kimi müstəqil Azərbaycanın tarixinə yazdı.

Tədbirdə ulu öndərin fəaliyyətinə aid slayd göstərilib və ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Şagirdlər, həmçinin şeir söyləyib, mahnı oxuyub və rəqs ediblər.

Tədbir şagirdlərin ifasında "Vətənim Azərbaycan" mahnısı ilə başa çatıb.

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələri haqqında qələmə aldığı uğur hekayəsini, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Müasir məktəb mühitində lider obrazı

### Məqsəd şagirdləri gələcəyə hazırlamaqdır



**Zakir BAYRAMOV,**
*313 nömrəli tam orta məktəbin direktoru*

Müasir dünya təhsilin gücü, biliklərin vəhdəti ilə idarə olunur, dəyişilir və inkişaf edir. Məşhur Nelson Mandelanın təbirincə desək, təhsil dünyanı dəyişmək üçün istifadə olunan ən güclü "silah"dır.

Bu baxımdan məktəblərimizdə təhsilin keyfiyyətinin daha da artırılması vacib məsələdir. Təhsilin keyfiyyətli formada təhsilalanlara ötürülməsi isə bir çox komponentlərlə üzvi şəkildə bağlıdır. Buraya məktəbin maddi-texniki və tədris bazası, mövcud infrastruktur, təhsilverənlərin bilik səviyyəsi və bir çox digər faktorlar daxildir.

Məktəbin səmərəli şəkildə fəaliyyət göstərməsi, uğurla inkişaf etməsi isə idarəetmənin təşkilindən, eləcə də bu işi həyata keçirən məktəb rəhbərlərinin bilik, bacarıq və şəxsi keyfiyyətlərindən əhəmiyyətli dərəcədə asılıdır.

#### Bacarıqlardan düzgün istifadə

Sosial sistem olan məktəbdə əlverişli təhsil mühitinin yaradılması müəllim-şagird-valideyn münasibətlərinin normal şəkildə qurulması ilə birbaşa bağlıdır. Bu işdə məktəb rəhbərliyinin üzərinə böyük məsuliyyət və vəzifələr düşür. Məsuliyyət və vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün isə məktəbi idarə edən insanlarda aşağıdakı 4 bacarığın olması vacibdir:

- Konseptual bacarıqlar- mürəkkəb vəziyyətləri təhlil etmək
- İnsanlararası bacarıqlar-ünsiyyət, ruhlandırma, mentarlıq
- Texniki bacarıqlar-işin icrası üçün vacib olan peşə bacarıqları
- Siyasi bacarıqlar-əlaqə yaratmaq və gücdən düzgün istifadə etmək.

Bu bacarıqların düzgün tətbiq edilməsi isə daha ciddi məqamdır. Misal üçün, məktəb rəhbərinin idarəçilikdə gün ərzində dəfələrlə mürəkkəb vəziyyətlərlə qarşılaşdığı heç kimə sirr deyil. Belə situasiyalarda konseptual bacarıqlar vəziyyətdən çıxış yolunu tapmaqda yardımçı olur. Vəziyyəti düzgün təhlil etmək isə daha uğurlu qərar verməyə kömək göstərir. Bu fikri təsadüf edilən konkret misal üzərində izah etmək olar. Məsələn, valideyn məktəb rəhbərinə yaxınlaşaraq övladının gün ərzində evdə çox çalışdığını, dərslərinə hazır gəldiyini, lakin yarımillik qiymətlərinin aşağı olduğunu bildirir. Valideynin dediklərindən belə çıxır ki, onun övladına müəllimlər qərəzli münasibət göstərir. Situasiya aydındır. Valideynin emosional çıxışı vəziyyəti bir qədər də gərginləşdirir. Belə olduqda məktəb rəhbəri daha çox təmkinli və səbrli olmalı, vəziyyəti təhlil edərək şagirdin zəif nəticə göstərməsinin səbəblərini aydınlaşdırmağa çalışmalıdır. Burada insanlararası bacarıqlardan, yəni ünsiyyət, ruhlandırma və mentarlıqdan düzgün istifadə olunmalıdır. Bu məsələdə fənn müəllimlərinin, sinif rəhbərinin mülahizələrindən yararlanmaqla əsl həqiqətin ortaya çıxarılmasında, şagirdin zəif oxumasının səbəblərinin müəyyənləşdirilməsində valideyni bir iştirakçıya çevirmək lazım gəlir.

Beləliklə, vəziyyəti normallaşdırmaq və xüsusilə də təhsilalanın gələcək inkişafına nail olmaq mümkündür. Bu işdə məktəb rəhbərinin texniki və siyasi bacarıqları da böyük rol oynayır.

#### Fərdi xüsusiyyətlərin idarəetmədə rolu

Yuxarıda göstərilən bacarıqlara malik olan insan məktəb mühitində idarəçi kimi bir liderə çevrilə bilər. Lakin liderdə bu bacarıqlarla yanaşı, bir sıra fərdi xüsusiyyətlər də olmalıdır. Bu xüsusiyyətlər aşağıdakılardır:

- Uzaqgörənlik-istiqamətlərin müəyyən olunması
- Strategiya-perspektivlərin görünməsi üçün planlaşdırma
- İnsanların yönəldilməsi-perspektivlərlə strategiyaların uyğunlaşdırılması
- Həvəsləndirmə-işlərin inkişafı üçün enerji və məsuliyyət hissinin səfərbər olunması.

**Təhsilin keyfiyyətli formada təhsilalanlara ötürülməsi isə bir çox komponentlərlə üzvi şəkildə bağlıdır. Buraya məktəbin maddi-texniki və tədris bazası, mövcud infrastruktur, təhsilverənlərin bilik səviyyəsi və bir çox digər faktorlar daxildir. Məktəbin səmərəli şəkildə fəaliyyət göstərməsi, uğurla inkişaf etməsi isə idarəetmənin təşkilindən, eləcə də bu işi həyata keçirən məktəb rəhbərlərinin bilik, bacarıq və şəxsi keyfiyyətlərindən əhəmiyyətli dərəcədə asılıdır.**

Bu xüsusiyyətlər təhsil müəssisələrində liderlik üçün ən zəruri xüsusiyyətlərdir. Şübhəsiz ki, liderlik bacarığı olduqda və idarəetmə düzgün təşkil edildikdə uğurlu məktəbə nail olmaq mümkündür.

Aydındır ki, hər hansı bir işə başlayan zaman ilk olaraq istiqamətlər müəyyənləşdirilir. Bu istiqamətlərin düzgün müəyyənləşdirilməsi isə daha ciddi məsələdir. İşin perspektivlərini kollektivə aydın şəkildə göstərmədən isə insanların bir istiqamətə yönləndirilməsi mümkün deyil. Bu baxımdan təhsil müəssisələrində lider işçiləri həvəsləndirməyi, işin uğurla başa çatacağına kollektivi inandırmağı və bundan ötrü məsuliyyət hissini artırmağı bacarmalıdır.

#### Uğurlu struktur

Məktəbin uğur qazanmasında yaradılmış struktur böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, məktəb mühitində xaotik, veber, avtoritar və peşəkar strukturlar ola bilər. Bunların içərisində ən uğurlu sayılanı "Peşəkar struktur"dur.

Bu struktur çərçivəsində qərarvermə peşəkar heyətə həvalə olunur. Məktəbin işçiləri peşəkar və kompetensiyalı mütəxəssislər hesab edilir. Qaydalar və təlimatlar yalnız istiqamətləndirici rol oynayır. Kollektivdə hər bir mütəxəssisin fikri və rəyi nəzərə alınır, verilən təkliflər təhlil olunur, kollektivin ümumi razılığı ilə qəbul edilir. Göründüyü kimi, "Peşəkar struktur" ən mükəmməl və əhəmiyyətli bir strukturdur.

"Peşəkar struktur"da ədalətlilik bir prinsip olaraq qəbul edilir. Məktəbin lideri bu prinsipləri aşağıdakı üç əsas istiqamətdə həyata keçirməlidir:

- Paylaşmada ədalətlilik-bu prinsipə görə kollektivdə hər kəs özünün layiq olduğu payını alır
- Prosedural ədalətlilik - bu prinsipə görə nəticənin əldə edilməsi yolları göstərilir və bu işdə hər kəsin rolu ədalətli şəkildə qeyd edilir
- Münasibətlərdə ədalətlilik-bu prinsipə görə kollektivdə insanlara göstərilən hörmət və ehtiramda ədalətlilik gözlənilir.

Məktəb rəhbərinin lider kimi bu prinsipləri kollektivdə tətbiq etməsi ilk olaraq təhsil müəssisəsində ədalətli mühit formalaşdırır. Bu isə işlərin uğurla həyata keçirilməsi üçün münbit təhsil mühiti deməkdir. Məhz belə şəraitdə hər bir işçi özünə əminlik hiss edir. Əməyinin layiqincə qiymətləndiriləcəyini bildiyinə görə daha həvəslə çalışır. İşçi ona göstərilən hörmət və ehtiramdan məmnun olur. Bu isə özlüyündə təhsilin keyfiyyətinə müsbət təsir edir, təhsilalanların və təhsilverənlərin güvənini artırır.

#### Hər şey gələcək üçün!

Yuxarıda göstərilən məsələlər rəhbərlik etdiyim məktəbdə təcrübədən keçirilib və müsbət nəticələr verməkdədir.

Hesab edirəm ki, məktəbdə idarəetməni düzgün təşkil etmək və təhsilin keyfiyyətini daha da artırmaq yolu ilə şagirdləri müasir tələblərə uyğun səviyyədə yetişdirməklə ölkəmizə böyük töhfə verə bilərik. Bizim işimizin fəlsəfəsi və bizdən gözlənilən də elə bunlardan ibarətdir...



# Paytaxt təhsil işçilərinin ağacəkmə aksiyası

Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.



Aksiyada BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva, İdarənin müvafiq struktur bölmə rəhbərləri və əməkdaşları, Milli Məclisin deputatı Dilarə Cəbrayılova, Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Fərəcova, məktəb direktorları, direktor müavinləri, KİV nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Ağacəkmə aksiyası Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Ramana qalasının ətəyindəki yaşıllıq sahəsində təşkil olunan aksiyanın əsas məqsədi ətraf mühitin mühafizəsinə və ekoloji durumun yaxşılaşdırılmasına hər zaman böyük önəm vermiş ulu öndər Heydər Əliyev irsini davam etdirmək, yaşıllaşdırma ənənələrini daha da genişləndirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdən ibarətdir.

BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva ənənə halını alan bu cür tədbirlərin keçirilməsini yüksək dəyərləndirib. İdarə müdiri ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın digər sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirdiyini və genişmiqyaslı tədbirlərin həyata keçirildiyini vurğulayıb.

M.Vəliyeva müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasətin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini diqqətə çatdırıb.

BŞTİ-nin müdiri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görüldüyünü qeyd edib.

M.Vəliyeva IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə gerçəkləşən yaşıllaşdırma aksiyalarının ekoloji mühitin qorunması, insanlar arasında təbiətə qayğı hissinin güclənməsi üçün ciddi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Milli Məclisin deputatı D.Cəbrayılova və Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini R.Fərəcova ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş ağacəkmə aksiyalarının geniş vüsət aldığını və bu baxımdan BŞTİ tərəfindən təşkil olunan tədbirin böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Sonra ulu öndər Heydər Əliyevin təbiətin qorunması və yaşıllıqların artırılmasının əhəmiyyəti haqqında çıxışından bir hissə səsləndirilib.

Qeyd edək ki, BŞTİ tərəfindən təşkil olunmuş aksiya zamanı müxtəlif növdə mindən çox ağac əkilib. BŞTİ-nin yeni yaradılan təsərrüfat qrupları yaşıllıq zolağı salınan ərazinin hazırlanmasında və ağacəkmə aksiyasının təşkil olunmasında yaxından iştirak edib.

# Üç əsrin şahidi - 120 illik yubiley tədbiri

Bakı şəhəri 67 nömrəli tam orta məktəbin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Məhəbbət Vəliyeva, Sabunçu Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ədalət Teymurov, BŞTİ və Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndələri, məktəb direktorları, müəllimlər, şagirdlər, valideynlər, KİV nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Tədbirdən öncə qonaqlar məktəb şagirdlərinin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

"Üç əsrin şahidi" adlı tədbirdə məktəbin bu günə qədər keçdiyi zəngin inkişaf yolundan bəhs olunub. Qeyd edilib ki, 1897-ci ildə 73 şagird, 2 müəllimlə fəaliyyətə başlayan təhsil müəssisəsində hazırda 3098 şagirdin təlim-tərbiyəsi ilə 141 müəllim məşğul olur.

Daha sonra təhsil müəssisəsinin tarixindən və qazandığı uğurlarından bəhs edən videoçarx nümayiş olunub.

BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva tədbirdə çıxış edərək məktəb kollektivini 120 illik yubiley münasibəti ilə təbrik edib, onlara bundan sonrakı fəaliyyətlərində daha böyük müvəffəqiyyətlər arzulayıb. 120 yaşlı təhsil müəssisəsinin böyük inkişaf yolu keçdiyini deyən M.Vəliyeva məktəbin tədris nailiyyətlərinin son illərdə xüsusilə artdığını diqqətə çatdırıb.

İdarə müdiri Cümhuriyyətimizin 100-cü ildönümündə paytaxt təhsilinin inkişafı istiqamətində əldə olunan uğurlardan, 2017-2018-ci dərs ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan olunması ilə əlaqədar həyata keçirilən layihələrdən bəhs edib və respublikamızda bərabər təhsil imkanları üçün dövlət tərəfindən hər cür şərait yaradıldığını bildirib.

M.Vəliyeva ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən islahatların daha etibarlı gələcəyimizin qarantı olduğunu söyləyib. İdarə müdiri onu da qeyd edib ki, ölkə rəhbəri İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı dövlət siyasətinin mühüm strateji istiqamətlərindən ən başlıcasıdır.

Daha sonra tədbirdə çıxış edən Sabunçu Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ədalət Teymurov tədris ocağının kollektivini yubiley münasibəti ilə təbrik edib.

"Üç əsrin şahidi" adlı kitabı tədbir iştirakçılarına təqdim edən məktəbin direktoru İradə Bayramova təhsil müəssisəsinin təcrübəli pedaqoji kollektivinin olduğunu, müəllimlərin səylə çalışdığını, şagirdlərin təhsilində, dünyagörüşünün formalaşmasında əvəzsiz xidmətlər göstərdiyini qeyd edib.

Yubiley tədbirində şagirdlər vətənpərvərlik, təhsil və məktəb həyatından bəhs edən müxtəlif şeirlər, mahnılar, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Sonda məktəbin pedaqoji kollektivinin bir sıra üzvləri səmərəli fəaliyyətlərinə görə BŞTİ, RİH və məktəb rəhbərliyi tərəfindən təltif olunub.

# Paytaxt məktəblilərinin yaradıcılıq sərgisi

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş paytaxt məktəbləri və uşaq-gənclər inkişaf mərkəzlərinin şagirdlərinin yaradıcılıq sərgisi keçirilib.

Bakı şəhəri üzrə 229 nömrəli tam orta məktəbdə təşkil olunan sərgidə BŞTİ-nin müdir müavinləri Rəşad Tağıyev və Nərgiz Səfərova, Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov, İdarənin müvafiq struktur bölmə rəhbərləri, təhsil müəssisələrinin rəhbərləri, şagirdlər, valideynlər, ictimaiyyət nümayəndələri və KİV təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən BŞTİ-nin müdir müavini Rəşad Tağıyev qonaqları salamlayıb, bu kimi tədbirlərin istedadlı şagirdlərin üzə çıxarılmasında mühüm rolu olduğunu bildirib. Ümummilli liderə həsr olunan sərgini yüksək dəyərləndirən müdir müavini məktəbliləri Azərbaycan xalqının xilaskarı olan Heydər Əliyev irsini daha dərindən öyrənməyə və ondan bəhrələnməyə çağırıb.

R.Tağıyev onu da qeyd edib ki, xalqın inamını özünə qaytaran müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən uşaqların, gənclərin yüksək təhsil almaları, geniş dünyagörüşə malik olmaları və ölkəmizi layiqincə təmsil etmələri üçün lazımi şərait yaradılıb.

Rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova məktəbliləri yüksək yaradıcılıq qabiliyyətlərinə görə təbrik edib. G.İsrafilova milli və ümumbəşəri dəyərləri dərindən bilən türk dünyasının böyük oğlu Heydər Əliyevin milli mədəniyyətimizin inkişafı üçün hər zaman əzmkarlıq, fədakarlıq, təşəbbüs və yüksək təşkilatçılıq nümunəsi göstərdiyini nəzərə çatdırıb.

Daha sonra qonaqlar müxtəlif bölmələr üzrə sərgilənən əl işləri ilə tanış olublar.

Bakı şəhərinin ümumi təhsil məktəbləri və uşaq-gənclər inkişaf mərkəzlərinin istedadlı şagirdləri 600 təsviri incəsənət, dekorativ tətbiqi sənət, floristika, elmi texniki, dizayn işləri, ulu öndər Heydər Əliyevin həyat və ictimai-siyasi fəaliyyətini özündə əks etdirən yaradıcılıq nümunələrini nümayiş etdiriblər.

Qeyd edək ki, tədbirin əsas məqsədi yaradıcılığın müxtəlif sahələrində xüsusi istedada malik uşaqları üzə çıxarmaq, onlarda Vətənə məhəbbət, dostluq, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərini aşılamaq, bədii-estetik zövqü, həmçinin, yaradıcı düşüncəni inkişaf etdirməkdən ibarətdir.

# İngilis dili dərslərində fənlərarası inteqrasiya



## Bu yolla qazanılan bilik həm möhkəm, həm də davamlı olur

**Ülviyyə SALAMOVA,**
*Bakı şəhəri Məktəb-Lisey Kompleksinin ingilis dili müəllimi*

Yaşadığımız dövr "elm", "kosmos", "kompüter" əsri adlandırılır. Belə ki, qeyd olunan sahələr hamısı hazırda çox sürətlə inkişaf etməkdədirlər. Təbiidir ki, bu inkişafla əlaqədar müxtəlif elm, istehsal, mədəniyyət və s. sahələrə aid yeni-yeni termin və ifadələr yaranaraq müvafiq sahələrdə dövriyyəyə daxil olur. Şagirdlərin isə ayrı-ayrı elm sahələrinə aid olan terminlərin mahiyyətinin dərk etmələrinin vacibliyindən danışmaq, zənnimizcə, artıqdır. Belə ki, insan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

Hazırda müasir dövr tarixinin tədrisində bir sıra yeni sözlər - provayder, xaker, noutbook, brifinq, impiçment, reytinq, qrant və s. kimi ingilisdilli terminlər getdikcə daha geniş işlənməkdədir. Provayder, xaker, noutbook kimi terminlər əsasən İKT (İnformasiya-Kommunikasiya Texnologiyası) dərslərində işlədilir. Təcrübə göstərir ki, şagirdlər bir çox hallarda işlətdikləri cümlələrdə hər hansı bir sözün mənasını tamamilə başa düşmədikdə ifadə edilən fikir onlara tam çatmır, düşüncələrində müəyyən qədər qaranlıq yerlər qalır. Ona görə də ingilis dili müəllimi kimi bu termin və ifadələrin mənasını açıqlamasını zəruri sayıram.

Əvvəlcə provayder sözündən başlayaq. Provayder internetə çıxışı təmin edən kompaniya hesab olunur. Hazırkı dövrdə həyatımızı internetsiz təsəvvür edə bilmərik. Aydındır ki, ayrı-ayrı abonentlərin internetə çıxış üçün provayderlərdən istifadə etmələri zəruridir. Bu baxımdan istər şagirdlərin, istərsə də müəllimlərin bu sözün mənasını bilib dərk etmələri zəruridir.

Son dövrlərdə istər siyasi dairələrdə, istərsə də kütləvi informasiya vasitələrində ən çox istifadə edilən sözlərdən biri də "xaker" sözüdür. Təbii ki, XI siniflərdə müasir dövr hadisələrinin tədrisində, xüsusilə təhlildə bu söz daha çox hallanır. Bəs Xaker nə deməkdir? Xaker - müxtəlif kompüter sistemlərinin kodunu sındıran, onlara müdaxilə edən adam deməkdir. Əlbəttə, son dövrlərdə kompüterlərin həyatımıza daha geniş miqyasda daxil olması ilə əlaqədar bu söz də daha geniş miqyasda işlənməkdədir. Təbii ki, bu sözün mənasını tarix müəllimləri də yaxşı bilməlidirlər. Belə ki, gələcəkdə yəqin ki, bu söz daha geniş miqyasda işlənəcəkdir.

Son dövrlərdə məişətimizdə ən çox işlənən avadanlıqlardan biri də blenderdir. Müxtəlif bərk qida maddələrinin parçalanması və səliqəli şəkildə doğranması üçün nəzərdə tutulan bu qurğunun da adı ingilis mənşəlidir. Aydındır ki, texnologiya, eləcə də fizika dərslərində məsələ həllində şagirdlərin rastlaşa biləcəkləri sözlərdən biri də məhz "blender" ola bilər. Bu baxımdan şagirdlərin bu sözün də mənasını bilmələri çox vacibdir.

Hazırda geniş miqyasda işlənən "notebook" sözü də ingilis dilindən götürülmüşdür. Belə ki, ingilis dilində "dəftər" mənasını verən "notebook" sözü həm də kiçik, "dizin üstünə" qoyula bilən kompüter mənasını verir.

Müasir dövrdə ən geniş miqyasda işlənən sözlərdən biri də "brifinq" sözüdür. Bu söz də ingilis mənşəlidir. Mənası "qısa konfrans" olan bu sözü həm tarix, həm də ingilis dili müəllimləri dərslərində qarşılıqlı əlaqəli şəkildə işlədə bilərlər. Belə ki, hazırkı dövrdə siyasi xadimlərin hər hansı beynəlxalq görüşdən sonra jurnalistlərlə baş tutmuş görüş və danışıqlar haqqında mətbuat konfransı anlamını verən bu söz eyni dərəcədə həm tarix, həm də ingilis dili fənni üçün əhəmiyyətlidi. Bu baxımdan ingilis dili müəllimləri dərsin motivasiya hissəsində sinfə müraciət edərək şagirdlərdən qısamüddətli konfransın necə adlanmasını soruşsunlar. Şagirdlərdən müvafiq cavab aldıqdan sonra sinfə bu sözün əsasən hansı mənalarda və hansı məqsədlərlə işlənməsi haqqında sualla müraciət etmək olar. Təbiidir ki, alınacaq cavab nəticə etibarı ilə həm də tarix və ingilis dili fənləri arasında əlaqəyə nümunə olacaqdır.

Həm ingilis dili, həm də tarix müəllimləri üçün eyni dərəcədə əhəmiyyət daşıyan terminlərdən biri də "impiçment"dir. Məlum olduğu kimi, hərfi mənası "dövlət başçısının hakimiyyətdən uzaqlaşdırılması" olan bu söz son dövrlər tez-tez işlənir. SSRİ dağıldıqdan sonra əmələ gəlmiş on beş müstəqil respublikadan biri olmuş Rusiya Federasiyasında məlum olduğu kimi prezident Boris Yeltsinin hakimiyyəti dövründə ölkə başçısının hakimiyyətdən kənarlaşdırılmasını bildirən impiçment keçirilmişdi. Bu baxımdan ingilis dili müəllimləri müvafiq mövzunu tədris edərkən sinfə RF-də vaxtilə dövlət başçısının hakimiyyətdən uzaqlaşdırılması üçün keçirilmiş tədbirin necə adlanmasını soruşmaqdır. Tarix müəllimləri isə RF-nin ən yeni tarix dövrünü tədris edərkən bu yolla "impiçment" sözünü şagirdlərə izah edə bilərlər. Təbiidir ki, belə olduqda şagirdlər haqqında söz gedən terminin mənasını daha yaxşı başa düşür və onu daha uzun müddətə yadlarında saxlayırlar.

Son dövrlərdə KİV-də ən çox işlənən terminlərdən biri də "reytinq"dir. Reytinq sözü də həmçinin ingilis dili mənşəlidir. Mənası "qiymət", "məşhurluq dərəcəsi" mənasını verən bu sözdən, məlum olduğu kimi, təkcə siyasi xadimlər haqqında yox, müxtəlif idmançılar, musiqi və idman xadimləri üçün də istifadə olunur.

İngilis dili və tarix müəllimləri dərslərinin motivasiya hissəsində müxtəlif ictimai-siyasi xadimlərin məşhurluq səviyyələrini müəyyənləşdirərkən hansı termindən istifadə edildiyini şagirddən soruşub müvafiq cavab almaqla bu sözün izahını verə bilərlər.

Son dövrlərdə ölkəmizin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar müxtəlif müəssisələrdə, həmçinin bar, restoran, kafe və digər mədəni- məişət müəssisələrində yaxalarında, eləcə də köynəklərinin qollarında "sekyuirite" yazılmış göstəricilər gəzdirən idmançı görkəmli gənclər nəzərə dəyir. Bu söz "qoruyucu", "asayişi qoruyan" mənasını verir. Yeri gəlmişkən qeyd edək ki, bu sözlər artıq rus dilində də geniş miqyasda işlənir və artıq "vətəndaşlıq" hüququ almış hesab olunur.

Son dövrlərdə KİV-də, eləcə də ölkəmizin ən yeni tarix dövrünə aid tədqiqat əsərlərində, tarix fənninə aid müvafiq mövzularda "qrant" sözünə də tez-tez rast gəlinir. Bu söz də ingilis mənşəlidir və artıq digər ölkələrdə olduğu kimi ölkəmizdə də özünə "vətəndaşlıq" hüququ qazanıb. "Qrant" sözü ingilis dilindən tərcümədə incəsənət və elmə kömək üçün müəyyən edilmiş pul vəsaitidir. Əlbəttə, ölkəmizin ən yeni tarix dövrünün izahında belə terminlərin işlədilməsi zamanı şagirdlərin onları tamamilə başa düşməsi, anlaması üçün müvafiq izahın olması zəruridir. Belə terminlərin tam anlaşıqlı olması üçün onların həm tarix, həm də ingilis dili dərslərində izahı zəruridir.

Müasir dövrdə ədəbiyyat sahəsində işlənən geniş yayılmış terminlərdən biri də "triller" sözüdür. "Triller" sözü qorxulu, insanların psixikasına təsir edən əsər deməkdir. Həm ədəbiyyat, həm də ingilis dili fənlərində ingilis mənşəli "triller" sözü işlənərkən onu müvafiq mövzularda əlaqələndirmək müsbət nəticə verir. Belə ki, təcrübənin göstərdiyi kimi əlaqələndirilmiş dərslərdə öyrədilən terminlər şagirdlərin yadında daha yaxşı və daha uzun müddətə qalır. Bu baxımdan təbiidir ki, onların səmərəsi daha çox olur.

Hazırda orta məktəblərdə təhsil alan şagirdlərin, xüsusilə oğlan uşaqlarının ən çox sevdikləri idman növlərindən biri də kikboksinqdir. Orta məktəblərdə şagirdlərin fiziki tərbiyə dərslərində kikboksinq sözünün ingilis dili mənşəli olduğunu müəllimlərindən eşitmələri, yaxud da ingilis dili dərslərində müəllimin şagirdlərə kikboksinq idman növünün adının ingilis dili mənşəli olmasını bildirməsi də bu terminin onlar tərəfindən yaxşı dərk edilməsinə və uzun müddətə yaddaşlarında qalmasına səbəb olardı.

Hazırda respublikamızın bazar iqtisadiyyatı yolu ilə inkişaf etdiyi bir dövrdə mənzillərin, eləcə də digər daşınmaz əmlakın alınıb - satılmasında ən çox adı hallanan, bu işlərdə iştirakı zəruri olan qurumlardan biri də rieltərlərdir. Əvvəllər "dəllal", "makler" kimi işlənən ifadələri əvəz edən bu söz getdikcə daha çox yayılmaqdadır. Dərslərdə müəllimin rielters sözünü işlədərkən əvvəlcə onun ingilis dilindəki qarşılığını soruşması bu sözün mənasını anlamaqda şagirdlərə kömək edə bilər.

Sonda qeyd edək ki, müstəqillik yollarında inamlı addımlarla irəliləyən respublikamızın dünyaya inteqrasiya etməsi ilə əlaqədar həm iqtisadiyyatımızda, həm təhsilimizdə, həm elmimizdə, həm də digər sahələrdə daha çox xarici mənşəli, xüsusilə ingilisdilli sözlər işlənməkdədir. Aydındır ki, şagirdlərimizin bu sözlərin mənasını yaxşı-yaxşı bilmələri zəruridir. Bu baxımdan ayrı-ayrı fənlər arasında inteqrasiya yaradılması, müvafiq əlaqələrin şagirdlərin başa düşəcəyi şəkildə izahı böyük rol oynayır. Bu zaman ayrı-ayrı müəllimlərdən tədris etdikləri fənnin incəliklərinə dərindən bələd olmaları ilə yanaşı, yeri gələndə zəruri inteqrasiya apara bilmələri də tələb olunur. Belə ki, bu yolla qazanılan bilik həm möhkəm, həm də davamlı olur.

# Coğrafiyadan dərs nümunəsi



## Öz metodikamda dünya təcrübəsindən məqsədyönlü faydalanıram

**Gülsarə İMANOVA,**
*Bakı şəhəri 173 nömrəli tam orta məktəbin coğrafiya müəllimi*

Son illər təhsil sahəsində həyata keçirilən köklü islahatların nəticəsi olaraq məktəblərimizdə fənyönümlü təhsildən şəxsiyyətyönümlü təhsilə keçid baş verir. Yeni şəraitdə ümumi orta təhsilin qarşısında duran vəzifələr də dəyişir. İndi orta məktəbin əsas vəzifəsi şagirdləri müasir biliklərlə silahlandırmaq, onlara elmlərin əsaslarını öyrətmək, dünyagörüşlərini genişləndirməklə şəxsiyyət kimi formalaşdırmaqdır. Elə bir şəxsiyyət ki, həm müasir bilik və informasiya bolluğundan baş çıxarıb, onların zərurilərini seçə bilsin, müəyyən həcmdə bilik və informasiyaların daşıyıcısı olsun, həm də yüksək insani keyfiyyətlərə, dərin əqidəyə yiyələnsin, milli və bəşəri dəyərlərə hörmət etsin, demokratiya şəraitində yaşayıb fəaliyyət göstərməyə hazır olsun. Şagirdlərin şəxsiyyət kimi formalaşdırılması məqsədi ona insanı şəxsiyyət kimi səciyyələndirən çoxlu sayda mənəvi-əxlaqi keyfiyyətlərin aşılanmasını nəzərdə tutur ki, bunların da ən aparıcılarından biri vətənpərvərlik hissidir.

Şagirdlərdə vətənpərvərlik hissini aşılamaq isə ilk növbədə biz müəllimlərin vəzifə və vətəndaşlıq borcudur. Məhz buna görə də şagirdlərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirir, tədris etdiyim coğrafiya fənnində vətənimizin ərazisi, təbii şəraiti, bitki və heyvanat aləmini bilməyi, şagirdlərimə doğma Vətən torpağını, daşını, meşəsini, çayını sevməyi, onların varlığından qürur duymağı öyrədirəm.

Bir coğrafiya müəllimi kimi mən dərslərimi müxtəlif yaradıcı metod və üsullar əsasında quraraq yalnız bilik yönümlü deyil, həm də dövrün tələblərinə cavab verə biləcək şəxsiyyətyönümlü vətəndaş yetişdirmək məqsədi güdürəm.

Öz metodikamda dünya təcrübəsindən məqsədyönlü faydalanır, şagirdlərin təlim nailiyyətlərini mütəmadi analiz edir, istedadlı şagirdlərə fərdi yanaşır, zəif nəticə göstərən şagirdlərlə əlavə rəğbətləndirici işlər aparıram. Hər bir mövzuda dünya coğrafiyasını Azərbaycan coğrafiyası ilə müqayisəli şəkildə tədris edirəm.

Dərslərimdə vətənimizin coğrafi mövqeyini, relyefini, iqlimini, yeraltı-yerüstü sərvətlərini və toponimikasını dünya coğrafiyası ilə əlaqələndirir və müvafiq paralellər aparıram. Düşünürəm ki, vətənpərvər şagird yetişdirmək üçün onlara dilimizi, tariximizi və coğrafiyamızı dərindən öyrətmək zəruridir. Belə dərslərimdən birini həmkarlarımla paylaşmaq istəyirəm.

*Mövzu:* Azərbaycan Respublikasının faydalı qazıntıları

standart 2.1.1

Yer qabığında dəyişikliklərə dair proqnozlar verir.

standart 2.1.2

Geoxronoloji cədvəli oxuyur.

*Məqsəd:* Dərsin sonunda şagird respublikamızın ərazisində olan faydalı qazıntıların növlərini qruplaşdıra, onların yayılma qanunauyğunluqlarını və dünyanın tanınmış faydalı qazıntı yataqları ilə müqayisə edə bilir.




*Dərsin gedişi:* Respublikamızın ərazisində faydalı qazıntıların çıxarılmasını əks etdirə biləcək plakatlar və süxur nümunələri mövzunun motivasiyasını təşkil edir.



*Lövhədə*

| Yanacaq mənşəli faydalı qazıntılar | Filiz faydalı qazıntılar | Qeyri-filiz faydalı qazıntılar |
|---|---|---|

sözləri yazılmış cədvəl çəkilir və şagirdlərin bu sözlər haqqında olan bilgiləri alınır.

**1.** Sinif 4 qrupa bölünür; *"Böyük Qafqaz", "Kiçik Qafqaz", "Kür çökəkliyi"* və *"Lənkəran"*

**2.** Qruplara tapşırıqlar verilir. Bu, həm iş vərəqələri şəklində qruplara paylanır, həm də slayd şəklində ekranda göstərilir. Tapşırıqların yerinə yetirilməsi üçün 10 dəqiqə vaxt verilir və ekranda vaxt qeyd olunur.

I. *"Böyük Qafqaz"* qrupu.




1. Çökmə mənşəli süxurların yayıldığı Böyük Qafqaz dağlarında faydalı qazıntı yataqlarının yayılma qanunauyğunluğu.
2. Filiz faydalı qazıntılar hansı inzibati rayonun ərazisində yerləşir?
3. Azərbaycan neftinin dünya bazarına çıxarıldığı yollar (su və quru yollar).

II. *"Kiçik Qafqaz"* qrupu.




1. Kiçik Qafqazı niyə Azərbaycanın Uralı adlandırırlar?
2. *Məşhur filiz yataqları hansılardır?*
3. Azərbaycanın iqtisadiyyatında "Əsrin müqaviləsi"nin rolu?

III. *"Kür çökəkliyi"* qrupu.




1. Kür çökəkliyində filiz faydalı qazıntılarının olmamasının səbəbi?
2. Kür çökəkliyində hansı dövrün süxurlarında yanacaq faydalı qazıntılara rast gəlinir?
3. Dünyanın hansı su hövzələri neftlə zəngindir?




IV. *"Lənkəran" qrupu.*

1. Respublikada yayılan qeyri-filiz faydalı qazıntılar hansılardır?
2. Lənkəran iqtisadi rayonunda ən çox yayılan faydalı qazıntılar hansılardır?
3. Respublikamızda olan mineral bulaqları sadalayın və dünyanın bir məşhur bulağı ilə müqayisə edin.

**3.** Şagirdlər qrup tapşırıqlarını yerinə yetirdikdən sonra hər qrupun lideri tapşırıqlarını qrup üzvləri ilə birlikdə nümayiş etdirir, qalan qruplar dinləyir və mövzuya aid müxtəlif suallar verirlər. Göründüyü kimi, müxtəlif tapşırıqların yerinə yetirilməsində xəritə və cədvəllərdən istifadə olunur.

*4. Qrup tapşırıqlarının qiymətləndirilməsi:*

Şagirdlərin bilik və bacarıqları müxtəlif meyarlara uyğun qiymətləndirilir.

*5. Biz bu gün nə öyrəndik?*

Şagirdlərə Azərbaycan Respublikasında olan yanacaq, filiz və qeyri-filiz faydalı qazıntıları, onların geoloji quruluşla əlaqəsi, hansı amillərdən asılı olaraq yayılma xüsusiyyətləri və iqtisadiyyatda rolu dərindən mənimsədilir.

*6. Ev tapşırığı* - Şagirdlərə öz yaşadıqları ərazidə hansı faydalı qazıntıların yayıldığını esse şəklində yazmaq tapşırılır.

# "Yırtıcı" jurnallarla mübarizə apara bilmirik"

Dünya akademik dairələrində bu gün müzakirə olunan ən mühüm və aktual məsələlərdən biri alimlərin keyfiyyətli nəşrlərdə çap olunmasıdır. Qloballaşan dünyanın doğurduğu çağırışların günümüzə daşıdığı ziddiyyətlərindən biri də elm sahəsində "yırtıcı" elmi nəşrlərin baş alıb getməsidir. Məlumdur ki, elmi jurnallar bir neçə növ olur - reytinqli (onlarda sitatgətirmə indeksi var), feyk və "yırtıcılar". Feyk jurnallar guya dünyanın ən böyük elmi bazası olan "Scopus"da indeksləşdiklərini iddia edənlərdir. Alimlər bu jurnallarda əsasən ona görə dərc edilirlər ki, onların saytı bazanın loqotipini özündə saxlayır. Alimlər özləri bu faktın dəqiqliyini yoxlamırlar. Üçüncü növ jurnallar isə "yırtıcı" jurnallardır, onlar xüsusi zibil səbətini təşkil edirlər. Dünya üzrə alimləri, tədqiqatçıları ən çox ələ keçirməyə çalışan da sonunculardır. "Elsevier" beynəlxalq elmi bazasının Mərkəzi Asiya və Azərbaycan üzrə regional direktoru Aliya Ospanova "Azərbaycan müəllimi"nə verdiyi müsahibəsində "yırtıcı" nəşrlərlə bağlı fikirlərini bölüşdü.

ELSEVIER



## *Aliya Ospanova:* "Biz istəyirik ki, alimlər elmi işlərini çapa təqdim edərkən aldadılmasınlar"

*- Siz beynəlxalq jurnallarda çap olunmaq üçün hansı əsas tələbləri xüsusi qeyd edə bilərdiniz?*

- XVII-XVIII əsrlərdə elmin sürətli inkişafı ilə əlaqədar olaraq beynəlxalq elmi jurnallarda nəşrlərin də populyarlığı artmağa başladı. Yeni ixtiraları kəşf etməklə alimlər yeniliklərdən danışmaq, həmçinin onların sahəsində yeni kəşflər haqqında daha çox məlumat əldə etmək istəyirdilər. İllərlə belə jurnalların sayı kəskin surətdə artdı, bu isə elmi nəşrlər üçün keyfiyyət meyarlarını müəyyən edən reytinq bazasının yaradılması ehtiyacını doğurdu.

Bəli, qeyd etdiyiniz kimi, elmi nəşrlər üçün müəyyən tələblər mövcuddur. Onlardan ən mühümü bu nəşrlərin elmi əhəmiyyətliliyi və aktuallığıdır. Bundan başqa, məqalələrin beynəlxalq standartlara əsasən rəsmiləşdirilməsi, elmi ədəbiyyatlar siyahısının düzgün tərtib edilməsidir.

*- Hər hansı jurnalın "Scopus"-da indeksə olunmasını və onun impakt-faktorunun olub-olmadığını necə yoxlamaq olar? Elmi məqalənin çapı üçün nəşri necə seçmək və qiymətləndirmək mümkündür?*

- "Scopus" dünyada abstrakt (elmi məqalələrin qısa xülasəsi) və sitatların elmi cəhətdən ən böyük analitik platforması olaraq, alimlərə analiz aparmaq üçün mümkün qədər daha çox informasiya verməyi əhəmiyyətli hesab edir. Bu, alimlərin informasiya axtardıqları əsas resursdur. Bu baza alimlərə dünyada nələr baş verdiyini, alimlərin nə yazdığını, hansı jurnalların reytinqli, hansıların reytinqli olmadığı barədə bilgilər verir. Alimlərin, həmçinin ölkələrin, universitet və təşkilatların elmi nüfuzunu ölçməyə imkan verən platformanı yaratmaq üçün "Scopus" təsis edilib.

"Elsevier"-in rəsmi saytında siz hər zaman "Scopus"da indeksləşdirilən bütün jurnalların, kitabların və konfrans materiallarının siyahısını əldə edə bilərsiniz. Onlar Excel formatında *www.elsevier.com/solutions/seopus/content* ünvanında əlçatandır. Fayl həmçinin jurnalların "CiteScore" adlandırılan reytinqlərini də təqdim edir. Yəni birincisi, jurnalın "Scopus"da indeksləşdiyini, ikincisi, bəhs olunan jurnalın reytinqini müəyyən etməyə imkan verir.

*- Son illər biz "yırtıcı" nəşrlərlə tez-tez rastlaşırıq. Bu cür nəşrlərin əsas əlamətləri barədə nə deyə bilərsiniz? "Yırtıcı" jurnalların qurbanı olmamaq üçün alimlər nə etməlidir?*

- Elmi nəşrlərin həcminin artması ilə keyfiyyətsiz fəaliyyət göstərən bir çox nəşriyyat da üzə çıxıb. Bu nəşriyyatların əsas auditoriyası "Scopus"dan necə istifadə etməyi bilməyənlərdir. Onlar hər hansı jurnalın indeksli olub-olmadığını müəyyən edə bilmirlər. Bir qayda olaraq, "Scopus"da indeksləşdirilməyən müxtəlif növ jurnallar alimlərə elektron məktublar göndərərək onların məqalələrinin ən qısa vaxt ərzində reytinqli jurnallarda çap olunması üçün təkliflər verirlər. "Yırtıcı" nəşrlərə düşməmək üçün nə etmək lazımdır? Birincisi, məqaləni dərc etməzdən əvvəl jurnalı yoxlamaq lazımdır. İkincisi, elm nəşrin impakt-faktor göstəricisinə diqqət yetirmək lazımdır, bu göstərici 1-dən yuxarı olmalıdır. Üçüncüsü, nəşrdə dərc edilmiş materialların sayını təhlil etmək lazımdır, çünki onların kəskin artımı jurnalın keyfiyyətsiz fəaliyyətinin göstəricisi ola bilər. Dördüncüsü, alimlər nəşrlər və onlardan sitat gətirmələrin sayının hesablanmasına əsaslanan Hirş indeksi üzərində işləməlidirlər. Bundan əlavə, "Scopus"un məlumatlarına əsaslanan jurnallarda məqalələrin pulsuz nəşrinə diqqət yetirməyə dəyər. Çoxları hətta öz saytlarında "Scopus" və "Web of Science"in saxta loqotiplərindən də istifadə edirlər. Buna görə də məqaləni çap olunmaq üçün jurnala təqdim edərkən onun indeksə olunmasına əmin olun, eləcə də "Cite Score" də reytinqinin necə olmasını yoxlamağı unutmayın.

*- "Yırtıcılar" çox sayda tədqiqatçını öz şəbəkələrinə salmaqda davam edirlər. Bu, hər gün baş verir. Bu cür jurnalların universal təsnifatı varmı?*

- Bəli, təəssüf ki, siz haqlısınız. Düşünürəm ki, müəyyən əlamətlər var ki, alimləri fikirləşməyə məcbur etməlidir. Əlamətlərdən biri, jurnaldan poçtunuza sizin məqalənizin qısa vaxt ərzində çap olunması üçün zəmanət verilməsinə dair müntəzəm göndərilən xəbərlərdir. Bundan başqa, digər bir əlamət mövzunuz jurnalın tematikasına uyğun olmasa da, çapa qəbul edilməsidir.

*- Bu cür jurnalların coğrafiyası necə dəyişir? MDB ölkələrində belə jurnallar varmı?*

- Xoşbəxtlikdən müəyyən coğrafiya yoxdur. Belə jurnal hər yerdə ola bilər.

*- Bu jurnalların təhlükəliliyi nədədir? İldə nə qədər məqalə belə jurnallarda dərc edilir?*

- Biz elmi nəşrlər dünyasının analizinə çox ciddi yanaşırıq. Amma biz yalnız reytinq məzmununu təhlil edirik. Öz tərəfimizdən, alimləri xəbərdar etmək, onları qorumaq üçün reytinqli jurnalların əlçatan siyahısını təqdim edirik. Bu isə bir çox alimlərə keyfiyyətsiz nəşrlərdən qaçmağa kömək edir.

**Son 5 il ərzində, "Skopus"da indeksləşdirilən jurnallarda azərbaycanlı alimlərin 5220 məqaləsi dərc olunub, sitatların sayı 32685 təşkil edib ki, bu isə dərc olunmuş hər məqaləyə edilən 6,5 sitat deməkdir. Azərbaycanlı alimlərin "Elsevier"-in elmi jurnallarında, "Science direct" platformasında dərc olunmuş hər məqaləsinə 21 istinad olunur, bu isə Mərkəzi Asiyada ən yüksək göstəricidir.**

*- Məsələni bir qədər sadə qoyaq. Fərz edək ki, mən məqaləmi xarici nəşrlərdə çap etdirmək istəyirəm. "Yırtıcılara" yem olmamaq üçün hansı addımları atmalıyam?*

- "Elsevier" alimləri dəstəkləməyi və onlara kömək etməyi çox vacib hesab edir. Bu məqsədlə biz pulsuz öyrədici "Elsevier Researcher Academy" resursunu hazırladıq. Bu baza özündə böyük həcmdə təlimləri, videodərsləri, vebinarları cəmləşdirib. Siz bu bazadan istifadə etməklə elmi məqalənizi necə düzgün tərtib etməyi, "yırtıcı" jurnala düşməmək üçün nə etməli olduğunuzu, məqalənizin redaktəsi üçün hansı alətlərdən istifadə etmənin mümkünlüyünü və s. öyrənə bilərsiniz. Siz "Scopus"a daxil olaraq hər hansı jurnalın yaxşı və ya pis olmasını görə bilərsiniz. Bundan əlavə, "Scopus"dan istifadə etməklə siz ən çox istinad olunan məqalələri də tapa bilərsiniz. "Elsevier"-in dünyanın ən böyük elmi informasiya resursu olan "ScienceDirect"dən istifadə edə bilərsiniz, bu baza keyfiyyətli elmi-texniki və tibbi informasiyanı tapmağa, qiymətləndirməyə imkan verən ən effektiv və tam elektron interaktiv sistemdir.

*- Məlumdur ki, şübhəli jurnallarda nəşrlər həm bir alim kimi tədqiqatçının, həm də bütövlükdə universitetin nüfuzunu aşağı salır. "Elsevier" "yırtıcı" nəşrlərə qarşı siyasətini necə qurur?*

- Biz "yırtıcı" jurnallarla mübarizə apara bilmirik, çünki bizdə heç bir qarşılıqlı münasibət yoxdur. Amma biz düzgün elmi jurnalın təyini üçün bütün mümkün üsullarla alimlərə kömək edir, onları öyrədir və məsləhətlərimizi veririk. Biz istəyirik ki, alimlər öz elmi işlərini çapa təqdim edərkən aldadılmasınlar.

"Elsevier" indeksi olan jurnalların keyfiyyətinə ciddi nəzarət edir, onların siyahısı müntəzəm yenilənir. Keyfiyyətsiz jurnalların indeksləri isə ləğv olunur.

Ali məktəblər üçün, məsələn, xüsusilə də beynəlxalq reytinqlərdə iştirak edən universitetlərə "Scopus"da universitetin profilini izləmək çox əhəmiyyətlidir, çünki QS (QS World University Rankings) və THE (The Times Higher Education) kimi aparıcı reytinq agentlikləri ali məktəblərdə elmi fəaliyyətin məhsuldarlığının qiymətləndirilməsi üçün "Scopus" məlumatlarından istifadə edirlər.

*- Siz bu günlərdə Bakıda oldunuz. Azərbaycan ali məktəblərinin "Elsevier"lə əməkdaşlığı necə keçir? Alimlərimizin "Elsevier" bazasında fəallığı barədə nə deyə bilərsiniz?*

- Mən Azərbaycan alimləri ilə işləməyi çox sevirəm və buraya da tez-tez oluram. Mən bir neçə dəfə Azərbaycanın ali məktəblərinin əməkdaşları üçün seminar keçirmişəm. Seminarlarda elmi jurnallarda necə nəşr olunmaq olar, düzgün məqalə nə deməkdir, nəşrlərin tipləri, düzgün jurnal seçimi, düzgün elmi leksikadan istifadəyə necə əmin olmaq olar, məqaləni necə düzgün strukturlaşdırmaq olar, eləcə də beynəlxalq elmi jurnallarda məqalə yerləşdirmək üçün tələb olunan standartlar barədə məlumatlar verilib. Mən düşünürəm ki, hər şeydən əvvəl Qazaxıstanda və Özbəkistanda olduğu kimi, Azərbaycanda da elmi-analitik platformaya milli giriş olmalıdır. Bəzi ali məktəblər "Scopus"da və "Science direct"də fərdi abunəyə malikdir, amma əlbəttə istərdik ki, belə bir imkan ölkədə hər bir alimdə olsun. Azərbaycan alimlərinin, tədqiqatçıların "Elsevier"in indeksli jurnallarında fəallığına gəlincə, deməliyəm ki, hazırda onların xüsusən də texniki istiqamətlərdə göstəriciləri çox gözəldir. Alimləriniz texniki sahələrdə çox aktiv dərc olunurlar. Azərbaycan alimlərinin nəşrolunma fəallığı məni çox sevindirir. Son 5 il ərzində, "Skopus"da indeksləşdirilən jurnallarda azərbaycanlı alimlərin 5220 məqaləsi dərc olunub, sitatların sayı 32685 təşkil edib, bu isə dərc olunmuş hər məqaləyə edilən 6,5 sitat deməkdir.

Azərbaycanlı alimlərin "Elsevier"-in elmi jurnallarında, "Science direct" platformasında dərc olunmuş hər məqaləsinə 21 istinad olunur, bu isə Mərkəzi Asiyada ən yüksək göstəricidir.

Mən bununla çox fəxr edirəm. Ümid edirəm ki, bu göstəricilər daha da artacaq və mən bu sahədə öz töhfəmi vermək istəyirəm. Bu məqsədlə mən öz qarşıma azərbaycanlı alim və mütəxəssislərlə "Skopus"un elmi bazasındakı informasiya resurslarından daha düzgün istifadə, elmi nəşrləri düzgün seçmək qaydalarının öyrədilməsi kimi plan qoymuşam. Bununla da Azərbaycanda elmin maksimum inkişafına xidmət göstərməyə çalışıram.

## Britaniyada məzunlar təhsil borclarını ödəyə bilmir

Böyük Britaniyanın bəzi ali məktəblərinin məzunları təhsil dövründə yaranmış kredit borclarını ödəyə bilmirlər. Britaniya təhsilinə dair kifayət qədər kədərli mənzərə barədə Londonda nəşr olunan "The Mail on Sunday" qəzeti məlumat yayıb. Yeni məlumatlara əsasən, Britaniya universitetlərinin məzunlarının demək olar ki, yarısı təhsil haqlarına görə götürmüş olduqları kreditləri qaytara bilmir. Bu gün 2010-2014-cü illərin məzunlarına tələbə kreditlərini ödəmək üçün ildə 17 465 funt-sterlinq qazanmaq lazımdır. Lakin onların yarısı bu məbləğdən az maaş alır. Baxmayaraq ki, məmurların fikrincə, bu məbləğ tamamilə əlçatandır, çünki ölkədə orta illik əməkhaqqının səviyyəsi 27000 funt-sterlinq təşkil edir. Tələbələrin əksəriyyəti belə bir ümidlə universitetə daxil olurlar ki, əldə etdikləri elmi dərəcə onlara gələcəkdə daha çox gəlir qazandıracaq. Ancaq demək olar ki, bəzi ali məktəblərin məzunlarının yarısı universiteti bitirdikdən 4-8 il sonra 17 465 funt-sterlinqdən az əməkhaqqı qazanır. Ən problemli universitet kimi Bolton Universitetinin adı çəkilir. Bu ali məktəbin məzunlarının yalnız 56 faizinin əməkhaqları illik 17 465 funt-sterlinq səviyyəsinə çatıb. Bu mənada ən yaxşı vəziyyət London İqtisadiyyat Məktəbində müşahidə olunur. Bu ali məktəbin 10 məzunundan 9-u tələbə kreditinin ödənməsi üçün lazım olan səviyyədən daha çox qazanır. "Pimlico Plumbers" şirkətinin təsisçisi Çarli Mallinsin sözlərinə görə, bir çox universitetlər məzunlara daha çox gəlirli iş yerləri vəd etməklə bir növ dələduzluqla məşğul olur. Keçən il hökumətin iclaslarından birində tələbə borclarına görə yığılmış borcların ümumi həcminin 5,9 milyard funt-sterlinq təşkil etməsinə dair rəqəm səsləndirilib.



Borcların ümumi həcmi 5,9 milyard funt-sterlinqə çatıb

## İran məktəblərində rus dilinin tədrisi nəzərdə tutulur

İran ölkənin təhsil sistemində ingilis dilini ikinci dil kimi rus dili ilə əvəzləmək niyyətindədir. İranın rəsmi "İRNA" agentliyinin məlumatına əsasən, təhsil naziri Seyid Məhəmməd Batai Moskvada Rusiya Dövlət Dumasının təhsil və elm komitəsinin başçısı Vyaçeslav Nikonovla görüşündə belə bir təkliflə çıxış edib. S.Batai qeyd edib ki, İran hökuməti ölkə məktəblərində ikinci dil kimi tədris olunan ingilis dilinin inhisarçılığına son qoymağı və bu dili başqa dillərlə, xüsusən də rus dili ilə əvəz etməyi düşünür. İranlı nazir artıq öz təklifini Rusiyanın təhsil və elm nazirinə çatdırdığını bildirib. Onun sözlərinə görə, əgər rus məktəblərində fars dili tədris olunarsa, onda İran da iki ölkə arasında qarşılıqlı anlaşmaya dair imzalanmış memoranduma uyğun olaraq rus dilinin tədrisini özünün tədris proqramlarına daxil edə bilər.

S.Batai Moskvaya səfəri zamanı rusiyalı şagirdlərin İran barədə məlumatlı olmadıqlarını təəssüf hissi ilə qarşılayıb. Dillərin qarşılıqlı tədrisi isə bu vəziyyəti aradan qaldıra bilər.

**Səhifəni hazırladı:** *Oruc MUSTAFAYEV*

## Şagirdlərin əl işlərindən ibarət sərgi

Şabran şəhər S.Zülfüqarov adına 3 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş əl işləri sərgisi keçirilib.

Sərgidə məktəbin bütün sinifləri öz əl işləri ilə təmsil olunub. Sərgiyə baxış keçirən münsiflər heyəti ən yaxşı əl işləri təqdim edən sinfi sərgi daxilində keçirilən “Ən yaxşı əl işi” müsabiqəsinin qalibi elan edib.

Ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş tədbirlər silsilə olaraq rayonun bütün ümumtəhsil məktəblərində davam edir.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası”

İmişli rayonunun ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında dərs aparan müəllimlər üçün növbəti təlim keçirilib.

“Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası” mövzusunda təlimin keçirilməsində məqsəd ibtidai sinif müəllimlərinə peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi istiqamətində dəstəyin göstərilməsidir. Təlimdə 12 ibtidai sinif müəllimi iştirak edib.

Təlim Təhsil Nazirliyinin sifarişi ilə “Təhsildə İnnovativ Texnologiyalar” Əlavə Təhsil Mərkəzi (İTE) tərəfindən həyata keçirilir.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## Sumqayıt Dövlət Universiteti məktəblilər üçün “Açıq qapı” günü keçirib

Mayın 5-də Sumqayıt Dövlət Universitetində “Açıq qapı” günü keçirilib. Xırdalan şəhər 1 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri universitetin kimya və biologiya fakültəsində olublar. Fakültənin dekanı, dosent Mahal Muradov şagirdlərin düzgün peşə və ixtisas seçimində görüşün rolunu yüksək dəyərləndirib.

Universitet haqqında şagirdlərə məlumat verən dekan bildirib ki, SDU hazırda dünyanın bir çox aparıcı elm ocağı ilə sıx əməkdaşlıq edir, ikili diplomların verilməsi, tələbə-müəllim mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması istiqamətində uğurlu layihələr gerçəkləşdirir. Bu məqsədlə AMEA Polimer Materialları İnstitutunda universitetin “Polimer materiallarının texnologiyası” baza kafedrası yaradılıb. “Kimya” və “kimya mühəndisliyi” ixtisasları üzrə təhsil alan tələbələr həmin müəssisədə təcrübə keçir, gələcəyin ixtisaslı kadrları kimi formalaşırlar. Hər il kimya və biologiya fakültəsinin bir qrup tələbəsi Türkiyənin İzmir şəhərində yerləşən və dünyanın ən nüfuzlu müəssisələrindən olan “Petkim Petrokimya Holdinq”də istehsalat təcrübəsində olur. Eyni zamanda tələbələr Rusiyanın Pskov Dövlət Universitetində, Ufa Dövlət Neft Texniki Universitetində təşkil olunan konfranslarda fəal iştirak edirlər.

Sonra şagirdlər universitetin tədris binalarını gəzib, Heydər Əliyev Mərkəzində, ayrı-ayrı fakültələrində, auditoriyalarında, laboratoriyalarında, TEMPUS otağı, kitabxana və tədris otaqlarında, kompüter və informasiya mərkəzində, linqvistik mərkəzdə, idman zalında olublar.

Görüşün sonunda şagirdlərin çoxsaylı sualları cavablandırılıb, onlara universitet haqqında broşürlər təqdim edilib.

## ADAU-nun tələbələri Gəncə “ASAN xidmət”ində təcrübə keçir

Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) tələbələrin praktik bilik və bacarıqlarının inkişaf etdirilməsi əsas hədəflərdəndir. Təhsil standartlarının tələblərinə uyğun olaraq, cari tədris ilindən etibarən buraxılış kurs tələbələri üçün tədris və istehsalat təcrübələri təşkil olunur. Hazırda tələbələr respublikanın aparıcı və innovasiyalı müəssisələrində təcrübə keçməklə praktik bilik və bacarıqlarını möhkəmləndirir, təcrübə obyektlərində əmək bazarına hazırlıq mərhələsini keçirlər.

İstehsalat təcrübəsi üçün seçilmiş obyektlərdən biri də Gəncə “ASAN xidmət” mərkəzidir. Hazırda universitetin “informasiya texnologiyaları və sistemləri mühəndisliyi”, “dünya iqtisadiyyatı”, “iqtisadiyyat”, “menecment”, “biznesin idarə olunması”, “mühasibat uçotu və audit” ixtisaslarında təhsil alan 27 tələbəsi qeyd olunan mərkəzdə müvəffəqiyyətlə təcrübə keçir. Tələbələr təcrübə üçün yaradılan şəraitdən məmnunluqlarını, burada vətəndaşlarla ünsiyyət, mükəmməl xidmətin əsas amilləri, sənədlərlə iş, elektron xidmətlərdən istifadə sahəsində böyük təcrübələr əldə etdiklərini bildiriblər.

# “Müəllim yaradıcı olmalıdır”

### *Rəhminə Məmmədova:* “Uşaqlarla işləmək mənə zövq verir”

**Rəhminə Məmmədova 1996-cı ildə Qazax rayonunda anadan olub. 2013-cü ildə orta məktəbi bitirib və Bakı Dövlət Universitetinin kimya fakültəsinin kimya müəllimliyi ixtisasına qəbul olub. Universiteti bitirdikdən sonra müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edib və Ağstafa rayon Yaradullu kənd ümumi orta məktəbinə kimya müəllimi təyin edilib.**



*- Rəhminə xanım, necə oldu ki, müəllim olmağa qərar verdiniz?*

- Mən kiçik yaşlarımdan müəllim olmaq istəmişəm. Bu sevgi mənə, bəlkə də, anamdan keçib. Uşaqlıqda müəllimliyə olan həvəs böyüdükcə bunu gerçəkliyə çevirdi.

*- Ağstafanın ən ucqar kəndində işləyirsiniz, Yaradullu kəndində işləyəcəyinizi biləndə nə hisslər keçirdiniz?*

- Bəli, Yaradullu kəndi təmas xəttinə yaxın yerləşir və rayondan xeyli uzaqdadı. Ailədə çox şıltaq olmuşam deyə, heç kim inanmırdı ki, mən belə bir yerə işləməyə gedərəm. Tanıyanların çoxu bu sualı mənə verib. Onu deyə bilərəm ki, şəxsi istəyimlə Yaradullu kəndində dərs deməyə yollanmışam. Əvvəldən özümü çətinliyə hazırlamışdım. Amma düşündüyümün əksi oldu. Kənd və kollektiv düşündüyümdən daha müasir idi. Burdakı şagirdlər təhsilə çox önəm verirlər. Məktəblilər öyrənməyə daha çox can atırlar.

*- Tələbə olarkən xəyallarınızdakı iş yeri nə olub?*

- Bir və ikinci kursda düşünürdüm ki, heç vaxt müəllim işləməyəm. Amma sonrakı illərdə qəti qərar verdim ki, ixtisasım üzrə işləyəcəm. Tələbə olarkən kurslarda müəllim kimi çalışmışam. Uşaqlarla işləmək mənə zövq verir.

*- Kənd məktəbliləri yeni müəllimlərinə alışıbmı?*

- Şagirdlərlə münasibətim düşündüyümdən daha yaxşıdır. Düşünürəm ki, bu qısa vaxtda şagirdlərin sevgisini, hörmətini qazana bilmişəm. Bu məktəb 9 illikdir. Adətən yuxarı siniflər məktəbə çox gəlmir və oxumaq istəmirlər. Amma mənim doqquzuncu siniflərim oxumağa daha meyillidir. Mən onlara qayğı ilə yanaşıram və eyni qayğını onlardan görürəm.

*- Müəllim yaradıcı olmalıdır, siz şagirdlərdə maraq artırmaq üçün nələrsə etmisiniz?*

- Kimya fənni bir qədər dəqiqlik tələb edən fəndir. Amma buna baxmayaraq şagirdlərdə maraq yarada bildiyimi düşünürəm. Dərs dediyim şagirdlərə bacı-qardaş kimi yanaşıram. Ona görə də uşaqlar kimya fənninə maraq göstərir. Hətta mənə dərs demədiyim aşağı siniflərdə oxuyan şagirdlər də sual verir ki, “bizə nə vaxt dərs deyəcəksiniz?”. Çünki onlar öz bacı və qardaşlarından mənim uşaqlarda maraq, həvəs yaratmaq üçün etdiyim yenilikləri, maraqlı təcrübələri eşidirlər və həvəsləri artır. Belə hallarla qarşılaşdığım zaman həqiqətən sözlə ifadəsi çətin olan sevindirici hisslər yaşayıram və ümid edirəm onların gələcək nailiyyətləri məni daha da sevindirəcək.

*- Müəllim olmaq istəyən şəxslərə nə tövsiyə edərdiniz?*

- Mən öz ixtisasımı sevən bir müəllim kimi bütün şagirdlərimə, yaxınlarıma müəllimlik peşəsini seçmələrini tövsiyə edirəm. Bəzən qrup yoldaşlarımla telefonla danışıram, görüşürəm. Sual verirlər ki, işin necədir. Əlbəttə ki, “əla” - deyə, cavab verirəm.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## UTECA II Milli Sənaye Mühəndisliyi Forumuna ev sahibliyi edib

Gəncədə Azərbaycan Texnologiya Universiteti (UTECA), Lean Consulting şirkəti və Bakı Mühəndislik Universitetinin (BMU) birgə təşkilatçılığı ilə II Milli Sənaye Mühəndisliyi Forumu keçirilib. Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunan forumun işində ölkəmizin bir çox aparıcı sənaye müəssisəsinin rəhbərləri, elm və ali təhsil ocaqlarının nümayəndələri, eləcə də xarici mütəxəssislərin iştirakı ilə sözügedən sahənin aktual problemləri müzakirə olunub, milli sənayemiz üçün kadr hazırlığı prosesinin təkmilləşdirilməsi yolları araşdırılıb.

Forum iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. Dövlət himninin səslənməsi ilə öz işinə başlayan forumda əvvəlcə “Heydər Əliyev və Azərbaycan sənayesi” adlı videoçarx nümayiş etdirilib. Sonra UTECA-nın rektoru, professor Akif Süleymanov II Milli Sənaye Mühəndisliyi Forumunu açıq elan edərək iştirakçıları salamlayıb. O bildirib ki, ilki paytaxt Bakıda keçirilən Milli Sənaye Mühəndisliyi Forumunun ikinci dəfə Azərbaycanın ən böyük regional mərkəzində - ölkənin ikinci böyük şəhəri olan Gəncədə keçirilməsi heç də təsadüfi deyil. Belə ki, bu gün ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişaf etdirilməsində regionların rolu və öhdəlikləri kifayət qədər böyükdür. Həm Gəncə şəhəri, həm də onun ətraf regionunda strateji cəhətdən əhəmiyyət daşıyan sənaye müəssisələrinin sayı artmaqda, fəaliyyəti gücləndirilməkdədir. UTECA tərəfindən yaradılan universitet-sənaye əlaqələrinin ən effektiv modeli həm sənaye müəssisələrinin işinin səmərəliliyini artırmağa, həm də ali təhsil müəssisəsində kadr hazırlığının keyfiyyətini yüksəltməyə xidmət edir.

Tədbirdə Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Kiçik və Orta Sahibkarlığın İnkişaf Agentliyinin icraçı direktoru Orxan Məmmədov, AMEA Yüksək Texnologiyalar Parkının direktoru Vüqar Babayev və bir sıra aparıcı şirkətlərin nümayəndələri forumun mövzusu ilə bağlı məruzələrlə çıxış ediblər. Sessiyalarda qaldırılan təkliflər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Forum ərzində həmçinin UTECA ilə Azərbaycan Sahibkarlar Konfederasiyası, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi (KOSİA) və AMEA Yüksək Texnologiyalar Parkı (AMEA YTP) arasında əməkdaşlıq memorandumları imzalanıb.

## “Tariximiz və bugünümüz” adlı viktorina

Göygöl rayon Uşaq-Gənclər İnkişaf Mərkəzində “Tariximiz və bugünümüz” adlı viktorina keçirilib.

Məqsəd şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, uşaqların keçilmiş mövzular üzrə biliklərinin aşkarlanması, diqqət, yaddaş və yaradıcılıq qabiliyyətlərinin inkişafı, onların komanda daxilində işləmək və bir-biri ilə əməkdaşlıq etmək bacarığının formalaşdırılmasıdır.

Viktorinada şagirdlər “Səma”, “Sülh”, “Günəş” adlı 3 qrupa bölünərək səsləndirilən sualları cavablandırıblar.

Sonda “Səma” komandası yarışın qalibi olub.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Nizami Gəncəvinin məqbərəsinə ekskursiya

Samux rayon Zazalı kənd tam orta məktəbinin şagirdləri Azərbaycanın dahi şairi Nizami Gəncəvinin məqbərəsinə ekskursiya ediblər.

Ekskursiyanın təşkil edilməsində məqsəd dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə məktəbliləri daha yaxından tanış etmək olub.

Ekskursiya zamanı məktəblilər məqbərədə olan Nizami Gəncəvinin öz əl işlərindən ibarət yazı, “Xəmsə”sinin orjinal nümunəsi əsasında hazırlanmış kitab nümunələri, yaşadığı dövrdə istifadə etdiyi libaslarla tanış olub və qəbrini ziyarət ediblər.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Daha tez və rahatlıqla sosiallaşma

⇦ Əvvəli səh.1

## Məktəbəhazırlığı məktəbdə keçən uşaqlar

**Samirə KƏRİMOVA**



Foto Rəşad ZİYADOVUNDUR

Gün ərzində təşkil olunan 3 məşğələnin hər birinin müddəti 30, məşğələlərarası fasilə isə 10 dəqiqədir. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmur. Oktyabrda başlanan məşğələlər mayın 31-də başa çatır.

Uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması, onlarda müəyyən bilik və bacarıq vərdişlərinin formalaşdırılması məktəbəhazırlıq qruplarının əsas məqsədidir.

Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar tədris vəsaitləri ilə dövlət hesabına təmin edilir. Bu qruplarda dərs demək üçün əsasən təcrübəli, daha peşəkar ibtidai sinif müəllimləri seçilib və onlar "Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası" proqramı üzrə təlim kursları keçib. Eyni zamanda, məktəbəhazırlıq qruplarında dərs deyən müəllimlər üçün mentor xidməti təşkil olunub.

2017-2018-ci tədris ilindən məktəbəhazırlıq qruplarına qeydiyyat elektronlaşdırılıb ki, bu da valideynlərin işini xeyli rahatlaşdırıb. Belə ki, valideyn müəllimi, eyni zamanda, məktəbi də özü seçir. Tətbiq edilən digər bir yenilik isə məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyini nəzərə alaraq, I sinifdə də onların eyni sinifdə komplektləşdirilməsi və eyni müəllimin tədris aparmasının nəzərdə tutulmasıdır. Həmin qayda 2017-2018-ci tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2018-2019-cu tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunacaq.

### Valideynlərin marağı artır

Elə paytaxtın 176 və Azər Məmmədov adına 115 nömrəli tam orta məktəblərində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının məşğələlərində iştirakımız əslində, bu prosesin necə həyata keçirildiyini müşahidə etmək, müəllimlər tərəfindən uşaqlarla aparılan işlərlə yerindəcə tanışlıq, valideynlərin münasibətini öyrənmək məqsədi daşıyırdı.

176 nömrəli tam orta məktəbin direktoru Məhəbbət Əsgərova rəhbərlik etdiyi təhsil müəssisəsində fəaliyyət göstərən 2 məktəbəhazırlıq qrupunda 58 uşağın məşğul olduğunu deyir. Məktəbəhazırlıq qrupunun məhz məktəbdə fəaliyyət göstərməsinin əhəmiyyətindən söz açan direktor ildən-ilə bu qruplara öz övladını gətirmək istəyən valideynlərin sayının artdığını bildirir: "Bu qruplarda məşğələ keçən uşaqlar məktəbə çox asanlıqla adaptasiya olur, təhsil mühitinə uyğunlaşır, daha hazırlıqlı olmaları ilə fərqlənirlər". M.Əsgərova məktəbin şagirdləri olacaq balacaların, həmçinin, ümumtəhsil müəssisəsində keçirilən müxtəlif tədbirlərə də cəlb edildiyini, özlərini tanıtmaq, istedad və bacarıqlarını göstərmək üçün onlara şərait yaradıldığını söyləyir.

### Əvvəl çətinlik çəksələr də...

Məktəbəhazırlıq təhsilinə cəlb olunan uşaqların cəlb olunmayanlarla müqayisədə sonrakı məktəb illərində daha yüksək nəticələri olur. Həmin məktəbin hazırlıq qruplarında dərs deyən ibtidai sinif müəllimləri Züleyxa İsgəndərova və Nurlana Mustafayeva bu qənaətdədirlər. Artıq onların gələcək şagirdləri öz I sinif müəllimlərini də seçiblər. Adları çəkilən müəllimlər 8 aydır ki, məşğələ apardıqları qrupun uşaqlarına elə özləri növbəti tədris ilində dərs deyəcəklər. Heç bir çətinlik olmayacaq. Çünki uşaqlar demək olar ki, həm məktəb həyatına, həm də təhsil prosesinə tam alışıblar. Məşğələlərin başladığı ilk vaxtlarda balacalar məktəbə uyğunlaşmaqda çətinlik çəksələr də, artıq bunlar geridə qalıb.

Hər iki müəllimin uşaqlarla apardığı məşğələlərdə iştirak etdik. Xüsusi təlim keçən müəllimlər məşğələləri məktəbəhazırlıq qrupları üçün nəzərdə tutulan tədris planına uyğun aparırlar. Məşğələlərdə məktəbəhazırlıq qrupları üçün hazırlanan və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunan "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Ətraf aləmlə tanışlıq", "Bədii təfəkkürün inkişafı" adlı təlim vəsaitlərindən istifadə edilir.

İştirak etdiyimiz məşğələlərdə uşaqların fəallığı xüsusi hiss olunurdu.

Olduğumuz digər təhsil müəssisəsində - 115 nömrəli tam orta məktəbdə də məktəbəhazırlıq qruplarının fəaliyyəti xüsusi diqqətdə saxlanılır. 1688 şagirdin təhsil aldığı məktəbdə biri rus və 2-si Azərbaycan bölməsi olmaqla fəaliyyət göstərən 3 məktəbəhazırlıq qrupunda 88 uşaq məşğul olur. Həmin məşğələlər dərs cədvəlinə uyğun olaraq həftənin I, II, III və IV günləri aparılır. Məktəbin direktoru Məsud Babayev uşaqların rahat məşğul olmaları üçün hər cür imkan və şəraitin yaradıldığını söyləyir. Artıq həmin uşaqların 70-ə yaxını birinci sinifdə oxumaq üçün bu məktəbi seçib. Direktor məktəbəhazırlıq qruplarının məhz məktəblərdə fəaliyyət göstərməsini düzgün sayaraq, onu məktəbəqədər təhsilin inkişafında uğurlu bir addım kimi qiymətləndirir: "Məktəbəhazırlıq qrupları uşaqların kollektivçiliyə, digər həmyaşıdları ilə birgə məşğul olmağa öyrəşməsində, məktəb həyatına müəyyən qədər hazır olmasında əhəmiyyətli rol oynayır. Valideynlərin istər məktəb, istərsə də müəllim seçimi ilə bağlı narahatlığına da son qoyulub".

Məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Zahid Canayev ilə birlikdə məktəbəhazırlıq qruplarının Azərbaycan bölməsinin müəllimləri Fəridə Əlimanova, Yaqut Haqverdiyevanın məşğələlərində olduq. Onlar bildirdilər ki, məşğələlərdə uşaqların ətraf aləmlə tanışlığı təmin olunur, nitqinin, bədii, məntiqi və sadə riyazi təfəkkürünün, həmçinin təsviri fəaliyyətinin, musiqi və fiziki mədəniyyətinin inkişafı ilə bağlı işlər aparılır. "Məktəbəhazırlıq məhz məktəbdə aparılmalıdır. Bu qruplar balacaların məktəbə daha tez və rahatlıqla uyğunlaşmasında, sosiallaşmasında əhəmiyyətli rol oynayır. Axı, onları, necə deyərlər, uzun bir yol - 11 illik məktəb həyatı gözləyir". Müəllimlər məhz belə düşünürlər.

Rus bölməsinin müəllimi Gülnar Rəhimova isə əsasən azərbaycandilli ailələrdən gələn uşaqların heç bir hazırlıq olmadan birinci sinifdə təhsil alarkən bir sıra çətinliklərlə üzləşdiyini deyir. Məhz bu baxımdan məktəbəhazırlıq qrupunun fəaliyyətinin zəruri olduğunu, burada uşaqların rus dilində artıq sərbəst danışdıqlarını, bir-birləri ilə bu dildə ünsiyyət qurduqlarını bildirir.

### "Uşaqlarımızı peşəkarlara etibar edirik"

Məktəbəhazırlıq qruplarının ən böyük üstünlüyü ümumi təhsil müəssisələrində dövlət hesabına məktəbəhazırlıq qrupunu bitirən 6 yaşı tamam olmayan uşaqların I sinfə müsabiqədənkənar qəbul olunmasıdır ki, bu da valideyn üçün övladının məhz ay fərqinə baxmayaraq, öz yaşıdları ilə birlikdə eyni vaxtda təhsil almasına imkan verir.

Valideynlər məmnundurlar. Belə ki, onlar məhz məktəbdə məktəbəhazırlıq qruplarının açılmasından, məşğələlərin təcrübəli ibtidai sinif müəllimləri tərəfindən aparılmasından, ən əsası isə ödənişsiz olmasından olduqca razıdırlar.

Sevda Qədimova 176 nömrəli tam orta məktəbin məktəbəhazırlıq qrupuna gedən nəvəsi Fidanı bura qoymaqda yanılmadığını, əksinə, uşaqda bir sıra müsbət dəyişikliklərin olduğunu deyir: "İki oğlum bu məktəbin məzunudur. Nəvəmin də burada təhsil almasını istəyirəm. Məktəbəhazırlıq keçən Fidan artıq müəyyən bilik və bacarıqlara yiyələnib. Rahatam ki, uşaq I sinifdə təhsil alarkən çətinliyi olmayacaq".

Fikirlərini öyrəndiyimiz həmin məktəbin digər valideynləri Əsmər Kazımova, Vüsalə Yusifova, Vüqar Həbibov, Mənsuriyyə Quliyeva da müəllimlərin hazırlıq səviyyəsindən razıdırlar. Onların hər biri övladlarının həvəslə bu məşğələlərdə iştirak etməsindən, yaradılmış əlverişli şəraitdən məmnunluqla danışdılar.

115 nömrəli tam orta məktəbin valideynləri Günay Musayeva, Elvina Abbasova, Xalidə Qurbanova, Sofiya İsgəndərova, Könül Cəfərova, Səmayə Mirzəyeva isə seçim zamanı məktəbəhazırlıq kurslarını deyil, məhz məktəbdə fəaliyyət göstərən hazırlıq qruplarına üstünlük verməkdə yanılmadıqlarını bildirirlər. Onlar məhz burada övladlarının hərtərəfli hazırlaşdırılmasından razılıq edirlər: "Uşaqlarımızı peşəkarlara etibar edirik. Bu peşəkarlar isə bizim məktəblərimizdə uşaqlarımızla təmənnasız məşğul olan müəllimlərdir".

Göründüyü kimi, məktəblərdə fəaliyyət göstərən məktəbəhazırlıq qrupları həm təhsil sahəsində çalışanların, həm də valideynlərin bu qruplardan olan gözləntilərini doğruldur və bütövlükdə ictimaiyyət arasında rəğbətlə qarşılanır.

# 12056 şəhidimizin adı bir bayraqda



Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsindəki Nadir Əliyev adına 282 nömrəli tam orta məktəbin müəllim və şagirdləri nəcib layihə həyata keçiriblər.

Məktəbin informatika müəllimi Gülər Musayevanın təşəbbüsü ilə şagirdlər Qarabağ döyüşlərində həlak olmuş şəhidlərimizin adlarını bir bayrağa yazıblar. Bunun üçün xüsusi ölçülü bayraq hazırlanıb. Bayrağa 12056 şəhidin adı yazılıb. Gülər Musayeva təşəbbüsün necə ərsəyə gəlməsi barədə məlumat verdi: "Düşünürəm ki, müəllimin vəzifəsi təkcə şagirdə savad verməkdən ibarət deyil. Müəllimin borcu həm də vətənini sevən vətəndaş yetişdirməkdir. Biz hər birimiz bu torpaq üzərində azad yaşayırıqsa, deməli, şəhidlərimizə borcluyuq. Bu borcu az da olsa ödəyə bilmək üçün bütün Qarabağ şəhidlərinin adını bir bayraq üzərinə yazmağı düşündüm və dərs dediyim şagirdlərlə bu ideyanı həyata keçirməyi qarşımıza məqsəd qoyduq".

Müəllim bildirir ki, işə 2017-ci ilin noyabr ayından başlayıblar: "İlk əvvəl şəhidlər haqqında dəqiq məlumat tapmaq lazım idi. *www.seferberlik.gov.az* saytından 76 rayon və şəhər üzrə şəhid olanların adını bir siyahıda toplamaq üçün şagirdlər arasında bölgü apardım. İKT-nin təhsildə tətbiqi bu layihədə də köməyimizə çatdı. Hər şagird bir neçə rayondan olan şəhidlərin adını yazıb, elektron poçt vasitəsi ilə mənə göndərdi. Bütün şəhidlərin adlarını bir siyahıda topladıqda 12056 şəhidimizin olduğu müəyyənləşdi. 5:2,5 m nisbətində bayraq tikdik. Ötən ilin 27 dekabrından başlayaraq, şəhidlərimizin adını bayrağın üzərinə yazmağa başladıq. Proyektor vasitəsi ilə ekrana verilən siyahını eyni anda 5-6 şagird bayraq üzərində yaza bilirdi. Şagirdlərlə - Könül Fərruxlu, Elmin Abiyev, Aydan Hüseynova, Gülçün Səmədova, Günay Şabizadə, Nuranə Rəcəbova, Vüsal Əliyev, Aslan İmanov, Leyla Məmmədova, Firuzə Məmmədova, David Məmmədli, Kənan Məlikzadə, Şahin Məmmədov, Rəsul Sərkərov, Fidan Abdullayeva, Fəridə Rəhimli, Samirə Zərbalıyeva, Şirzad Əliyev, Əli Xəlilov, Nərminə Ələkbərova, Şamxal Qənizadə, Faiq Rəhimov, Ceyhun Abasov, Nuray Bağırova, Qurban Bağırov, Nərminə Əzizova, Nicat Həmidli, Vüsal Həsənov, İqbal Məmmədov, Eldanə Nəsrullayeva, Natalya Ostrovskaya, Məhəmməd Səmədli ilə birlikdə dərsdən sonra, tənəffüs saatlarında çalışırdıq".

Proses aprelin 27-də yekunlaşıb. Bayrağın üzərində boş qalmış yerə isə "Şəhidlər ölməz, Vətən bölünməz", "Cansa can, qansa qan, yetər ki, sən dalğalan, üçrəngli bayrağımız", "Torpaq, uğrunda ölən varsa vətəndir" şüarlarını və mənbə kimi yararlandığımız *www.seferberlik.gov.az* saytını yazdıq. İş başa çatdıqdan sonra şagirdlərin üzündəki qürur hissini görməyə dəyərdi".

Gülər müəllim deyir ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində belə bir layihəni gerçəkləşdirə bildikləri üçün qürur duyurlar: "İnanıram ki , bu layihədə iştirak edən hər bir şagird gələcəkdə vətənimizə layiqli övlad olacaq. Ona da ümid edirəm ki, tezliklə torpaqlarımız azad olunacaq və bu bayrağın üzərinə şəhid adı yazmağa ehtiyac qalmayacaq".

Gülər Musayeva bildirdi ki, hazırladıqları bayrağı ya Bayraq Muzeyinə, ya da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə bağışlamaq niyyətindədirlər.

# "Mənalı ömrün izi ilə"

**Şakir CƏFƏROV**



ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş "Mənalı ömrün izi ilə" adlı tədbir keçirilib. Tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin, Rabitə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri, müəllimlər və KİV əməkdaşları iştirak ediblər.

Azərbaycan Dövlət Pedaqoyi Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov ümummilli lider Heydər Əliyevin həyat yoluna nəzər salıb. Ulu öndərin nəsillərə örnək olan şərəfli həyat yolundan, milli dövlətçilik tariximizdəki misilsiz xidmətlərindən danışan Q.Novruzov Heydər Əliyevin əziz xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını bildirib.

Tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin şöbə müdiri Zöhrab Cəfərov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və başqaları da çıxış ediblər.

Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik bacarığı, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. Ulu öndərin daxili və xarici siyasəti nəticəsində ölkədə sabitlik yarandı.

Kollecin tələbələrinin ifasında ulu öndərə aid şeir söylənilib, mahnı oxunub, rəqs edilib və ədəbi-bədii kompozisiya nümayiş olunub.

Sonda qonaqlar tələbələrlə xatirə şəkli çəkdiriblər.

# Türkiyəli qonaqlar Heydər Əliyev adına liseydə

**Niyazi RƏHİMOV**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçiriləcək tədbirlərdə iştirak etmək üçün Türkiyənin Tarsus şəhərindən gələn nümayəndə heyəti mayın 8-də Bakıdakı Heydər Əliyev adına liseydə olub. Tarsus Bələdiyyəsi və Tarsus təhsil işçilərindən ibarət nümayəndə heyəti öncə ulu öndər Heydər Əliyevin liseyin qarşısındakı büstünü ziyarət edib, önünə gül dəstələri qoyub. Nümayəndə heyəti tədris ocağı ilə yaxından tanış olub, sinif otaqlarını, laboratoriyaları gəzib. Liseyin foyesində Heydər Əliyevin əziz xatirəsinə həsr olunan guşəyə baxış keçirilib. Görüş zamanı liseyin direktoru Sevinc Orucova qonaqlara tədris ocağının tarixi, uğurları haqqında geniş məlumat verib.

Sonra qonaqlar "eTwining" layihəsi çərçivəsində liseyin şagirdlərinin türkiyəli məktəblilərlə birgə təşkil etdiyi onlayn dərsdə iştirak edib. Onlayn dərs zamanı iştirakçı şagirdlər öz ölkələrinin tarixi yerləri haqqında təqdimatlar edib, UNESCO-nun milli irsinə daxil olan abidələrin yaranma tarixlərini bir-biri ilə paylaşıblar. Liseyin şagirdləri işğala məruz qalan Şuşa haqqında da türkiyəli məktəblilərə ətraflı məlumat verib.

Onlayn dərsdən sonra çıxış edən qonaqlar liseyə səfərlərindən məmnun qaldıqlarını bildirib. Belə dərslərin hər iki qardaş ölkənin şagirdləri arasında bir körpü olduğunu diqqətə çatdırıblar.



## Heç kim unudulmur

II dünya savaşı deyilən qanlı-qadalı bir savaş başladı, bu savaşın bir qütbündə dişinə qədər silahlanmış Hitler Almaniyası, digərindəsə Sovetlər Birliyi dayanırdı. Almanlar tərəfindən edilən hazırlıqlı qəfil hücum Sovet Ordusunu ciddi sınağa çəkmişdi və onlar Bakı neftinin qoxusuna doğru sürətlə irəliləyərək gəlib lap Dağıstanla Azərbaycanın sərhədlərinə çata bilmişdilər. Almanlar tezliklə Azərbaycanı tutacaq və Bakı nefti ilə öz hərbi nəqliyyat vasitələrini təchiz edib bizə qarşı da vuruşacaqlarına əmin idilər.

# Atam məktəb direktoru kimi müharibəyə yollanıb

## 75 ildən sonra onun uyuduğu qardaşlıq məzarıstanını tapdım

**Abbas ABBASOV,**
*BDU-nun kafedra müdiri, professor, Əməkdar müəllim*

Belə bir zamanda Sovetlər Birliyində "Hər şey müharibə üçün, hər kəs vətənin müdafiəsi üçün əlindən gələni etməlidir" şüarları bütün milli respublikaların, onların kənd və şəhərlərinin ən ümdə şüarlarına çevrilmişdi. Bütün ehtiyatlar müharibəyə cəlb edilsə də mərkəzi hökumət arxa cəbhəni də unutmur, bütün müəssisələrin dayanmadan işləməsinə nəzarət gücləndirildi. Tələb olunurdu ki, zavodlar, fabriklər, maarif və səhiyyə müəssisələri dayanmadan işləməli və müharibəyə öz töhfələrini verməlidirlər.

Müharibənin ilk vaxtlarında sovet respublikalarının şəhər və kəndlərində işləyən müəllim, həkim, mühəndis və bir çox ixtisas sahiblərinə müharibədən azad olunmaq üçün imtiyazlar verilirdi ki, arxa cəbhə də öz işlərini uğurla davam etdirsin və ön cəbhəni lazımi sənaye və kənd təsərrüfatı məhsulları ilə, eləcə də yeni kadrlarla təmin etsinlər. Bu məqsədlə də müharibədən azad olunanlara "bron" (hərfi mənada zireh) verilirdi. Ancaq bu bronlardan könüllü imtina edərək döyüşə gedənlər də tapılırdı. O könüllülərdən biri də Qubadlı rayonunun Başarat kənd məktəbinin direktoru işləyən Quliyev Qurban Abbas oğlu idi. Qurban müəllim doğulub boya-başa çatdığı Başarat kəndində məktəb direktoru kimi çalışır, gənclərin təlim-tərbiyə işlərini uğurla davam etdirirdi. Lakin müharibə qızışdıqca orada yaralanaraq tərxis edilənləri və həlak olanları görüb özünün də müharibəyə getmək qərarını qətiləşdirir və bunu evdə ata-anasına, ailə üzvlərinə də deyir: "Kəndimizdən otuzdan artıq adam müharibəyə gedib, ordu sıralarında döyüşdüyü halda mən burada necə qala bilərəm. Mən də müharibəyə getməliyəm". Əslində onun ailə vəziyyəti də ürəkaçan deyildi, belə ki, ailədə işləyən yalnız Qurban müəllim özü idi. Evdə onun həyat yoldaşı və dörd körpə uşağı ilə bərabər ata-anası da vardır və onlar ömürlərinin ahıl çağında idilər. Qurban müəllim rayon hərbi komissarlığına müraciət edib, müharibəyə getmək arzusunu bildirib. "Müharibə gedən ölkədə arxa cəbhədə qalmaq namuslu kişiyə şərəf gətirməz". Komissarlığın nümayəndəsi ona "axı siz müharibədən azad olunmusunuz və arxa cəbhədə fəallıq göstərməlisiniz" - desə də, o cavabında "Könüllü kimi müharibəyə getməyim mənim öz ixtiyarımdadır" - deyə bildirir. Kəndə qayıdan Qurban müəllim ata-anasına və həyat yoldaşı Gülüş xanıma müharibəyə yola düşəcəyini deyir. Atası ona oğlunun iki gündən sonra tamam olacaq qırxı gününü gözləməyi, sonra getməyi tövsiyə edir. O, belə də edir, mənim qırx günüm tamam olur və çantasını götürüb, ailə üzvləri ilə sağollaşaraq, piyada rayon mərkəzinə yola düşür. Qurban müəllimin ailə üzvləri, ata-anası, bütün kənd əhli onu yola salır və xeyir-dua verirlər. Ancaq Qurban müəllim özü də bilmirdi ki, bu, onun doğma kənddən son gedişidir. Onu rayondan Bakıya, Bakıdan da müharibəyə yola salırlar.

Anam deyirdi ki, atan getdi, ancaq bir neçə ay ondan bir səs-soraq gəlmədi. Lakin müharibədən yaralanıb geri qayıdan və digər kənd adamlarının cəbhə məktublarından məlum olurdu ki, onun xidmət etdiyi hərbi hissənin əsgərləri Dağıstanın Xasavyurd deyilən ərazisində alman ordusunun döyüşçüləri ilə üzləşirlər və almanlar onları bir müddət mühasirədə saxlayırlar. Onlar bizimkiləri qaranlıq zirzəmilərdə saxlayıb onlara işgəncələr verirlərmiş. Üç aydan sonra sovet qoşunları Bakıya doğru sürətlə irəliləyən quduz alman ordusuna öldürücü zərbələr endirir və bizim əsgərlərimizi azad edirlər. Sonralar Qurban müəllim evə məktub yazaraq ailə üzvlərini daim məlumatlandırır və onlara toxdaqlıq verirmiş ki, siz məndən narahat olmayın, mən sağ-salamatam, müharibə tezliklə başa çatacaq və biz hamımız öz yurd-yuvamıza qayıdacağıq. Ancaq müharibə günü-gündən qızışırdı. Bakı neftinin iyinə gələn almanlar tədricən geri oturdulur və döyüşlər, məlum olduğu kimi, Rusiyanın, Ukrayna və Belarusun ərazilərinə doğru yönəlir. Bu qanlı döyüşlərdə Qurban müəllim əlindən yaralanır - güllə sağ əlinin üç barmağını aparır. Onu hərbi səhra tibb məntəqəsində müalicə edib sağaldırlar. Orada Qurban müəllimə tərxis olunub öz evinə qayıtmağı məsləhət görürlər. Lakin cavabında "Mənim baş və şəhadət barmağım salamatdır, mən onlarla silah işlədə bilərəm və mən tərxis olunmaq istəmirəm" deyir.

Sonralar onların atıcı diviziyasını Ukrayna cəbhəsinə göndərirlər. 1943-cü ilin qızğın döyüşlərinin birində o, yenidən ağır yaralanır və onun sağala biləcəyinə ümid edərək Zaporojye vilayətinin Oçeretovatoye kəndindəki hərbi səhra xəstəxanasına yerləşdirirlər. Orada ona hər cür tibbi yardım göstərsələr də xilas edə bilmirlər və o, 1943-cü ilin oktyabr ayının 14-də ömrünü başa vurur. Oçeretovatoye kəndi uğrunda gedən döyüşlərdə bizimkilərdən iki yüzə yaxın döyüşçü həlak olur. Orada həlak olanların hamısını elə həmin kənddə də dəfn edir və ailələrinə həlak olmaları barədə məlumatlar göndərirlər. Müharibə başa çatdıqdan sonra SSRİ hökumətinin göstərişi ilə Oçeretovatoye kənd qəbiristanlığında dəfn olunmuş keçmiş döyüşçülərin məzarlarını kəndin mərkəzi küçəsində yaradılmış "qardaşlıq qəbiristanlığı"na köçürüb orada həlak olanların şərəfinə abidə də ucaldırlar. Abidənin qarşısında yaradılmış xüsusi lövhədə döyüşçülərin hər birinin adı, soyadı və atasının adı yazılır. Bu möhtəşəm abidə Oçeretovatoye kəndinin sakinləri və məktəblilər tərəfindən yad edilib onun qarşısına gül dəstələri qoyulur və müqəddəs bir məkan kimi orada müxtəlif tədbirlər keçirilir. Həlak olanların arasında keçmiş SSRİ-nin müxtəlif respublikalarından olan döyüşçülərin, eləcə də azərbaycanlı döyüşçülərin də adlarına rast gəlmək mümkündür. Ancaq təəssüflər olsun ki, onların bir çoxunun barəsində məlumatlar tam deyil, məhdud məlumatlar verilir. Həmin döyüşçülərin adları aşağıdakılardır:

1. Qədirov Mamed Mamed oğlu - Ucar rayonu
2. Musayev Novruz 324 atıcı polku
3. Malaxov Qasım B
4. Mirzəyev Aqvab Naxçıvan 50 A/p
5. Cəfərov D.u-324 a/p
6. Zulfuqarov Abdul 324 a/p
7. Əliyev Əhməd 224 a/p
8. Vəliyev Vəli 324 a/p Zəngilan
9. Quliyev M.M. Sisiyan, Erm. Respublikası
10. Hüseynov Hüseyn Qara oğlu Kürdəmir
11. Quliyev Qurban Abbas Qubadlı rayonu
12. Bağırov Qarakişi M. Salyan rayonu
13. Vəliyev Rəhim Muhamməd
14. Qurbanov Ağasəlim Ağamalı

Güman edirik ki, Ukrayna Respublikasının Zaporojye vilayətinin Oçeretovatoye kəndində "qardaşlıq qəbiristanlığında" uyuyan azərbaycanlı döyüşçülərin ailə-uşaqlarının bundan bəlkə də xəbəri yoxdur. Bu yazını oxuyub öz əzizlərindən xəbər tutanlar gedib onların uyuduğu torpağı ziyarət edə bilərlər. Bu isə hər bir övladın, oğul və qızın, nəvə və nəticənin şərəf borcudur.

Onu da deyim ki, atamla bağlı biz illər boyu axtarışda, soraqlaşmaqda olsaq da yalnız ötən ilin sentyabr ayında bu məlumatı əldə etmişik. Sonra oğlum Qurbanla Ukraynaya gedib, həmin qardaşlıq qəbiristanlığını tapdıq və vətəndən gətirdiyimiz tər qərənfilləri bu abidənin qarşısına düzdük. Məzarda uyuyan bütün döyüşçülərə rəhmət diləyib, ruhlarına dualar oxuduq. Bununla da xeyli təskinlik tapdıq. Bizə təskinlik verən bu idi ki, atam Qurban müəllim və onunla birlikdə qəbirdə uyuyan azərbaycanlı döyüşçülər döyüş zamanı əsir düşməyib, onlar vətən uğrunda gedən qanlı döyüşdə vuruşaraq həlak olub və Ukrayna Respublikasında torpağa tapşırılıblar.

Allah bütün müharibə qurbanlarına rəhmət eləsin və onların uyuduğu torpaq ziyarətgah olsun!

# "Heç kim unudulmur, heç nə yaddan çıxmır"

Şakir CƏFƏROV

Qax rayon İlisu kənd tam orta məktəbində faşizm üzərində qələbənin 73-cü ildönümünə həsr edilmiş "Heç kim unudulmur, heç nə yaddan çıxmır" adlı tədbir keçirilib. Tədbir iştirakçıları öncə İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə gül qoyublar.

Rayon təhsil şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Günay Mahmudovanın verdiyi məlumata görə, İkinci Dünya müharibəsində və Azərbaycan torpaqlarının düşməndən azad edilməsi uğrunda həlak olmuş Vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra şagirdlər Böyük Vətən müharibəsi qəhrəmanları haqqında ətraflı danışıblar. Onlar qəhrəmanlara aid şeir söyləyib, mahnı oxuyub və ədəbi- bədii kompozisiya nümayiş etdiriblər.

# Təhsil müəssisələrində Qələbə Günü tədbirləri

## Qələbənin əldə olunmasında xalqımızın əvəzsiz rolu şagirdlərin diqqətinə çatdırılıb




Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 73-cü ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Belə ki, təhsil müəssisələrində Qələbə Gününə həsr olunan konfranslar, mühazirə və "dəyirmi masa"lar, ədəbi-bədii kompozisiyalar, şagirdlərin əl işlərindən ibarət sərgilər, vətənpərvərlik mövzusunda bədii qiraət gecələri, müharibə veteranları ilə görüşlər təşkil edilib.

Tədbirlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, rayon icra hakimiyyətləri, müxtəlif idarə və təşkilatların nümayəndələri, təhsil müəssisələrinin pedaqoji kollektivləri və şagirdlər iştirak ediblər.

Vətən uğrunda canlarını qurban vermiş insanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirlərdə alman faşizmi üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının əvəzsiz rolu şagirdlərin diqqətinə çatdırılıb, həmyerlilərimizin döyüş meydanlarında və arxa cəbhədə göstərdikləri qəhrəmanlıqlardan bəhs edilib.

Bildirilib ki, ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayır.

Tədbirlərdə çıxış edənlər işğal altında olan torpaqlarımızın dövlət başçısının rəhbərliyi ilə azad olunacağına və qələbə bayramının Şuşada, Laçında, Xankəndində, digər tarixi məkanlarımızda qeyd ediləcəyinə inandıqlarını bildiriblər.

Şagirdlər Böyük Vətən müharibəsində faşistlərə qarşı qəhrəmanlıqla vuruşan həmyerlilərimizə həsr olunmuş şeirlərdən parçalar səsləndirib, mahnılar ifa edib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Qeyd edək ki, tədbirlərdə II Dünya müharibəsində azərbaycanlıların qəhrəmanlığından bəhs edən sənədli və bədii filmlər təqdim olunub.

# 9 May Qələbə Günü qeyd olunub




Ağstafa şəhər 2 nömrəli tam orta məktəbdə 9 May Qələbə Gününə aid tədbir keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin əməkdaşları, müəllimlər, valideynlər və başqa qonaqlar iştirak ediblər. Rayon təhsil şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Nəcibə Vəliyevanın verdiyi məlumata görə, tədbirdə Vətən uğrunda canlarını qurban vermiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təhsil şöbəsinin müdiri Kamran Abbasov İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının misilsiz xidmətlər göstərdiyini vurğulayıb, azərbaycanlıların ön və arxa cəbhələrdə göstərdiyi qəhrəmanlıq və şücaətindən bəhs edib.

Sonra şagirdlər şeir söyləyib, mahnı oxuyub və ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

"Məktəb illəri"

# "Üstünlüyünüzü tapmamış, özünüzdən əl çəkməyin"

## *Aynur Məmmədova:* "Siz hamı kimi deyilsiniz, amma mütləq hamıdan fərqli, üstün bir cəhətiniz var"

**Jalə MÜTƏLLİMOVA**








Fiziki məhdudiyyətli deyirlər, yazıq bilirlər, guya ki, rəhmləri gəlir. Onu etmə, buna toxunma, sən bacarmazsan. Bunlar əlilliyi olan insanların bizim cəmiyyətdə tez-tez rast gəldiyi, hər eşidəndə özlərini aşağılanmış hiss etdiyi ifadələrdir. Hələ bu harasıdır, əlilliyi olan qızı varsa, valideynə bəzən "sənin böyük dərdin var, qız uşağıdır, sonu nolacaq? Yenə oğlan olsa birtəhər ötüşər" də deyirlər bizim reallıqda. Əslində, onların daha çox mənəvi dəstəyə ehtiyacı var, yalançı rəhmə yox. Bu gün "Məktəb illəri"ndə sizə belə bir xanımı təqdim edəcəyik. İllərdir bu sözləri eşidə-eşidə, min bir əzabla zirvəyə ucalan birini. Parataekvando üzrə üçqat dünya çempionu Aynur Məmmədovanı.

Bir dəqiqəsi boş deyil. "Qarışqa kimi hərəkətdədir" deyib zəhmətkeşliyini ifadə edərlər bəzən bir insanın. Bu xanım məhz o "qarışqa"dır. Həmişə harasa gedir, tədbirə, məşqə, görüşə, yarışa. Bir neçə günün danışıqlarından sonra nəhayət, bizimlə də görüşdü, həm də düz üç saat gözlədərək...

*– Tələsə-tələsə gəlmisiniz...*

– Yarışlara hazırlaşırıq, o üzdən gərgin məşqlərimiz gedir. Bir dəqiqə boş vaxt yoxdur. Tədbirlər, dərs, məşqlər. Gün mənə yetmir. Çox gecikdim bilirəm, üzrlü sayın.

*– Bu qədər qaçhaqov indi var, bunlar olmayanda kim idi Aynur Məmmədova?*

– Ucarın Təzə Şilyan kəndindənəm. 1979-cu ildə doğulmuşam. Kənd məktəbində ibtidai təhsil almışam. 1986-cı ildə birinci sinfə getmişəm. Düzünü deyim, şıltaq qız olmuşam. Dəcəl, amma son dərəcə çalışqan idim.

*– O son dərəcə hara qədər idi?*

– Kənd evlərində hamı bilir ki, ya odun, ya kömür sobası yandırırlar. Tez-tez yanğınlar olurdu. Kim idi qaydalara əməl edən, yaxşı şəraitli bacalar quran. Bir gün bizim evdə də yanğın oldu. Bilmirəm inanacaqsınız, ya yox, hamı sənəd, əşya, geyim götürmüşdü, mən dərsliklərimi çıxarmağa çalışmışdım. Demək olar hamısını xilas edə bilmişdim. Oxumağı və çalışmağı həmişə son dərəcə sevmişəm. Deyim ki, əlaçı olmuşam, yox, sadəcə, son dərəcə çalışqan idim.

*– Heç şagird bicliyi işlətməmisiniz?*

– Yox, niyə, işlətmişəm. Hərdən hazır olmurdum dərsə, özümü elə göstərirdim ki, guya müəllim qaldırsa, hamıdan yaxşı özüm danışacam. Çalışqan olmağımda anamın rolu böyük olub. Həmişə məni istiqamətləndirib, oxumalısan, çalışmalısan, bu sənə vacibdir deyib. Ağlım kəsəndən onun bu sözləri qulağıma sırğa olub və təhsilimin üstünə çox ciddi şəkildə düşmüşəm.

*– Arzularınızda kim idiniz?*

– Ya müəllim, ya diktor. Bu iki istiqamətdən birində görürdüm özümü.

*– Fiziki məhdudiyyəti, əlilliyi olan çoxlu sayda insan özünə qapanır. Bəlkə də onları bu cür cəmiyyət edir...*

– Bu var və düzgün deyil. Uşaq idim, bilirdim ki, fərqliyəm. Fərqliliyimin əlillik olduğunu dərk etmirdim. Böyüdükcə əvvəl bağçada, sonra məktəbdə insanlar bunu hiss etdirdi. Mən yavaş-yavaş bir əlimin olmamasının yox, heç olmayacağının fərqinə varırdım. Hamıda olur, məktəbdə, sinifdə uşaqlar arasında dava edirlər. Başqa nəsə deyə bilməyəndə əlilliyimi qaxınc edirdilər. Yaşıdının sənə acıq verib deməsi ki, sənin bir əlin yoxdur... Bunu eşitmək adama toxunur. Axı sən də uşaqsan... Elə bil sınırsan, əlilliyini anlayırsan. Amma həmişə elə bil məni nəsə qoruyub, qoymayıb sınam. İçimdə bir qüvvə məni təslim olmaqdan çəkindirirdi. Anamın israrı o qüvvənin danışan dili idi. 14-15 yaşımda artıq prinsip olaraq qəbul etdim, əlilliyi olan uşağam, bu üzdən hamıdan çox oxumaq, hamıdan çox çalışmaq lazımdır. Düşünürdüm ki, bu mənə böyüyəndən sonra kiməsə möhtac olmamaq üçün lazımdır. Oxuyub özüm öz başımın çarəsini qılmağa çalışacaqdım.

*– Diktor, ya da müəllim olacaqdınız...*

– Bəli, bayaq dedim. Əlilliyi anlayandan sonra suallarım var idi özümə. Deyirdim müəllim olsam, uşaqların qarşısına necə çıxacağam? Diktor olsam, efirdə necə görünəcəyəm? Düşünürdüm müəllim olsam, yəqin bu halım uşaqları da narahat edəcək, bir əli olmayan adam kimi baxacaqlar mənə, müəllim kimi yox. Diktorluğu məşq edirdim onda da. Efirə çıxanda qolumun olmadığını necə gizlədəcəyimi məşq edirdim. Fikir verirdim, bizim diktorlar əllərini qarşılarındakı stolda üst-üstə qoyur bəzən. Onda düşündüm ki, o cür otursam, əlimin yoxluğu bilinməz. Beləcə, diktorluğa bir az ümidlənmişdim. Deyirdim yəqin alınar. Amma bəzən olurdu ki, əlilliyimi üzümə vururdular, onda pərt olurdum. Deyirdilər bacarmazsan, əlilliyin var. Bunu başqaları da deyirdi, ailədə də deyirdilər.

*– Ailədə yəqin ki, sizi qorumaq üçün deyiblər.Çünki valideynlər həmişə narahat olur belə uşaqlar üçün...*

– O da var idi. Amma bu mənim xoşuma gəlmirdi. Nəyi bacarmazsan deyirdilərsə, onu o adamın özündən daha yaxşı etməyə qərar verirdim və edirdim. Bu, məndə alınırdı. Evdə bir işi görmək istəyirdim, deyirdilər axı bir əlin yoxdur, sən bunu bacara bilməzsən, çəkil dur qırağa. Elə bil prinsipə onlara hər şeyin əksini göstərirdim. Sübut edirdim ki, siz bacarmazsan dediyinizi hamınızdan yaxşı bacarıram.

*– Ev işləri, yemək hazırlamaq, bunlarıdamı özünüz edirsiniz?*

– Bu, çox adama maraqlıdır. Çox yaxşı yemək hazırlayıram. Bütün ev işlərini özüm görürəm. Əslində, bütün bunları özümü başqalarına sübut edə-edə öyrənmişəm. Düşünürəm ki, düz eləmişəm. Yoxsa indiki Aynur ola bilməzdim. Əlilliyi olmaq o demək deyil ki, daha heç nəyə yaramırsan.

*– Siz danışdıqca düşünürəm ki, əlilliyin varsa belə, bu, dünyanın sonu deyil, ta o ana qədər ki, sən psixoloji olaraq əlilliyini qəbul edib bunu dərdə çevirirsən...*

– Əlilliyi olmaq o zaman problem yaradır ki, sən özünü aciz bilib, hər şeydən təcrid edirsən. Elələri var özünə qapanır, düşünür faydalı ola bilməz. Hər şey onun üçün bitib. Bəzən də əlilliyi olanları çevrə bu nəticəyə gətirir. Onlara başqa yol qoyulmur.

Əlilliyi olan hər kəs həm də iradə nümayiş etdirməyi öyrənməyə çalışmalıdır. Bilirsinizmi, bizim situasiyamızda hər şeyə rəğmən israrçı olmaq vacibdir. Hamıdan çox israr etməliyik. Hamıya, hətta ailənə etiraz etməyi, çox şeyi edə bilərəm deməyi bacarmaq lazımdır. Düşünmək lazım deyil ki, ata-anama bir yükəm. Bu, əslində, mümkünsüz olanı bacarmaqdır bir az. Mən bunu bacarmışam, mümkünsüzü. Az saydadır belə adamlar. Buna təəssüf edirəm, həm də deyirəm yaxşı ki, o az sayda olanlardanam. İstərdim ki, sayımız daha çox olsun, bütün sağlam insanlar kimi cəmiyyətə fayda verib, faydasız olmadığımızı isbatlayaq.

*– Onda belə çıxır ki, əlilliyi olan insanları ailələrdə qoruyanlar, daha dəqiq, qoruduğunu düşünənlər, əslində, onlara böyük ziyan vurur...*

– Yüzdə yüz belədir. Əlilliyi olanın yerinə hər şeyi özləri edirlər. Bu, düzgün deyil. Onu həyata hazırlamaq lazımdır. Bir gün ancaq özü və dünya, cəmiyyət qalacaq. O situasiyada bütün normal adamlar kimi o, təkbaşına yaşamağı bacarmalıdır.

*– Sizə etiraz edən, qoruyan daha çox kim idi?*

– Atam. Hər işimə qarşı idi. Anamsa həmişə çalış, mübarizə apar, öyrən deyib. Atam oxumağıma belə yox deyirdi. Ali məktəbə daxil olmağıma da etiraz edirdi. İnanırsınızmı, atam ailə qurmağıma da razı olmurdu. Deyirdi bunun evi olmalıdır, övladı olmalıdır. Ailəyə, evə, dünyaya gələcək körpəyə qulluq lazımdır, bu onları bacarmaz axı. Yəni bütün yoxduları ona görə deyirdi ki, qorxusu var idi mən sarıdan. Sarsılırdı ki, alınmayacaq, uduzacağam. Həmişə elə bilmişəm ki, evdə mənə yazıq biri kimi yanaşılır. Bunu hiss etdiyimə görə ağır işlər görürdüm. Bəzən evin elə işlərini görürdüm ki, bunu mənim etdiyimə inanmırdılar. Əslində, uşaq ağlımla özümü atama sübut edirdim, göstərirdim ki, mən sənin düşündüyün aciz qız deyiləm. Üç qardaşım var. Hərdən istəyirdim deyəm ki, ay ata, sənin üç oğlunun üçündən də güclüyəm, məni aciz bilmə, ciddiyə al! Demirdim, susurdum.

*– Üç qardaşın bir bacısısınız?*

– Yox, üç bacı üç qardaşıq. Qızların ən fəalı mən idim. O üzdən özümü həmişə qardaşlarımla müqayisə edirdim.

*– Sizcə əlinizin ikisi də olsaydı, necə olardınız?*

– İki əlim də yerində olsaydı, heç zaman bu adam ola bilməzdim. Sadə bir qız olacaqdım, bəlkə heç iddialarım da olmayacaqdı. Yəni dəqiq qarşınızdakı Aynur olmayacaqdım. Baxın, mənim sevdiyim insanlar, ailəm var. Baxıram bütün əzaları yerində, sağ-salamatdırlar, nələr edə bilərlər, amma etmirlər. Qəribə gəlir mənə bu cür davranışları. Necə ola bilər ki, Allah sənə bu qədər gözəl vücud, sağlam can verə, sən ondan yararlanmaq istəməyəsən. Mənim üçün boş vaxt anlayışı yoxdur.

*– Məktəbdə müəllimlərdən yadda qalanı olubmu?*

– Hamısı yadımdadır müəllimlərimin, həm də bir keyfiyyətləri ilə. Heç biri məni incitmək istəmirdi. Hətta dəcəllik edəndə belə, güzəştlərim vardı. Əslində, əzizlənmək adamın xoşuna gəlir. Sadəcə, bir məqam var idi, ona görə narahat olurdum. Elə bilirdim bu əzizlənmək həm də yazığı gəlməkdir. Ona görə kimsə məni əzizləyəndə bəzən qıcıqlanırdım.

*– Yəni valideyndən də, müəllimdən də cəzanız olmayıb...*

– Riyaziyyat dərsini deyən Əkbər müəllim dərs bilmədin, cavab vermədin, bilmədiyini soruşmadın, dəcəllik elədin, səninlə düşmən idi. Əlində böyük bir xətkeşi olardı həmişə. Cəzası o xətkeşin tini ilə adamın əlinin üstünə vurmaq idi. Mənə bircə Əkbər müəllim cəza verib, özü də lap əcəb edib. Onu həmişə hörmətlə xatırlayıram. Məni əlilliyimə rəğmən kimsədən seçmirdi. Cəzaya layiq idimsə, cəzalandırırdı. Oxumadım, dəcəllik elədimmi, hamı kimi xətkeşini işə salırdı.

*– Əkbər müəllimdən müdafiə tədbirləriniz necə, olurdumu?*

– Hə, özü də necə, xətkeşini təhlükəsizləşdirirdim. Şrupla bağlanırdı xətkeşin küncləri. Əlimə düşən kimi şrupunu boşaldırdım. Onda vuranda, ağrıtmırdı. Hiss edən kimi baxırdı uşaqlara. Məni gülmək tuturdu. O dəqiqə bilirdi ki, məsələ mənlikdir. Gülümsəyirdi və yenə də cəzamı verirdi. İndi övladlarımız var, böyümüşük, yadıma düşəndə gülürəm hələ də.

*– Bu qədər qorunan, əzizlənən qızın idmanla bağlılığı neçə yaşdan oldu?*

– İdman karyeram elə yaş dövründə başlayıb ki, hamıya qəribə gəlir. Çünki adətən uşaq yaşlardan başlayırlar məşqlərə. Mən kollec də oxumuşdum, ailə də qurmuşdum, bir oğlum da var idi. Uşaqlıqda etdiyim tək idman bilirsinizmi nə idi? Tək qolla hamının acığına ağacın ən yüksəkdə budağına qədər qalxıb, orda oturardum. Hamı narahat olurdu, heç vecimə də deyildi, çünki vərdiş etmişdim. Hərdən xəyallar da qururdum ora qalxanda, deyirdim, bəlkə karate idmanı üzrə usta olum? Amma 28 yaşında ilk məşqə başlamaq ağlasığmazdır...

*– Qəribə başlanğıcdır...*

– Həm də son dərəcə. Orta məktəbi bitirəndən sonra iki il dalbadal BDU-ya qəbul olmaq istədim, kəsildim. Maliyyə-İqtisad Kollecinə daxil oldum. İstəyim nə olur-olsun öz yolumu tapmaq idi. Bunun üçün mütləq kənddən çıxmalı idi. Kollec bu mənada mənə vacib lazım idi. Elə o ili də eşitdim ki, Bakıda Paraolimpiya Komitəsi yaradılıb. Bu, məni çox həvəsləndirdi. Baxdım ki, mənim əlilliyimə görə ən uyğun olanı atıcılıq idman növüdür. Yavaş-yavaş məşğul olmağa başladım. Respublika çempionatına çıxırdım. Amma baxırdım mənə çətindir. Bilirsinizmi niyə? Problem sağ əlimdədir. Silahı sol əllə işlədirəm. Bütün silahları adətən sağ əl üçün hazırlayırlar, norma budur. Sağ əllə tutulası silahı, sol əllə peşəkar işlətməyi öyrənmək çətindir, bunu peşəkar olanlar bilir. Yenə də əl çəkmək niyyətim yox idi, nəhayət ki, ən yaxşı səviyyədə öyrəndim.

Günlərin birində dedilər ki, parataekvando idman növü üzrə də bölmə açılır. Baxdım bu idman növündə əl demək olar ki, lazım deyil. Mənə məsləhət də görüldü dəyişim, düzü, özüm də istədim dəyişim məşğuliyyətimi. Mən həm də ilk azərbaycanlı parataekvandoçu qadınam. İlk olmaq da bir az həvəsləndirdi. Dedilər belə bir qadın yoxdur, sənin göstəricilərin, boyun uyğundur, həm də ilk olacaqsan, idman tarixində qalacaq adın. Adətən idmançı qızların çoxu ailə qurandan sonra idmandan uzaqlaşır. Məndə əksinə oldu. Ailəm, övladım olandan sonra idmana gəldim.

*– Narazılıq da olmadı evdən...*

– Həyat yoldaşım istəmirdi. Dedi bu, qadın işi deyil. Ona dedim ki, necə olur-olsun, bir yol açmalıyam özümə. Əslində, idmana qədər də xeyli iş görmüşdüm. Sol əllə rəsm çəkməyi bilirəm. Əl işləri hazırlamağı öyrənmişdim. Müxtəlif gəlinciklər hazırlayırdım. Tək əllə xalça toxumağı da öyrənmişdim. Ayrıca müxtəlif kompüter kurslarına gedib, proqramları mənimsəmişdim. Dil kurslarına gedib, dil bacarıqlarımı inkişaf etdirmişdim. Əlil Qadınlar Cəmiyyətində də işləyirdim. Həyat yoldaşıma dedim ki, bu qədər işləmişəm, mənə mane olmamısan, yenə mane olma. Qoy məşq edim, yarışa çıxım, nailiyyətim olmasa, birinci yarışdan sonra evdə oturacağam.

İlk məşqçim Əvəz Tağıyev oldu. İlk deyəndə, elə indi də Əvəz müəllimlə işləyirəm, o, həm də bizim milli yığmanın baş məşqçisidir. Məşqlərə başlayanda o qədər çətinlik var idi. Hesab edirdim ki, alınmayacaq, özümü bəri başdan evdəkilərin yanında uduzmuş bilirdim. Bir də mən əvvəllər əlilliyi olan idmançılarla yox, tam normal olanlarla məşq edirdim. Hərdən hiss edirdim zərbə vuranda pis olurlar, düzdür, əsəbiləşirdim əvvəl, amma onu da anlayırdım ki, ağrıyacağımdan ehtiyat edirlər. Bir dəfə anlatdım ki, siz vurun, narahat olmayın. Məni siz burda vurmasanız, yarışda kimsə vuracaq və məğlub olacağam. Yəni siz mənə əslində, pislik edirsiniz. Sonradan komanda yoldaşlarımla məşq etməyə başladım. Bizim öz uşaqlarımızda artıq rəhmi gəlmək yoxdur, çünki hamımız eyni cürük. Çox çətin oldu məşqlərimiz. İndi baxıram əlilliyi olan qızlar gəlib gedirlər. Çətinliyə dözümləri yoxdur, bir bəhanələri də var ki, bu, mənlik deyil! Yaxşı axı nə sənlikdir?!.. Qəbul etmirəm belə şeyləri, bütün hadisələrdən çıxış yolu var.

*– İlk qələbə harada oldu?*

– 2010-cu ildə dünya çempionatı keçirilirdi. Dedilər sən artıq hazırsan, uduzsan da, udsan da yarışa aparırıq. Ölkədən çıxmalı idim, təbii ki, ailəm bunu da bilməli idi. Dedim, bu dəfə də etiraz edildi. Şərtimi yada saldım, söz verdim ki, nailiyyət olmasa, ikinci dəfə yarış adı çəkməyəcəm. Beləcə, 2010-cu ildə Sankt-Peterburqda keçirilən dünya çempionatına qatıldım. Ağlıma gəlmədiyi halda dünya üçüncüsü oldum. Bu, bilirsinizmi mənim üçün nə idi? Möcüzə. Təsəvvür edin, biz Azərbaycana dönəndən sonra ölkə başçısı İlham Əliyevlə görüşəcəkdik. Bu, mənim üçün bir əlçatmaz zirvə idi. Həm də ən maraqlısı bu idi ki, qırx nəfər kişi idmançı arasında yeganə qadın idim. Bilirsiniz, bəzən deyirik ki, onsuz da alınmayacaq və dayanırıq. Məni həmişə nəsə qoymurdu dayanım, küsüm, inciyim. Elə hey gedirdim, gedirdim, gedirdim. Bəlkə birincə dəfədir bunu deyəcəm, amma bu uğur həyatdan bütün çəkdiklərimin qarşılığı idi. O qədər kənddə bağımızın lap aşağısına gedib, hamıdan, atamdan, anamdan gizlənib ağlayırdım. Axı mənim qabiliyyətim, üstünlüklərim var, mən niyə istədiklərimi edə bilmirəm? Deyirdim bacarıq, potensialımı ortaya qoymaq üçün fürsətim heç olmayacaqmı? İlk qələbəm hər şey etmək üçün verilən fürsətim idi. Bugünkü Aynur həmin mükafatdır. İndi zərrəcə pis olmuram. Elə yaxşı ki, məni anam belə dünyaya gətirib. İndi o qənaətdəyəm ki, insanın beyni, ruhu əlil olmasın. Ən dəhşətli əlillik odur. Mənim kimi çoxlu sayda gənc var, onları motivə etməyə çalışıram həmişə. Sınmaq olmaz, ruhdan düşmək olmaz, özünə qapanmaq olmaz. Siz hamı kimi deyilsiniz, amma mütləq hamıdan fərqli, üstün bir cəhətiniz var. Onu kimsə sizdə əlilliyə görə axtarmayacaq. Əzizləyib, qadağalar qoyacaqlar, haradasa yazıqları gələcək. Bütün bu qadağaları aşın, özünüzün yolunuzu cızın. Mən anamın bu sözlərini həmişə örnək aldım. İndi də bu örnəyi əlilliyi olan insanlarla paylaşıram. Əlilliyinizdə gizlənən üstünlüyünüzü tapmamış, özünüzdən əl çəkməyin.

*– Özünüz bu qədər sarsıntılar, əziyyətlərdən keçmisiniz, sizin kimi uşaqlar üçün nə etmisiniz?*

– Bir təşkilat yaratmışam. Ora müxtəlif yaş kateqoriyasından əlilliyi olan yüzə yaxın gənc üzv kimi yazılıb. Bizim təşkilatda əlilliyi olan azyaşlılar arasında artıq bir qrup formalaşıb, indidən parataekvando ilə məşğuldurlar. Əminəm, mütləq nəticələri olacaq. Yəni bacardığımı edirəm, arxalarında dururam ki, mənim sarsıntılarımı yaşamasınlar. Bu təşkilatı yaratmaq, real olaraq fəaliyyət göstərmək, bilirsinizmi nə qədər əlilliyi olan insanı intihardan xilas edir? Bu şansı qazandığıma, bu imkanları əldə etdiyimə görə çox xoşbəxtəm.

Bir söz də deyim, bizdə əlilliyi olan oğlanlarla müqayisədə qızlara münasibət daha sərtdir. Onları aciz duruma salıb, həyatdan küsdürmək olmaz. Bu qızdır, sonu, aqibəti necə olacaq deyib faciə yaratmağa ehtiyac yoxdur. Bəlkə əlilliyi olanların çoxunun həyatının qurulmasına elə o rişxəndlə yanaşma mane olur. Unutmasın kimsə, bəlkə onun gələcək həyatında elə həmin əlilliyi olan oğlan, qız qədər faydalı ikinci adam heç olmayacaq.

**Hamısı yadımdadır müəllimlərimin, həm də bir keyfiyyətləri ilə. Heç biri məni incitmək istəmirdi. Hətta dəcəllik edəndə belə, güzəştlərim vardı. Əslində, əzizlənmək adamın xoşuna gəlir. Sadəcə, bir məqam var idi, ona görə narahat olurdum. Elə bilirdim bu əzizlənmək həm də yazığı gəlməkdir. Ona görə kimsə məni əzizləyəndə bəzən qıcıqlanırdım.**

# Sən ancaq zirvədə dayanmalısan!



**Əyyub ŞIRLANLI,**
*Əməkdar müəllim, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

Qoru ana yurdun Azərbaycanı,
Qov çıxart bu yurddan
murdar düşməni!
Ey Vətən övladı, əgər qovmasan,
Düşmən fürsət tapıb qovacaq səni!

Ey Vətən övladı, eşit sözümü:
Sənin tarixin var, şan-şöhrətin var.
Qoyma zirvələrə qanadlansınlar,
Sənin torpağına girən yağılar!

Ey Vətən övladı, ey cəsur əsgər,
Düşməni qanına boyamalısan!
Sənin tarixin var, şan-şöhrətin var,
Sən ancaq zirvədə dayanmalısan!!!

# Döyüşə hazır ol!

Vətən yolunda hər an,
Döyüşə hazıram mən.
İntiqam almaq üçün,
Dayanıb-dözürəm mən.

Ey dədəmin nər oğlu,
Döyüşə gir, qisas al!
Xətainin qılıncın,
Düşmənin köksünə çal!

Yadında saxla ki, sən,
Vətənin balasısan!
Sənə son sözüm budur:
Şuşanı alasısan!

# Bizim yerlərə...

Dünyanın çox yerin gəzdim-dolaşdım,
Tay görə bilmədim bizim yerlərə.
Qartallar qıy vuran zirvələr aşdım,
Düşübdür hər yerdə izim yerlərə.

Gəzdim çəmənzarın, gördüm qoruğun,
Yığdım çiyələyin, yığdım moruğun.
Yedim təknəsinin çörək qırığın,
Əyildim toxunsun dizim yerlərə.

Yatdım meşələrdə, bulaq başında,
Keçdim gədiklərdən payız-qışında.
Ayrıldım Şuşadan qırx beş yaşımda,
Niyə həsrət qaldı gözüm yerlərə?!

Get dolan ormanın, yalın-yamacın,
Eşit nəğməsini kəklik, turacın.
Soruş gül-çiçəkdən dərdin, əlacın,
Gör necə çatıbdır sözüm yerlərə?!

Hər kəs bilə-bilməz nə çəkirəm mən,
Harda məskən salıb yer əkirəm mən,
Vətən deyə-deyə yaş tökürəm mən,
Əyyubam, qurbanam özüm yerlərə.

# Yağış ovqatı



**Bilal ALARLI,**
*ADPU-nun Cəlilabad filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

Yağış yağır,
külək əsir,
ev titrəyir,
titrəyirəm,
yata bilmirəm.
İslanmış fikirləri
başımdan ata bilmirəm...
Ata bilmirəm
başımı balışa
bu gecə yarı,
Yığıb-yığışdıra
bilmirəm yatacağımdan
canına su hopmuş xəyalları.
İslanmışın yağışdan nə qorxusu,
suyum çıxınca sıxıram özümü.
Sıxdıqca süzülür sözüm,
köhnə bez kimi
nəm çürüdür sözümü...
Yağış isladır,
külək döyür məni,
yata bilmirəm.
İslanmış fikirləri
başımdan ata bilmirəm
bu gecə.
Bu gecənin səhəri
gəlmir gözümə,
gələ bilmirəm özümə...

# Ağıllı nağıl

Mən nağıl danışmağı xoşlayıram,
ömrüm nağıl olacaqmı?
Ağlım çıxır başımdan,
başımda ağıl olacaqmı?
Çaşıb qalmışam,
nağıl ömrü yaşayım,
ağıl öyrənim?!
Ağıl nağıla gəlmir,
nağıl ağıla gəlmir.
Ölür hamı,
ölür nağıl ömür üçün.
Nağıla dönməyə bəs eləmir
ağıl
ömür üçün.

# Qapı

Məni ah aparır,
ahı çəkdiyim yerə
etmədiyim günah aparır.
Əlimi çəkdiyim günah
əl çəkmir yaxamdan.
Ayağını kəsdiyim günah
üzür ayağımı
qarşıma çıxandan.
Etmədiyim günah,
mən sənə əyilmirəm,
əymə məni.
Mən günahların üzünə
pas atmış qapıyam,
döymə məni.

# İşıq

Hər gecə şeirlə yüklənirəm,
yuxu gəlmir gözümə,
kövrək bir misraya köklənirəm.
Tək və tənha oturub yatağımın içində
göz döyürəm,
İlahi bir vəhyin
haçan gələcəyini gözləyirəm.
İçimdə bir saz havası
bulaq kimi qaynayır.
Ruhum qol götürür,
ürəyim oynayır.
Gəl, indi yat, canım,
Hünərin var, başını balışa at, canım,
o başı ki, havalanır hər gecə.
Bir kövrək misranın eşqinə uçuram,
uçuram adamlarda işıq görüncə.
Uçuram gecəgözünə,
Yer tapmıram özümə.
Qaranlıqda uçanlar
işığa çıxmır, bilirəm.
İşıqlı adamlardan qaçanların ayağına
işığa dönüb gəlirəm.

# Vətənim



**Rüfət SABİRLİ,**
*ADPU-nun Cəlilabad filialının tarix və coğrafiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*

Sən tarix qoxursan, bu gün, dünənsən.
Şəhid ruhlarına ölməz bədənsən.
Mənim Mədinəm də, Məkkəm də
sənsən.
Müqəddəs ocağım, pirim Vətənim!!!

Savaş libasını əynimə geyib,
Vuruşum düşmənin qəddini əyib,
"Ya ölüm, ya Vətən" sözünü deyib,
Döyüş meydanına girim, Vətənim!!!

Ordusun sıraya düzüb düşmənin.
Qəlpəylə, mərmiylə deşim bədənin.
Sonra şəhid olum yolunda sənin.
Uğrunda canımı verim, Vətənim!!!

Bizi arzulayır xarı bülbülüm,
Bəlkə də ağlayır o zülüm-zülüm,
Fərqi yox sağ qalım, ya da ki ölüm,
Ömrümü yoluna sərim Vətənim!!!

# Ana

Sən elə varlıqsan olmaz əvəzin,
Doldurmaz yerini heç kəs həyatda.
Səninlə şahidi oldum bu sözün:
"Cənnət anaların ayağı altda".

Mənə lay-lay dedin, yatmadın özün,
Sənin əziyyətin danılmaz əsla,
Sevinc bəxş eyləyir hər şirin sözün,
Sən kimi sevgidən doyulmaz əsla.

Saçıma sığal çək, oxşa telimi,
Səninlə olanda unudulur qəm.
Deyir ki, "Nə qədər böyüsən də sən,
Yenə də körpəmsən, balaca körpəm".

Elə bir varlıqsan yoxdu əvəzin,
Bu dünya bir yana, sənsə bir yana.
Fələk həyatımdan kəsib illəri,
Sənin həyatına calasın, ana !!!
Sənin həyatına calasın, ana !!!

# Sən məni unuda bilməyəcəksən

Bu tənha gecənin qaranlığında,
Könlünü ovuda bilməyəcəksən.
Ötəcək fəsillər, keçəcək aylar,
Sən məni unuda bilməyəcəksən.

Qəlbini peşmanlıq saracaq inan!
Həsrət dörd yanını alacaq inan!
Gözlərin yollarda qalacaq, inan!
Sən məni unuda bilməyəcəksən.

Qapını mənsizkən kədər çalacaq,
O an tək həmdəmin rəsmim olacaq,
Vicdan əzabından gözün dolacaq,
Sən məni unuda bilməyəcəksən.

Heç yerdə gətirmə bu eşqi dilə.
İstəməm başqası halına gülə,
Yalandan "unutdum" desən də belə,
Sən məni unuda bilməyəcəksən.

Əsla saxlamazlar çıxıb gedəni.
Qəfil ayrılığın nədir nədəni?
Gizli gəzəcəksən hər yerdə məni,
Sən məni unuda bilməyəcəksən.

# Oğlum



**Allahverdi BULUDLU,**
*İmişli rayonu, İ.Allahverdiyev adına Buludlu kənd tam orta məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavini*

Yaxından üzünə baxım doyunca,
Durulum, su kimi axım doyunca,
Hər axşam qarşına çıxım doyunca,
Könlünə yatırmı Kür görüm, oğlum.

Dünyada yaxşılıq yadda qalacaq,
İllər varaqlayıb yada salacaq,
Bu günə salamın atan olacaq,
Sabaha salamı ver görüm, oğlum.

Alovlar içində, odlar içində,
İmzalar içində, adlar içində,
Bir belə ilxılar, atlar içində,
Mindiyin hər atı Dür görüm, oğlum.

Apar Çənlibelə sən bu cığırı,
Məftillər içində Araz çığırır,
Xətai çağırır, Babək çağırır,
Qılıncla düşməni vur görüm, oğlum.

Sən hələ tələsmə, bir yana getmə,
Necə böyüyürsən, bir görüm oğlum.
Tikanlar, qanqallar içində bitmə,
Güllərin yanında dur görüm, oğlum

Tutulma qəlbimi sənə vermişəm,
Yolunda çiçəklər, güllər dərmişəm,
Gələndə Vətəni ayrı görmüşəm,
Gedəndə Vətəni bir görüm, oğlum.

# Aşıq

*(Şərur rayonunun Kosacan kəndində yaşamış el sənətkarı Ağ Aşığa ithaf olunur)*



**Yaşar CƏLİLOĞLU,**
*Naxçıvan MR, Şərur rayonu, Kosacan kənd tam orta məktəbinin tarix müəllimi*

Ana laylasıyla kökləyib sazın,
Vətən torpağını dolandı aşıq.
Bir gözəl gözündən alovlanaraq,
Məhəbbət oduna dolandı aşıq.

Gəzdi Odlar yurdun, odlu ürəklə,
Dolandı Vətəni min bir diləklə,
Xınalı dağlarda güllə-çiçəklə,
Güllərin başına dolandı aşıq.

Uludur əcdadı, uludur soyu,
Dolandı Mərəndi, dolandı Xoyu,
Göyçəni, Təbrizi, İrəvan boyu
"Dilqəmi" havasın çalandı aşıq.

Vətəndir qibləsi, Vətəndir canı,
Eşqdir, məhəbbətdir, dini-imanı,
Sazıyla uyudub bala ceyranı,
Ceyran baxışında talandı aşıq.

# Can borcu



**Emin PİRİ,**
*Xızı rayonu, Türkoba kənd ümumi orta məktəbinin tarix müəllimi, Prezident təqaüdçüsü*

Gəl,
döy qapımı...
yolun uzaqdı bilirəm,
əziyyət çəkmə,
sizə gətirrəm
qapımı
döy,
ürəyin döyünən qədər.

Yaşayıb güldürmədim
səni doyunca.
qoy,
ölüm...
doyunca ağladım səni.

Tanrım,
sənin də yanında
yalançı oldum,
göndərə bilmədim əmanətini.
sənə də can borcum qalıb,
nisyə dəftərinə yazarsan məni.

# Mən qütb soyuğuyam

Məndən baş çıxara bilmir
heç doğmaca anam belə...
Sənə də qəribə gəlir?-
nə təhər insanam belə.

Vurub öldürsən də buyam,
bir az ataş, bir az suyam,
bir az da qütb soyuğuyam.
Şaxta, sazaq, donam belə!

Dönüb sənə baxır hamı,
donub... sənə baxır hamı.
Saçlarında buz salxımı,-
nə qırılam, sınam belə.

Şəklinə səndən yaxınam,
mən öz evimi yıxanam...
belə-belə işlər sonam,
get, yaxşı yol, sonam... belə!

# Bu dünyanın



**İbrahim YUSİFOĞLU,**
*Naxçıvan MR, Şərur Rayon Təhsil Şöbəsinin əməkdaşı, "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi"*

Bu dünyanın bu gününə ta yadıq,
Sabahına qovuşuruq kədərsiz.

Bu dünyanın bu günləri nəğməli,
Bu dünyanın sabahları təhlükə.
Bu dünyanın taleyini birisi
Bilə-bilə bənd eləyir bir tükə.

Bu dünyanın 41-45 arası,
Bu dünyanın dərd-sərinə bəsidi.
Bu dünyanın ən kədərli nidası
"Oğul" deyən bir ananın səsidi.

Bu dünyanın kosmos adlı fəzası,
Bu dünyanın hərbi üçün tapındı
Bu dünyanın hərbiləşib hər yanı,
Bircə qarış torpaq yoxdu sapıntı

Bu dünyanın başı üstə bayrağı,
Bu dünyanın göyərçinli səması.
Bu dünyanın var çəkici, orağı,
Haqqımız yox başqa bir şey uması.

Bu dünyanın bu gününü yaşadıq,
Bu dünyanın sabahından xəbərsiz.

# Vətən nəğməsi

Nəğmələrin ən qədimi, ulusu,
Meyvələrin ən şirini, sulusu,
Bulaqların ayna kimi durusu-
Vətən nəğməsi!

Bu nəğmənin hər misrası "Cəngi"di,
Al qırmızı hər nəğmənin rəngidi.
Dar anında bir oyanış zəngidi-
Vətən nəğməsi!

İgidlərlə o, eyləyər yoxdan var,
Mərd əllərdə ilmələnər, toxunar.
Azad eldə, azad dildə oxunar-
Vətən nəğməsi!

# Vətən sağ olsun



**Sevinc MƏMMƏDOVA,**
*Samux rayonu, Qarayeri qəsəbə 1 nömrəli məktəb-liseyin tarix müəllimi*

Ana vətənimin hər bir bucağı,
Abad olduğu tək qoy azad olsun.
Gəzdiyin, gördüyün yerlər içində,
Yurdumun ürəyi Qarabağ olsun.

Ey vətən övladı, ey vətən oğlu,
Sən yaşa, sən yaşat ana torpağı.
Sən qoru, sən ucalt Azərbaycanı,
Qoy ellər içində elin var olsun.

Bayrağın göylərdə hey dalğalansın,
Torpağın ən azad bir diyar olsun.
Vətəni qoruyan hər bir oğulun,
Qoy eli-obası bəxtiyar olsun.

Mən əhsən deyərdim o vətəndaşa,
Yeri gəlsə dönsün torpağa, daşa.
Bu torpaq uğrunda, vətən uğrunda,
Hər an söyləsin ki, Vətən sağ olsun!

Yediyin çörəyin, içdiyin suyun,
Hər kəs söyləsin ki, qoy halal olsun.
Anasın, vətənin sevən övladın,
Amalı, son sözü, Vətən sağ olsun!

Yenə çiçəklənsin təzə arzular,
Barlı bağlar kimi üstü bar olsun.
Yayın istisində sərinlənməkçün
Getdiyin dağların başı qar olsun.

**Səhifəni hazırladı:** *Samirə KƏRİMOVA*

Azərbaycan Respublikası Təhsil Nazirliyi · AZƏRBAYCAN MÜƏLLİMİ · Bank of Baku

**"Azərbaycan müəllimi" qəzeti və Bank of Baku ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlər üçün "Azərbaycan Xalq Cümhuriyyəti və təhsil" mövzusunda yazı müsabiqəsi**

**ELAN EDİR**

Yazılar 20 aprel 2018-ci il tarixdən 20 may 2018-ci il tarixinədək muallim@edu.gov.az elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və Cümhuriyyət dövrü tədqiqatçılarından ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin pul və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

**MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ:**

- İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidirlər.
- Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər.
- Yazının həcmi 8-10 min işarədən ibarət olmalıdır.
- Yazının əvvəlində müsabiqə üçün hazırlandığı qeyd edilməlidir.

Əlaqə üçün: (012) 538-51-41

**TƏŞKİLAT KOMİTƏSİ**

## "Google" tarixi abidələri virtual reallığın köməyi ilə qoruyacaq

"Google" şirkəti ən yeni texnologiyalardan istifadə etməklə tarixi abidələrin qorunması üzrə layihəyə start verməyi planlaşdırır. Tezliklə şəbəkədə məşhur tikililərin ilk 3D-modelləri yerləşdiriləcək.

**www.belta.by** saytının məlumatına görə, şirkət "Open Heritage" adlı layihəni "Google Arts & Culture" proqramı əsasında "CyArk" ilə birgə hazırlayır. Mütəxəssislər üçölçülü modelləri lazer skanerlərinin köməyilə yaradacaqlar, sonra proqramın bazasına yükləyəcəklər. 3D-modellərin arxivinə mobil proqram və İnternet vasitəsilə daxil olmaq mümkün olacaq. İstehsalçıların sözlərinə görə, müasir texnologiyalar tarixi abidələri ətraflı təsvir etməyə imkan verir. 3D-modellər, hətta rəng və tekstur kimi ən xırda detalları belə ötürə biləcəklər.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4793, **Sifariş** 1409

**Məsul növbətçi:** N.Rəhimov


## Avropada süni intellektin inkişafı üçün vahid elmi laboratoriya yaradılacaq

Avropanın süni intellekt sahəsində tədqiqatlarla məşğul olan aparıcı mütəxəssisləri vahid ümumavropa laboratoriyasının yaradılması təklifi ilə çıxış ediblər. Alimlərin fikrincə, bu, Avropanın texnoloji baxımdan Çin və ABŞ-dan geriliyini aradan qaldırmağa kömək edəcək.

**www.belta.by** saytının məlumatına görə, hazırda süni intellektin inkişafı elmi-tədqiqat fəaliyyətində prioritet istiqamətlərdəndir. Bununla yanaşı, bu sahədə texnologiyalar yaradan iri laboratoriya və mərkəzlər ABŞ ərazisində yerləşir. Həmçinin ekspertlər bildirir ki, Avropa müvafiq sahəyə investisiya qoyuluşlarının həcminə görə ABŞ və Çindən geri qalır. Bununla əlaqədar olaraq, Avropanın aparıcı universitetləri "beyin itkisi" problemi ilə üzləşir.

Avropanın elm xadimlərinin açıq məktubunda deyilir ki, yaranmış vəziyyətin dəyişdirilməsinə "ELLIS" (European Lab for Learning and Intelligent Systems) tədqiqat mərkəzinin yaradılması kömək edə bilər. Ümumavropa laboratoriyası müxtəlif ölkələrin ən yaxşı mütəxəssislərini bir araya toplayacaq ki, bu da həm fundamental, həm də tətbiqi elmin inkişafına xidmət edəcək. Alimlər ümid edirlər ki, "ELLIS" süni intellektin tədqiqi sahəsində dünya liderinə çevriləcək.

Layihənin bu il həyata keçirilməsinə başlamaq təklif edilir. Bu məqsədlə Fransa və Almaniyanın əməkdaşlığına əsaslanan hökumətlərarası təşkilatın yaradılması nəzərdə tutulur. Alimlər təşkilatda iştirak üçün Avropa İttifaqının digər ölkələrini, eləcə də İsveçrə, Böyük Britaniya və İsraili dəvət etmək niyyətindədir. Mərkəzin tədqiqat fəaliyyəti ilə yanaşı, gənc alimlər üçün maarifləndirici proqramların hazırlanması ilə məşğul olacağı planlaşdırılır.

# Etibarsız sayılır

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məlikov Rüfət Ramin oğluna verilmiş E-003579 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayonu** Çarxı kənd tam orta məktəbini 1979-cu ildə bitirmiş Nizamova Zümrüd Hüseyn qızına verilmiş AZ-II-945884 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayonu** Aşıqbayramlı kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Babayev Şövqi Əjdər oğluna verilmiş A-730829 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialı** tərəfindən 1990-cı ildə Mustafayeva (Əsədullayeva) Esmira Ağabəy qızına verilmiş ФВ-000156 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2017-ci ildə Əsgərova Aytən Elman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011- ci ildə Şiriyeva Səbinə Şakir qızına verilmiş BB-I-017859 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbi 1998-ci ildə bitimiş Əhmədova Rahidə Eyvaz qızına verilmiş A-225479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 58 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədov Nurlan Kamran oğluna verilmiş B-360098 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2012-ci ildə Abroshan Mahsa Karimə verilmiş TN-008903 nömrəli Hazırlıq kursu şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Laçın şəhər** 43 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Mehdiyeva Aygün Yasin qızına verilmiş B-149827 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 168 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Məmmədov Tofiq Vaqif oğluna verilmiş A-267379 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Günəşli kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Maqsudova Nəzakət Əli qızına verilmiş 1685 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2016-cı ildə Sadıqzadə Sadıq Niyazi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Salyan rayonu** Kürsəngi kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Qəribov Fərrux Nizamət oğluna verilmiş B-028470 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2011-ci ildə Məmmədov Cahangir Yusif oğluna verilmiş B-228073 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2010-cu ildə Abdurrəhmanova Könül Dağlar qızına verilmiş B-191095 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əliyeva Gülnarə Məmməd qızına verilmiş 081215 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2004-cü ildə Nəsirova Tünzalə Nəsir qızına verilmiş BB-II-002206 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Tükəvilə kənd tam orta məktəbini 2016-cı ildə bitirmiş Əkbərzadə Seymur Sadir oğluna verilmiş A-546791 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədov Fəxri Məmməd oğluna verilmiş E-005150 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Texniki Humanitar Liseyi** 2016-cı ildə bitirmiş Məmmədov Həsən Hikmət oğluna verilmiş A-500639 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm İnstitutu** tərəfindən 2012-ci ildə Əlizadə Nigar Natiq qızına verilmiş B-246298 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2015-ci ildə Həziyev Ələddin Barat oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Mingəcevir şəhər** 9 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İbrahimova Qərənfil Əli qızına verilmiş B-577967 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Alar kənd 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Mənsimova Nazilə Böyükxan qızına verilmiş A-257916 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Kövüzbulaq kənd 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ağayev Pərviz Yasər oğluna verilmiş B-518349 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Səttarova Adilə Alik qızına verilmiş AB-I-085055 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Mehdiyev Zaur Fazil oğluna verilmiş A-115338 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Abdullayev Emil Nahib oğluna verilmiş B-691872 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Paşayeva (Sadıxova) Ramilə Renbrant qızına verilmiş B-137345 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Tağıyev Şəmil Elşənoviçə (Elşən oğlu) verilmiş E-055184 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 44 nömrəli Məktəb-Lisey-Kompleksini 1986-cı ildə bitirmiş Həsənova Rəfiqə Aslan qızına verilmiş 012314 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Qurbanov Ramil Kamal oğluna verilmiş A-062128 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2007-ci ildə Nağıyeva Gülbikə Maarif qızına verilmiş BB-II-052492 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əlizadə Humay Fəzail qızına verilmiş A-416866 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2017-ci ildə Əlizadə Humay Fəzail qızına verilmiş AA-092819 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva Suzanna Mirata qızına verilmiş A-472415 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, BSU-nun Həmkarlar Təşkilatı və professor-müəllim heyəti Əsaslı kitabxananın müdiri Səmayə Əliyevaya əzizi

**ZİYAD ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, BSU-nun Həmkarlar Təşkilatı və professor-müəllim heyəti Ümumi dilçilik kafedrasının dosenti Gülbəniz Cəfərovaya atası

**CAHANGİR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər 53 nömrəli tam orta məktəbin kollektivi məktəbin musiqi müəllimi Vəfa Əhmədovaya qardaşı

**NURMƏMMƏD ƏBİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının direktoru və pedaqoji kollektivi Təbiət və pedaqoji elmlər kafedrasının dosenti

**ƏLİSAHİB MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL LearnEnglish

## 5 great British entrepreneurs

| Name | Birth–death | Famous for | Education | Trivia |
|---|---|---|---|---|
| Matthew Boulton | 1728–1809 | Boulton & Watt steam engines, Royal Mint | Left school at age 15 | His image is on the £50 note with James Watt. |
| Dame Anita Roddick | 1942–2007 | The Body Shop | Bath College of Higher Education (Teaching) | She worked for the United Nations. |
| Alan Michael Sugar, Baron Sugar | 1947– | Amstrad, Tottenham Hotspur football club, *The Apprentice* TV show | Left school at age 16 | He collects classic Rolls-Royce and Bentley cars. |
| Sir Richard Branson | 1950– | Virgin Group (more than 400 companies) | Left school at age 15 | Virgin Records' first album was *Tubular Bells*, by Mike Oldfield. |
| Simon Fuller | 1960– | Artist manager (David and Victoria Beckham) and television producer (*Pop Idol*) | Attended school where his father was headmaster | He has had a role in more than 100 No. 1 hit songs in the UK. |
| *Source: Wikipedia* | | | | |

## Activity 6

Match a person with a description.

| | | |
|---|---|---|
| Anita Roddick | Matthew Boulton | Simon Fuller |
| Richard Branson | Alan Sugar | |

1. He/she produces TV shows.
2. He/she loves expensive cars.
3. He/she worked for an international organisation.
4. He/she has over four hundred companies.
5. His/her picture is on a banknote.

## Activity 7

Find one spelling mistake in each sentence and correct it.

1. Matthew Boulton developed the steem engine.
2. Anita Roddick trained as a teatcher.
3. Alan Sugar colects classic cars.
4. Richard Branson has more than 400 companys.
5. Simon Fuller has been a television producter.



Another view of the financial district of London



Richard Branson, a famous British entrepreneur

**Useful link >**

This content on video: http://learnenglish.britishcouncil.org/en/britain-great

**Answers**

Activity 6

1. Simon Fuller; 2. Alan Sugar; 3. Anita Roddick; 4. Richard Branson; 5. Matthew Boulton

Activity 7

1. Matthew Boulton developed the steam engine.
2. Anita Roddick trained as a teacher.
3. Alan Sugar collects classic cars.
4. Richard Branson has more than 400 companies.
5. Simon Fuller has been a television producer.

To find more English language activities visit:
http://learnenglish.britishcouncil.org

© British Council 2013

ENTREPRENEURS ARE GREAT BRITAIN